

# BƏDİÜZZAMAN AXIRZAMANI İZAH EDİR

BƏDİÜZZAMANA GÖRƏ HƏLƏ HEÇ KİMİN İCRA ETMƏDİYİ HZ. MEHDİNİN 3-CÜ BÖYÜK VƏZİFƏSİ

HARUN YƏHYA

# MÜNDƏRİCAT

Hz. Mehdinin üç böyük vəzifəsi

Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə izah etmişdir?

Bədiüzzaman, özünə Mehdilik zənni edən nur tələbələrinin səhv etdiklərini necə izah edir?

Bədiüzzaman əsərlərində, özünün "Son Mücəddid" və "Mehdi" olmadığını dəlilləriylə bərabər izah etmişdir

ƏLAVƏ BÖLMƏ: Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Hz. Mehdinin üç böyük vəzifəsi

Bədiüzzaman Səid Nursi, hz. Mehdinin üç vəzifəsi olduğunu demiş, bu üç vəzifənin eyni vaxtda yerinə yetirilməsinin hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olduğuna diqqət çəkmişdir.

Çox vaxt məktublarımda işarə etdiyim kimi, **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN HZ. MEHDİNİN TƏMSİL ETDİYİ MÜQƏDDƏS CAMAATININ ŞƏXSİ MƏNƏVİSİNİN ÜÇ VƏZİFƏSİ** vardır. Əgər qiyamət qopmasa və insanlar tamamilə yoldan azmasa, o vəzifələri Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələnlərin edəcəyini Allahın rəhmətindən gözləyirik. Və **ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQDIR.** *(Emirdağ Lahikası, səh. 259)*

**Bədiüzzaman, bu sözündə hz. Mehdinin Axırzamanda mütləq gələcəyini və hz. Mehdi ilə müqəddəs camaatının birlikdə yerinə yetirəcəkləri üç böyük vəzifə olduğunu izah edir:**

**<u>PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN HZ. MEHDİNİN TƏMSİL ETDİYİ MÜQƏDDƏS CAMAATININ ŞƏXSİ MƏNƏVİSİNİN:</u>**

Bədiüzzaman bu sözündə hz. Mehdi ilə əlaqədar əhəmiyyətli bir neçə mövzunu eyni anda izah etmişdir. Bədiüzzaman əvvəlcə **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN HZ. MEHDİNİN TƏMSİL ETDİYİ"** sözləri ilə, hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələcək bir şəxs olduğunu xatırlatmışdır. Bir şəxsi mənəvinin hər hansı bir soydan gəlməsi şübhəsiz ki, mümkün deyildir. Yalnız hər hansı bir insan başqa bir insanın nəslindən gələ bilər. Bədiüzzaman da burada bu həqiqəti bəyan etmiş, hz. Mehdinin mənəvi bir şəxsiyyət olmadığını, **"BİR ŞƏXS"** olduğunu açıq şəkildə ifadə etmişdir.

Bədiüzzaman bu sözündə həmçinin hz. Mehdi və camaatının iki fərqli anlayış olduğunu xatırladaraq, hz. Mehdinin bir "şəxsi mənəvi" olduğu iddiasının etibarsızlığını yenidən bəyan etmişdir. Bədiüzzaman **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN HZ. MEHDİNİN TƏMSİL ETDİYİ müqəddəs camaatın şəxsi-mənəvisi"** sözləri ilə "hz. Mehdinin bir camaatı" olacağını və **"bu camaatın başında da onu təmsil edən hz. Mehdinin şəxsən özü olacağını"** ifadə etmişdir. Hz. Mehdinin bir camaatının olması üçün, əvvəlcə hz. Mehdinin bir şəxs olaraq mövcud olması lazımdır. Çünki bir şəxsi mənəvinin özünə aid bir camaatının olmasından, əlbəttə ki, söhbət gedə bilməz. Bədiüzzaman da bu sözündə bu həqiqəti dilə gətirmişdir. Bədiüzzamanın ifadə etdiyi bu vəziyyəti başa düşmək üçün bir neçə sualı nəzərdən keçirək:

**1 - Bədiüzzaman Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn hz. Mehdinin nəyi təmsil etdiyini bildirmişdir?**

**Müqəddəs camaatının şəxsi mənəvisini.**

**2 - Bədiüzzaman kimin müqəddəs camaatın şəxsi mənəvisini təmsil etdiyini bildirmişdir?**

**Hz. Mehdinin.**

Bu sualların cavabları hz. Mehdi və onun müqəddəs camaatının bir-birindən fərqli anlayışlar olduğunu yenidən bəyan edir.

Bədiüzzaman Axırzamanda hz. Mehdinin yanında olan mömin birliyinin müqəddəs bir camaat olduğunu, bu camaatın liderliyini edən hz. Mehdinin də hz. Peyğəmbər (s.ə.v)-in soyundan gələn müqəddəs biri olacağını ifadə etmişdir. Necə ki, Bədiüzzaman bu sözünün son cümləsində **"ONUN ÜÇ VƏZİFƏSİ OLACAQ"** ifadəsi ilə bu mövzuya aydınlıq gətirmiş, bu üç vəzifəni, yanındakı müqəddəs birliklə bir yerdə, hz. Mehdinin də şəxsən başlarında iştirak etməsi ilə yerinə yetirəcəyini ifadə edir.

Necə ki, hz. İsa və hz. Mehdinin mənəvi bir şəxs, ruh ya da məna kimi görünməz bir güc olaraq təyin edilməsi, Quran ayələrində bildirilən Allahın adətullahı (Allahın qanunu) ilə tamamilə ziddiyyət təşkil edir. Tarixən heç bir elçi və ya peyğəmbər, bir şəxsi mənəvi olaraq gəlməmişdir. Quranda müxtəlif cəmiyyətlərə göndərilən elçilər, nəbilər və rəsulların həyatları, mübarizələri və təbliğləri haqqında xeyli məlumatlar verilmişdir. Həyatlarının sonuna qədər göndərildikləri qövmləri haqq dinə dəvət etmiş, onları Allahın əzabına qarşı xəbərdar edib qorxutmuş və iman edənləri cənnətlə müjdələmişdilər. Yaşadıqları cəmiyyətlərdəki inkarçıların təzyiqlərinə, qurduqları tələlərə və haqq dinə istiqamətli mübarizələrinə səbir və təvəkküllə mübarizə aparmış, onları Allahın razı olacağı əxlaqı yaşamağa çağırmışlar. Bütün bu məlumatlar bizə, tarixən heç bir elçi, nəbi və ya peyğəmbərin mənəvi bir şəxs olaraq göndərilmədiyini, bütün elçilərin bir fərd olaraq gəldiklərini göstərir.

Əsrlərdir davam edən bu adətullahı (Allahın qanunu) bütün İslam tarixində olduğu kimi Axırzamanda gələcək olan hz. İsa və hz. Mehdiyə də aid etmək olar. Ancaq əlbəttə ki, bütün peyğəmbər və elçilərin olduğu kimi hz. İsa və hz. Mehdinin də özlərindən ayrı olaraq şəxsi mənəviləri də olacaqdır. Quranda, göndərilmiş olan bütün peyğəmbər və elçilərin ətrafında, onlara iman gətirən və onların göstərdikləri haqq yolu izləyən bir birlik olduğu xəbər verilmişdir. Elçilərə iman gətirən bu kəslər və onların öz elçiləri ilə birlikdə etmiş olduqları fəaliyyətlərin hamısı, bu elçilərin şəxsi mənəvilərini meydana gətirər. Quranda peyğəmbərlərin həyatlarını izah edən hekayələrdə bu vəziyyət aydın görünür. Məsələn,

Peyğəmbərimiz (s.ə.v)-in səhabələri, onun şəxsi mənəvisini əmələ gətirmişdir. Lakin bu, Peyğəmbərimiz (s.ə.v)-in mövcudluğu şərti ilə meydana gəlmişdir. Bu vəziyyət Axırzamanda da dəyişməyəcək, Bədiüzzamanın da dilə gətirdiyi kimi, hz. İsa və hz. Mehdi yanlarındakı mömin birliklərinin başında şəxsən bir hidayət öndəri olaraq olacaqlar.

## ONUN:

Bədiüzzaman, hz. Mehdidən danışarkən, **"ONUN"** əvəzliyindən istifadə edərək, yenidən hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu ifadə edir.

Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdinin üç böyük vəzifəsi olacaqdır. Hz. Mehdi bu vəzifələrini yerinə yetirərkən ətrafında özünə dəstək olan mübarək bir birlik olacaqdır. Bu böyük vəzifələr "hz. Mehdi və onun müqəddəs camaatının" bir yerdə reallaşdıracağı vəzifələrdir. Ancaq Bədiüzzamanın **"ONUN üç vəzifəsi olacaq"** sözləri ilə açıq şəkildə bəyan etdiyi kimi, hz. Mehdi bu birliyin başçısı olaraq bu vəzifələri yerinə yetirəcəkdir.

## ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQ:

Bədiüzzaman, hz. Mehdinin **"bir və ya iki vəzifəsi deyil, tam olaraq ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAĞINI"** bildirir. Bədiüzzaman, hz. Mehdinin təmsil etdiyi camaatla birlikdə bu üç vəzifənin üçünü də yerinə yetirməsindən bəhs etmişdir. Bədiüzzaman bunu, hz. Mehdini özündən əvvəl gələn mücəddidlərdən fərqləndirən və təqdim edən ən əhəmiyyətli əlamətlərindən olduğunu bildirmişdir.

Bu üç böyük məsuliyyət digər islam alimlərinin dövründə tam olaraq yerinə yetirilməmişdir. Bədiüzzaman əsərlərində hz. Mehdidən əvvəl gələn mücəddidlərin, onun üç vəzifəsindən təkcə birini yerinə yetirdiklərini demişdir. Ancaq Axırzamanda gələcək hz. Mehdinin hər üç vəzifəni də eyni anda yerinə yetirəcəyini və bu xüsusiyyətinə görə də Axırzamanın "Böyük Mehdisi" ünvanını alacağını bildirmişdir.

Birincisi: **FƏNN VƏ FƏLSƏFƏNİN TƏSİRİYLƏ VƏ MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM XƏSTƏLİYİNİN İNSANLAR ARASINDA YAYILMASIYLA, HƏR ŞEYDƏN ƏVVƏL FƏLSƏFƏNİ VƏ MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM KİMİ ALLAHI İNKAR EDƏN DİNSİZ CƏRƏYANLARI TAM SUSDURACAQ TƏRZDƏ** imanı qorumaqdır. Əhli imanı, yəni iman edənləri azğınlıqdan qorumaqdır... *(Emirdağ Lahikası, səh. 259)*

Bədiüzzaman bu sözündə, hz. Mehdinin üç böyük vəzifəsindən birincisini izah edir. Buna görə də hz. Mehdinin birinci vəzifəsi, **"materialist və ateist fəlsəfələri tamamilə susduracaq bir tərzdə insanların iman etmələrinə vəsilə olmaq"**dır:

## MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM KİMİ ALLAHI İNKAR EDƏN CƏRƏYANLARI TAM SUSDURACAQ TƏRZDƏ:

### *1 –Fənn və Fəlsəfə:*

Bədiüzzaman bu sözlərində, fənn və fəlsəfənin təsiriylə materializm, darvinizm və ateizm kimi Allahı inkar edən dinsiz cərəyanların insanlar arasında yayıldığına diqqət çəkmişdir. Bədiüzzaman bu cərəyanların təsirsiz hala gətirilərək tam olaraq susdurulmasının və insanların imanının xilas edilməsinin hz. Mehdinin birinci vəzifəsi olduğunu ifadə etmişdir.

Bədiüzzaman burada hz. Mehdinin birinci vəzifəsiylə əlaqədar olaraq **"fənn və fəlsəfə"**nin təsirinə xüsusilə diqqət çəkir. Elm və fəlsəfə, iman şüuru ilə yaxınlaşan insanların dünyagörüşüylə hərəkət edildiyi vaxt, böyük sıçrayışlara, Allahın varlığının və sifətlərinin daha yaxşı başa düşülməsinə səbəb olar. Elmin, materializmin tərəfdarları tərəfindən insanlar üzərində yaradılan səhv istiqamətləndirmələrini, Bədiüzzamanın da ifadə etdiyi kimi hz. Mehdi aradan qaldıracaqdır. Axırzamanda texnologiyanın sürətlə inkişaf etməsi nəticəsində bir çox elm sahəsində irəliləyişlər olacaqdır. Allahın varlığının dəlilləri, yer üzündəki iman həqiqətləri elmi dəlilləriylə açıq şəkildə məlum olacaqdır. Hz. Mehdi bu həqiqətləri insanlara ən təsirli üsullarla çatdıracaq və bu mövzuda dünya səviyyəsində bir nəticə əldə edəcəkdir. Məsih Dəccalın Axırzaman fitnəsi belə güclü üsullarla yox ediləcəkdir.

### *2- Materializm, darvinizm və ateizm xəstəliyi:*

Materializm və ateizm, insanlara böyük fəlakətlər gətirən azğın cərəyanlardır. Darvinizm, materializm və ateizmə fikri əsas meydana gətirər. Darvinizm kainatın və canlıların kor təsadüflər nəticəsində öz-özünə həyatı meydana gətirdiklərini iddia edir. Son 150 ilin ən böyük yalanı olan bu cərəyanın fikri olaraq tamamilə susdurulması dövrümüzə qədər mümkün olmamışdır. Darvinizm, müasir elmin son tapıntıları və inkişaf edən texnologiya vəsiləsiylə hz. Mehdi dövründə tamamilə aradan qalxacaqdır. Bəşər tarixinin yaşadığı bu ən şiddətli fitnənin fikri olaraq susdurulması hz. Mehdi dövründə reallaşdırılacaqdır.

Bədiüzzaman bu sözlərində hz. Mehdinin, **"MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM KİMİ ALLAHI İNKAR EDƏN CƏRƏYANLARI TAM SUSDURACAQ TƏRZDƏ"** bir fəaliyyət göstərməklə insanların imanlarının xilas olmasına vəsilə olacağını ifadə etmişdir. Bədiüzzaman, Axırzamanda ateist fəlsəfələrin bir təhlükəyə çevriləcəyini xüsusilə darvinist, materialist fəlsəfələrin ateizmin hesabına güclənəklərini və Allahın varlığını inkar edəcək təhlükəli bir hala gələcəklərini ifadə etmişdir. Buna görə də hz. Mehdinin birinci vəzifəsinin, materializm fikrini, yəni Allahı inkar etmək üzərində qurulmuş materialist, Darvinist və ateist fəlsəfələrlə mübarizə aparmaq və bu fəlsəfələrin insanlar üzərindəki təsirini tam mənasıyla aradan qaldırmaq olacağını ifadə etmişdir. Bədiüzzamanın burada istifadə etdiyi **"TAM SUSDURACAQ TƏRZDƏ"** ifadəsi çox əhəmiyyətlidir. Məlum olduğu kimi materializmin həm Türkiyədə, həm də dünyada güclənməsi Bədiüzzamanın dövründə, həmçinin vəfatından yəni 1960-cı illərdən sonra da dövrümüzə qədər davam etmişdir. Televiziya və radio kanallarının inkişafıyla, yazılı mətbuatın da dəstəyiylə təsirləri getdikcə çoxalmışdır. Yəni, Bədiüzzamanın vəfatından sonra da materializm təbliğatı genişlənərək 21-ci əsrə qədər gəlib çatmışdır.

Buna görə də özünün də ifadə etdiyi kimi, Bədiüzzamanın dövründə bu mövzuda bir nəticə əldə edilməmişdir. Bədiüzzaman bu sözündə istifadə etdiyi **"TAM SUSDURACAQ TƏRZDƏ"** ifadəsiylə bu həqiqətə diqqət çəkmişdir. Materializm, ateizm və darvinizmin tənəzzülü ilə yanaşı insanların imanını xilas etmək vəzifəsi dünya səviyyəsində hz. Mehdiyə verilmişdir. Bədiüzzamanın şəxsən başladığı, ancaq tamamilə sona çatdırmadığı bu cərəyanla olan fikri mübarizəsi, hz. Mehdi vəsiləsi ilə davam edəcək və nəticə əldə olunacaqdır.

Bədiüzzaman da **"TAM SUSDURACAQ"** ifadəsiylə, ancaq hz. Mehdinin bu mübarizədə **"tam bir üstünlük təmin edəcəyinə"** işarə edir.

İkinci vəzifəsi: **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏSİ ÜNVANI İLƏ İSLAM ƏXLAQININ ƏSASLARINI YENİDƏN DİRÇƏLTMƏKDİR. İSLAM ALƏMİNİN BİRLİYİNƏ SÖYKƏNƏRƏK İNSANLARI** maddi və mənəvi təhlükələrdən və Allahın əzabından xilas etməkdir. Bu vəzifənin, dayaq nöqtəsi və qulluqçuları, **MİLYONLARLA FƏRDLƏRİ OLAN ORDULARDIR**. (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzamanın bu şərhlərinə görə hz. Mehdi, hal-hazırda müxtəlif qruplar halında dağınıq vəziyyətdə olan müsəlmanları birləşdirəcək, İslam əxlaqını və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnəsini dirçəldəcəkdir. İslam aləminin birliyini yaradacaq, bu vəsiləylə insanları maddi və mənəvi təhlükələrdən xilas edəcək və insanların Allahın qəzəbindən çəkinmələrinə vəsilə olacaqdır:

## PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏSİ ÜNVANI İLƏ:

Bədiüzzaman, **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏSİ ÜNVANI İLƏ"** deməklə hz. Mehdinin İslam dünyasının lideri olacağını xəbər verir. Hz. Mehdinin, **"İSLAM BİRLİYİNİN LİDERİ OLMAQLA YANAŞI İslamiyyəti yenidən dirçəltməsi, sayı milyonlara çatan bir birliyin maddi və mənəvi gücü ilə hərəkət edərək bütün yer üzündə İslam birliyini təmin etməsi"** xüsusiyyətləri, nə Bədiüzzamanın, nə də ondan əvvəlki mücəddidlərin dövründə reallaşmışdır. Bədiüzzaman Səid Nursi, yaşadığı müddət ərzində İslam dünyası və müsəlmanlar adına tayı bərabəri olmayan xidmətlər göstərmiş, xeyli insanın doğru yolu tapmasına, Allaha yaxınlaşmasına və imanının dərinləşməsinə vəsilə olmuşdur. Vəfatından sonra da müsəlmanlar üçün əhəmiyyətli bir hidayət rəhbəri olan hikmət dolu əsərlər qoyub getmiş, üstün elm və fərasəti ilə bütün müsəlmanlara işıq tutmuşdur. Böyük mütəfəkkir olan Bədiüzzaman 13-cü əsrin mücəddididir. Ancaq özünün də Peyğəmbərimiz (s.ə.v)-in hədisləri ilə izah etdiyi kimi, **"BÜTÜN MÜSƏLMANLARIN LİDERİ"** xüsusiyyətini daşımasından söhbət getməmişdir. Allahın izni ilə bütün İslam aləmi üçün böyük müjdələri özündə cəmləşdirən bu hadisələr, Axırzamanda hz. Mehdi vəsiləsiylə yaşanacaq və bu ünvanı da hz. Mehdi daşıyacaqdır. Bədiüzzaman, bu mövzunu bütün bu dəlilləriylə bərabər izah edərək, özünün Axırzaman Mehdisi olmadığını açıq bir şəkildə ifadə etmişdir.

Bu gün dünyada 1 milyarddan çox müsəlman yaşayır. Dünyada ilk dəfə olaraq müsəlmanların sayı bu qədər çoxalmışdır. Belə böyük bir kütləyə liderlik etmək tarixən heç kimə nəsib olmamışdır. Bədiüzzamanın da müjdələdiyi kimi, bu şərəfli xüsusiyyəti Allahın izni ilə Axırzamanın **"Böyük Mehdisi"** daşıyacaqdır.

## İSLAM ƏXLAQININ ƏSASLARINI YENİDƏN DİRÇƏLTMƏKDİR:

Bədiüzzaman **"İSLAM ƏXLAQININ ƏSASLARINI YENİDƏN DİRÇƏLTMƏKDİR"** sözləriylə, hz. Mehdinin ikinci vəzifəsinin İslam əxlaqının əsaslarını yenidən dirçəltmək olduğunu ifadə etmişdir. Bədiüzzamanın burada istifadə etdiyi **"DİRÇƏLTMƏK"** sözü çox əhəmiyyətlidir. Bu söz **"yenidən həyata qaytarmaq"** mənasındadır. Hz. Mehdi İslam əxlaqının dünya səviyyəsində yaşanmasına vəsilə olacaqdır. Bədiüzzaman bu mövzunun təməlini qoymuşdur, ancaq özünün də ifadə etdiyi kimi "yenidən həyata qaytarmaq şəklində olan bir dirçəlmə", tam mənası ilə hz. Mehdi vəsiləsiylə yerinə yetiriləcəkdir.

## <u>İSLAM ALƏMİNİN BİRLİYİNƏ SÖYKƏNƏRƏK:</u>

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin, əvvəllər heç bir mücəddid tərəfindən yerinə yetirilməmiş olan vəzifələrindən birinin **"İSLAM BİRLİYİNİN TƏMİN EDİLMƏSİ"** olduğunu xəbər verir. Məlum olduğu kimi bu birlik dünya müsəlmanlarının birlik halında yaşadıqları son dövlət olan Osmanlı İmperiyasının süqutundan sonra aradan qalxmışdır. Hz. Mehdi bu birliyin təkrar qurulmasına vəsilə olacaq, milyonlarla müsəlmanı bir yerə toplayacaqdır. Bədiüzzaman hz. Mehdinin bu birliyə söykənərək insanları maddi və mənəvi təhlükələrdən qoruyacağını və Allahın qəzəbindən çəkinmələrinə vəsilə olacağını bildirmişdir. Bədiüzzamanın da bəyan etdiyi kimi İslam Birliyinin təmin edilməsi və bu birliyin liderliyi ünvanının daşınması, həm Bədiüzzamanın, həm də ondan əvvəlki mücəddidlərin dövründə həmçinin indiki vaxtda da hələ ki, reallaşmamış hadisələrdir. Bədiüzzaman da bu həqiqəti bəyan etmiş, bu hadisələrin hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən biri olacağını xatırlatmışdır. Bədiüzzamanın da ifadə etdiyi kimi hz. Mehdi zühur etdiyində, vəsilə olacağı bu hadisələrlə Allah onu bütün insanlara tanıdacaqdır.

## <u>MİLYONLARLA FƏRDLƏRİ OLAN ORDULAR:</u>

Bədiüzzaman **"MİLYONLARLA FƏRDLƏRİ OLAN ORDULAR"** sözləri ilə, hz. Mehdinin bu birliyi təmin etməsində, ona kömək edəcək çox geniş bir kütlənin mövcud olacağından danışır. Bədiüzzaman hz. Mehdiyə xidmət edən, Allahın varlığı və birliyi mövzusunu, iman həqiqətlərini bütün insanlara izah edən, geniş əhatəli bir imani xidmət göstərən elm və iman birliklərinin mövcud olacağını bildirmişdir.

Bədiüzzaman, əsərlərində qeyd etdiyi digər sözlərində özünün də bu elm ordusunun, onlar üçün əvvəlcədən hazırlıq görən bir əsgəri olduğunu izah edir. Yaşadığı dövrdə, Bədiüzzamanın xidmətində belə geniş bir kütlənin dəstəyi və köməyinin mövcudluğundan söhbət getməmişdir. Bədiüzzamanın da sözlərində dəfələrlə ifadə etdiyi kimi, məhdud bir birlik olan Nur tələbələri çox məhdud imkanlar daxilində və çox böyük fədakarlıqlarla böyük bir iman xidməti göstəriblər. Bədiüzzaman belə böyük bir kütlənin dəstəyinin, ancaq Axırzamanda mümkün olacağını və bunun da hz. Mehdinin yerinə yetirəcəyi bu böyük vəzifəyə nəsib olacağını bildirir.

Üçüncü vəzifəsi: **...O ŞƏXS BÜTÜN İMAN EDƏNLƏRİN MƏNƏVİ KÖMƏYİ İLƏ** və **İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ** və **BÜTÜN ALİMLƏRİN VƏ VƏLİLƏRIN** və xüsusilə **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN HƏR ƏSRDƏ SAYI ÇOX OLAN MİLYONLARLA İNSAN PEYĞƏMBƏR NƏSLİNDƏN OLAN FƏDAKAR KİMSƏLƏRİN İŞTİRAKLARI İLƏ O BÖYÜK VƏZİFƏNİ YERİNƏ YETİRMƏYƏ ÇALIŞAR.** (Emirdağ Lahikası, səh. 260)

Bədiüzzaman bu sözündə, hz. Mehdinin üçüncü vəzifəsini izah etmişdir. Buna görə də, hz. Mehdi Quran əxlaqının tərk edildiyi bir dövrdə, insanların yenidən din əxlaqına yönəlməsinə vəsilə olacaq, İslam Birliyini yaradacaq və bu böyük vəzifələri yerinə yetirərkən özünə dəstəkçi olan bir çox saleh insan mövcud olacaqdır.

## O ŞƏXS:

Bədiüzzaman, hz. Mehdi üçün Risalə-i Nurun çox yerində olduğu kimi, bu sözlərində də hz. Mehdi üçün **"O ŞƏXS"** ifadəsini işlətmişdir. Bədiüzzaman, həm **"O"**, həm də **"ŞƏXS"** ifadəsiylə hz. Mehdinin bir birlik və ya mənəvi bir adam deyil, bir **"ŞƏXS"** olduğunu aydın şəkildə ifadə etmişdir.

Böyük elm və hikmət sahibi olan Bədiüzzaman, şübhəsiz ki, bu bəyanları da müəyyən bir hikmətlə edir və bütün müsəlmanları hz. Mehdinin **"BİR ŞƏXS"** olduğu mövzusunda ən doğru şəkildə məlumatlandırır.

## BÜTÜN İMAN EDƏNLƏRİN MƏNƏVİ DƏSTƏKLƏRİ İLƏ:

Bədiüzzaman, hz. Mehdinin üçüncü vəzifəsini çox əhəmiyyətli və geniş kütlələrin dəstəyi ilə reallaşdıracağını bildirmişdir. Bədiüzzaman **"BÜTÜN İMAN EDƏNLƏRİN MƏNƏVİ DƏSTƏKLƏRİ"** sözləriylə, **"BÜTÜN MÜSƏLMANLARIN"** ittifaq halında əmələ gətirəcəkləri birliyin hz. Mehdinin bu vəzifədəki köməkçiləri olacağını bildirmişdir.

Hz. Mehdi və köməkçiləri güclərini Allah sevgisindən, imanın şövqündən alan cəsur insanlar olacaqdır. İmanlarının nuru bütün dünyanın aydınlanmasına səbəb olacaqdır. Bütün müsəlmanların daxil olacağı belə geniş əhatəli bir ittifaqın dəstəyi, Bədiüzzamanın dövründə reallaşmamışdır. Bədiüzzamanın da müjdələdiyi kimi, bu geniş kütlənin mənəvi kömәkləri, ancaq Axırzamanda hz. Mehdi ilə birlikdə meydana gələcək və onun üçüncü vəzifəsinin həyata keçirilməsində böyük rol oynayacaqdır.

**İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ:**

Bədiüzzaman "**İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ**" deməklə, hz. Mehdinin üçüncü vəzifəsini "**İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ**" yerinə yetirəcəyini bildirmişdir. Belə bir birlik Bədiüzzamanın yaşadığı dövrdə hələ meydana gəlməmiş, buna görə də böyük bir ittifaqın köməyindən də söhbət getməmişdir. Bədiüzzaman İslam birliyinin bu köməkləşməsinin hz. Mehdi dövründə reallaşacağını və onun üçüncü vəzifəsində ona böyük bir köməklik göstərəcəyini ifadə etmişdir.

**BÜTÜN ALİM VƏ VƏLİLƏRİN İŞTİRAKLARI İLƏ:**

Bədiüzzaman hz. Mehdinin bu üçüncü vəzifəsindəki digər bir dəstəyin də "**BÜTÜN ALİM VƏ VƏLİLƏRİN İŞTİRAKLARI İLƏ**" reallaşacağını bildirmişdir. Hz. Mehdinin zühuru 1400 ildir ki, bütün İslam alimləri və iman sahibləri tərəfindən böyük bir həyəcanla gözlənilir. Şübhəsiz ki, bütün alimlərin və vəlilərin iştirakının təmin olunacağı belə bir böyük dəstək, hz. Mehdinin mübarizəsində və bu vəzifəsini yerinə yetirməsində əhəmiyyətli bir rol oynayacaq və ona böyük bir asanlıq bəxş edəcəkdir. Diqqət yetirsək Bədiüzzaman burada "**BÜTÜN**" sözündən istifadə etmiş və hz. Mehdini "**alimlərin hamısının birdən**" dəstəkləyəcəyini bildirmişdir. İslam alimlərinin belə böyük bir ittifaq halında dəstək vermələri Bədiüzzamanın yaşadığı dövrdə reallaşmamışdır. Bədiüzzaman bu iştirakın ancaq hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifə ilə birlikdə reallaşacağını xatırlatmışdır.

**PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN HƏR ƏSRDƏ SAYI ÇOX OLAN MİLYONLARLA İNSAN PEYĞƏMBƏR NƏSLİNDƏN OLAN FƏDAKAR KİMSƏLƏRİN İŞTİRAKLARI İLƏ:**

Bədiüzzaman bu sözü ilə, hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in mübarək nəslindən olan biri olacağına, ona dəstək verənlərin arasında Əhli-beytdən, yəni Peyğəmbər nəslindən gələn kəslərin iştirak edəcəyinə diqqət çəkmişdir. Bədiüzzaman, bütün müsəlmanlar, İslam alimləri və övliyalar ilə birlikdə "**sayı milyonlarla olan fədakar kimsələrin də hz. Mehdinin**

**yanında iştirak edəcəyini və bu müqəddəs şəxsə dəstək verəcəklərini"** bildirmişdir. Hz. Mehdinin üçüncü vəzifəsindəki digər köməkçilərində olduğu kimi, belə bir dəstək də əvvəllər nə Bədiüzzamanın dövründə, nə də ondan əvvəlki mücəddidlərin dövründə reallaşmamışdır. Bədiüzzamanın izah etdiyi kimi, **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN OLAN MİLYONLARLA İNSANIN İŞTİRAKI İLƏ"** ancaq hz. Mehdi dövründə reallaşacaqdır.

## O BÖYÜK VƏZİFƏNİ YERİNƏ YETİRMƏYƏ ÇALIŞAR:

Bədiüzzaman **"O BÖYÜK VƏZİFƏNİ YERİNƏ YETİRMƏYƏ ÇALIŞAR"** deməklə, "hz. Mehdinin bir şəxsi mənəvi deyil, **"BİR İNSAN OLARAQ FƏALİYYƏT GÖSTƏRƏCƏYİNİ"** ifadə etmişdir. Çünki bir şəxsi mənəvinin bir vəzifəni **"yerinə yetirməyə çalışması"** mümkün deyildir. Belə bir cəhd ancaq bir insanın reallaşdıra biləcəyi bir davranışdır. Bədiüzzaman da bu həqiqəti bəyan edərək hz. Mehdinin bir şəxs olduğunu ifadə etmişdir.

Bədiüzzaman sözlərində həmçinin hz. Mehdinin yerinə yetirəcəyi xidməti **"BÖYÜK VƏZİFƏ"** olaraq xarakterizə etmişdir. Bədiüzzamanın bu ifadəsinə görə hz. Mehdinin göstərəcəyi xidmətlər, özündən əvvəlki dövrlərdə gələn mücəddidlərin vəzifələrindən fərqli olaraq, **"ÇOX GENİŞ ƏHATƏLİ"** fəaliyyətlərdir. Hz. Mehdi İslam əxlaqını dünya səviyyəsində hakim edəcək, İslam dünyasını bir yerə toplayacaq və bütün müsəlmanların liderliyini boynuna götürəcəkdir. Bədiüzzamanın **"BÖYÜK VƏZİFƏNİ"** deməklə bəyan etdiyi bu hadisələr hz. Mehdinin tanınmasını təmin edəcək ən əhəmiyyətli əlamətlərindən olacaqdır.

Hərçənd ki, **HƏR ƏSRDƏ HİDAYƏT VERƏN, BİR CÜR MEHDİ VƏ MÜCƏDDİD GƏLƏR VƏ GƏLMİŞDİR. Lakin HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR BAXIMDAN YERİNƏ YETİRMƏSİ SƏBƏBİYLƏ AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINA SAHİB OLMAMIŞLAR.** *(Emirdağ Lahikası, səh. 260)*

Bədiüzzaman bu sözündə, Quran əxlaqını dünyada hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin, Axırzamanda hz. Mehdinin yerinə yetirəcəyi üç əhəmiyyətli vəzifəni eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir:

## HƏR ƏSRDƏ HİDAYƏT VERƏN MEHDİ BƏNZƏRİ VƏ MÜCƏDDİD GƏLƏR VƏ GƏLMİŞDİR:

Bədiüzzaman bu sözü ilə bir neçə əhəmiyyətli mövzuya aydınlıq gətirmişdir. Bədiüzzaman əvvəlcə hz. Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə istinad edərək hər əsrin əvvəlində bir mücəddid (yeniləyici) göndəriləcəyini xəbər vermişdir. Bədiüzzaman risalələrdə hz. Mehdinin də hicri 14-cü əsrin əvvəlində gələcəyini və 14-cü və 15-cü əsrlər arasındakı mücəddid olacağını ifadə etmişdir.

Bədiüzzaman burada həmçinin, hz. Mehdinin bir şəxsi mənəvi olmadığını da izah etmişdir. Peyğəmbərimiz (s.ə.v)-dən 14-cü əsrə qədər gələn bütün mücəddidlər bir **"ŞƏXS"** olaraq gəlmişlər. 14-cü əsrdə bu vəziyyət dəyişməyəcək, hz. Mehdi də bir şəxs olaraq şəxsən öz vəzifəsini yerinə yetirəcəkdir. Bədiüzzaman **"GƏLƏR VƏ GƏLMİŞDİR"** deməklə, bu davamlı təkrarlanan vəziyyəti ifadə etmiş, **"GƏLƏR"** sözü ilə bu adətullahın hələ də davam etdiyini ifadə etmişdir.

Bədiüzzaman bu sözüylə həmçinin əvvəlki dövrlərdə göndərilmiş olan mücəddidlər ilə hz. Mehdi arasındakı fərqi izah etmiş və hz. Mehdinin hansı xüsusiyyətləriylə bu mücəddidlərdən fərqlənəcəyini xəbər vermişdir. Bədiüzzaman əsərlərində hz. Mehdidən əvvəl gəlib-getmiş mücəddidlərin, onun üç vəzifəsindən birini yerinə yetirdiklərini və bu baxımdan "bir cür Mehdi və mücəddid vəzifəsinə sahib olduqlarını" demişdir. Ancaq Bədiüzzaman, yuxarıda bəhs etdiyi üç vəzifənin üçünü də eyni anda yerinə yetirəcək olan adamın yalnız **"BÖYÜK MEHDİ"** olacağını və bu xüsusiyyətiylə digər mücəddidlərdən fərqlənəcəyini ifadə etmişdir. Necə ki, Bədiüzzamanın istifadə etdiyi **"MEHDİ BƏNZƏRİ"** ifadəsi də bu vəziyyəti izah edir. Bədiüzzaman əvvəlki dövrlərdə gələn və hz. Mehdinin üç böyük vəzifəsindən təkcə birini yerinə yetirən kəslərin həqiqətdə Axırzamanın gözlənilən Mehdisi olmadıqlarını, bu kəsləri "bir cür Mehdi" olaraq xarakterizə edərək ifadə etmişdir.

## HƏR BİRİ:

Bədiüzzaman istifadə etdiyi **"HƏR BİRİ"** ifadəsiylə hz. Mehdidən əvvəl gəlmiş olan mücəddidlərin də hz. Mehdi kimi həqiqi şəxsiyyətlər olduqlarına, şəxsi mənəvi olmadıqlarına diqqət çəkir. Bu şərhdə bəhs edilən əvvəlki əsrlərdə göndərilən mücəddidlərin bir şəxs olduqları qəbul edilərkən, Bədiüzzamanın eyni şərhlərində yenə bir şəxs olacağını ifadə etdiyi "Böyük Mehdi"nin bir şəxsi mənəvi olması düşüncəsi, əlbəttə ki, ziddiyyətlidir. Bu düşüncəyə görə, Axırzaman Mehdisindən əvvəl gəlib-getmiş bütün mücəddidlərin də bir şəxsi mənəvi olması lazım idi. Ancaq belə bir şeydən söhbət getməmişdir. Necə ki, Bədiüzzaman da sözlərində bu həqiqəti izah edir. Bədiüzzamanın da müjdələdiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in rəvayətlərindəki xüsusiyyətlərə sahib olmasıyla tanınacaq olan Böyük Mehdi Axırzamanda **"BİR ŞƏXS"** olaraq zühur edəcək və Allahın izni ilə Bədiüzzamanın ifadə etdiyi üç vəzifəni də eyni anda yerinə yetirəcəkdir.

## ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR BAXIMDAN YERİNƏ YETİRMƏSİ SƏBƏBİYLƏ AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINA SAHİB OLMAMIŞLAR:

Bədiüzzaman sözlərində, iki cür Mehdi olduğunu ifadə etmişdir. Bunlardan birini, "əvvəlki Mehdilər", digərini isə Axırzamanda gələcək olan **"BÖYÜK MEHDİ"** olaraq adlandırmışdır. Bədiüzzaman Səid Nursi, hz. Mehdinin yerinə yetirəcəyi fəaliyyətləri saymış və bunları ondan başqa heç kimin yerinə yetirə bilməyəcəyini ifadə etmişdir. Buna görə də, bu əhəmiyyətli vəzifələrin yerinə yetrilməsinə vəsilə olan adama **"BÖYÜK MEHDİ"** demişdir. Bədiüzzaman əsərlərində, özü də daxil olmaqla əvvəlki dövrlərdə gəlib-getmiş, əvvəlki Mehdilər olaraq adlandırdığı mücəddidlərin bu üç vəzifəni yerinə yetirə bilmədikləri üçün Böyük Mehdi olmayacaqlarını izah etmişdir. Bədiüzzaman əsərlərində həmçinin sözü gedən kəslərin Böyük Mehdi ünvanına sahib ola bilməmələrinin başqa bir səbəbinin isə, bu kəslərin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində ifadə etdiyi xüsusiyyətlərə sahib olmadıqlarını bildirmişdir.

Həm bu **ÜÇ VƏZİFƏNİN EYNİ ANDA BİR ŞƏXSDƏ YAXUD CAMAATDA İNDİKİ DÖVRDƏ TAPILMASI VƏ MÜKƏMMƏL ŞƏKİLDƏ OLMASI VƏ BİR-BİRİNƏ MANE OLMAMASI ÇOX UZAQ SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR**. Axırzamanda, **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN OLAN NURANİ CAMAATI TƏMSİL EDƏN HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ CƏMLƏŞƏ BİLƏR**. *(Kastamonu Lahikası, səh. 139)*

Bədiüzzaman bu sözündə, hz. Mehdinin üç vəzifəsi olduğunu ifadə edir, bu üç vəzifənin eyni anda yerinə yetirilməsinin hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olduğuna diqqət çəkir. Bədiüzzaman öz yaşadığı dövrdə bu üç vəzifənin eyni anda yerinə yetirilə bilmədiyini, bunu ancaq hz. Mehdinin reallaşdıra biləcəyini deyir:

## ÜÇ VƏZİFƏNİ EYNİ ANDA:

Bədiüzzaman əsərlərinin çox yerində hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifə olduğundan bəhs etmişdir. Bədiüzzaman, hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən birinin bu üç vəzifəni eyni anda yerinə yetirməsi olduğunu ifadə edir. Bu vəzifələrin birincisi materialist, darvinist və ateist fəlsəfələrlə fikri mübarizə aparılması və bu cərəyanların fikirlə

tamamilə susdurulmasıdır. İkincisi İslam dünyasının liderliyini boynuna götürməklə İslam birliyini təmin edilməsi, üçüncüsü isə Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilərək bütün dünyaya hakim edilməsidir. Axırzamanda zühur edəcək olan hz. Mehdi, bu vəzifələrin üçünü də eyni anda yerinə yetirəcəkdir. Bu əlamət, onun tanınmasını təmin edəcək və onun ən əhəmiyyətli xüsusiyyətlərindən olacaqdır.

Bədiüzzaman əsərlərində hz. Mehdinin həmçinin, **"SİYASƏT MEHDİSİ, SƏLTƏNƏT MEHDİSİ VƏ DİYANƏT MEHDİSİ"** olaraq üç xüsusiyyətə eyni anda sahib olacağını və bu üç sahədə eyni anda Mehdilik edəcəyini demişdir. Bədiüzzaman, Quran əxlaqını dünyada hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin, Axırzamanda hz. Mehdinin yerinə yetirəcəyi üç əhəmiyyətli vəzifəni bu şəkildə eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir. Buna görə də Axırzamanın **"BÖYÜK MEHDİ"**si ünvanına sahib olmadıqlarını ifadə etmişdir.

Bədiüzzaman bu mənada, *Risalə-i Nurun* da hz. Mehdinin üç vəzifəsindən birincisi olan "imanı xilas etmək" vəzifəsini yerinə yetirdiyini demişdir. Ancaq bu xidmətin kiçik bir ərazi ilə məhdudlaşdığını, hz. Mehdinin böyük bir ərazidə olan vəzifələrini isə ancaq Böyük Mehdinin reallaşdıracağını izah etmişdir. Hz. Mehdi zühur etdiyi vaxt, hədislərdə də ifadə edildiyi kimi, Mehdiliyini iddia etməyəcək ya da bunun təbliğatını aparmayacaqdır. Hz. Mehdinin burada sayılan böyük işləri, bu müqəddəs şəxsin zühurunun ən böyük isbatı və dəlili olacaqdır.

Bədiüzzaman, hz. Mehdinin **"ÜÇ VƏZİFƏNİ EYNİ ANDA"** yerinə yetirəcəyini ifadə etdiyi bu sözüylə mövzunun əhəmiyyətini yenidən xatırladır. Özü də daxil olmaqla, əvvəlki mücəddidlərdən heç birinin bunların üçünü də eyni anda reallaşdırmadığına diqqət çəkərək, hz. Mehdinin o dövrdə hələ zühur etməmiş olduğunu xəbər verir.

BU ÜÇ VƏZİFƏNİN BİR ŞƏXSDƏ YAXUD CAMAATDA İNDİKİ DÖVRDƏ TAPILMASI VƏ

MÜKƏMMƏL ŞƏKİLDƏ OLMASI VƏ BİR-BİRİNƏ MANE OLMAMASI,

ÇOX UZAQ SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR:

Bədiüzzaman, **"İNDİKİ DÖVRDƏ"** deməklə öz yaşadığı dövrdən bəhs edir. Və öz dövründə, hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni tək bir şəxsin eyni anda yerinə yetirməsinin və bu üç vəzifənin bir-birinə maneə olmamısının mümkün olmadığını deyir. Bədiüzzaman bu qənaətinin nə qədər güclü olduğunu **"ÇOX UZAQ"** və **"SANKİ QEYRİ-**

**MÜMKÜN GÖRÜNÜR"** sözləriylə aydın şəkildə ifadə etmişdir. Bu da, hz. Mehdinin Bədiüzzamanın yaşadığı dövrdə zühur etmədiyini göstərən başqa bir əhəmiyyətli dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə, üç vəzifənin də eyni anda yerinə yetrilməsinə şərait olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr sonra zühur edəcək olan Böyük Mehdinin bu vəzifələrin hamısını yerinə yetirəcəyini xəbər verir.

## PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN

## NƏSLİNDƏN OLAN NURANİ CAMAATI TƏMSİL EDƏN:

Bədiüzzaman, əsərlərində dəfələrlə hz. Mehdinin hədislərdə bildirildiyinə görə **"seyid"** yəni **"Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn bir kimsə"** olacağını, **"özünün isə seyid olmadığını"** ifadə etmişdir. Bədiüzzaman bu sözündə də bu mövzuya dəfələrlə aydınlıq gətirir, **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN OLAN NURANİ CAMAATI TƏMSİL EDƏN"** deməklə, hz. Mehdinin "Peyğəmbərimiz (s.ə.v)-in mübarək nəslindən" gələn biri olacağına diqqət çəkir. Bədiüzzaman, hz. Mehdinin bu əhəmiyyətli əlamətlərindən birini xatırladaraq özünün hz. Mehdi olmadığını ifadə edir.

## HZ. MEHDİ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ:

Bədiüzzaman burada çox əhəmiyyətli bir həqiqəti izah edir. Bu həqiqət, hz. Mehdinin mənəvi bir adam deyil, bir şəxs olacağını göstərməkdən ibarətdir.

Çünki Bədiüzzaman, **"Hz. Mehdi VƏ camaatındakı şəxsi mənəvidə"** deməklə hz. Mehdinin şəxsindən və onun şəxsi mənəvisini əmələ gətirən camaatından fərqli anlayışlar kimi bəhs edir. Aradakı **"VƏ"** sözü, **"Hz. Mehdinin və camaatının iki müxtəlif varlıq olduğunu"** ifadə edir. Hz. Mehdinin müqəddəs şəxsiylə yanaşı, bir də onun şəxsi mənəvisini əmələ gətirən bir camaatı olacaqdır. Hz. Mehdinin şəxsi olmadan, belə bir şəxsi mənəvidən danışmaq mümkün deyildir. Bədiüzzaman da bu həqiqəti ifadə edir və hz. Mehdinin bir şəxs olacağını müjdələyir.

ANCAQ CƏMLƏŞƏ BİLƏR:

Bədiüzzamanın izah etdiyi üç böyük vəzifə ancaq Axırzamanda zühur edəcək olan hz. Mehdinin yerinə yetirə biləcəyi vəzifələrdir. Bədiüzzaman, burada istifadə etdiyi **"ANCAQ"** sözüylə başqa bir insanın bu vəzifələri bacarmasının Allahın diləməsiylə **"QEYRİ-MÜMKÜN"** olduğunu ifadə etmişdir. Çünki Allah bu vəzifələri yalnız hz. Mehdinin yerinə yetirə bilməsini təqdir etmişdir. Hz. Mehdi də taleyində belə təqdir edildiyi üçün bu vəzifələri Allahın izni ilə müvəffəqiyyətlə yerinə yetirəcəkdir. İslam tarixində hələ bunu bacaran bir kimsə ya da birlik görülmədiyi kimi Bədiüzzaman öz yaşadığı dövrdə də bu vəziyyətin reallaşmadığını bəyan edir.

**BÖYÜK MEHDİNİN VƏZİFƏLƏRİ ÇOXDUR EYNİLƏ SİYASƏT ALƏMİNDƏ, DİYANƏT ALƏMİNDƏ, SƏLTƏNƏT ALƏMİNDƏ, MÜBARİZƏ ALƏMİNDƏ VƏ BİR ÇOX SAHƏLƏRDƏ İŞLƏRİ OLDUĞU KİMİ...** *(Şualar, səh. 590)*

Bədiüzzaman, Axırzamanda zühur edəcək olan hz. Mehdinin;

- Siyasət,
- Diyanət,
- Səltənət

sahələrində böyük vəzifələri olacağını bildirir, ancaq bu vəzifələrin hamısını eyni anda tamamilə yerinə yetirən adamın hz. Mehdi ola biləcəyini ifadə edir:

BÖYÜK MEHDİNİN VƏZİFƏLƏRİ ÇOXDUR:

Bədiüzzaman "Böyük Mehdi"nin, əvvəlki Mehdilər olaraq adlandırdığı kəslərdən ən əhəmiyyətli fərqlərindən birinin, onun yerinə yetirəcəyi "böyük vəzifələr" olduğunu bildirmişdir. Bədiüzzaman **"VƏZİFƏLƏRİ ÇOXDUR"** deyərək, yerinə yetirəcəyi bu vəzifələrin hz. Mehdini insanlara tanıdacaq əhəmiyyətli bir əlamət olduğunu bəyan edir. Bədiüzzaman, bu vəzifələrin hamısının eyni anda yerinə yetrilmədiyi təqdirdə isə, heç kimin hz. Mehdi olmasının mümkün ola bilməyəcəyini xatırladır.

<u>EYNİLƏ SİYASƏT ALƏMİNDƏ, DİYANƏT ALƏMİNDƏ, SƏLTƏNƏT ALƏMİNDƏ, MÜBARİZƏ ALƏMİNDƏ VƏ BİR ÇOX SAHƏLƏRDƏ İŞLƏRİ OLDUĞU KİMİ:</u>

Bədiüzzaman bu sözlərində **"VƏZİFƏLƏRİ ÇOXDUR"** deməklə hz. Mehdinin bu vəzifələrinin nələr olduğunu izah edir. Hz. Mehdinin, **"SİYASƏT MEHDİSİ, SƏLTƏNƏT MEHDİSİ və DİYANƏT MEHDİSİ olaraq bu üç xüsusiyyətə eyni anda sahib olacağını və bu üç sahədə eyni anda Mehdilik edəcəyini"** deyir. Diqqət yetirsək Bədiüzzamanın bu vəzifələri "üç müxtəlif adam"ın yerinə yetirəcəyindən bəhs etmədiyini görərik. Əksinə hz. Mehdinin bu **"ÜÇ MÖVZUDA EYNİ ANDA"** möminlərin liderliyini boynuna götürəcəyini ifadə etmişdir. Həmçinin bu sözləriylə, "Mehdiliyin üç vəzifəsindən, təkcə birinin yerinə yetirilməsinin Mehdilik üçün kafi olacağını deməyin də" səhv olduğunu bəyan edir.

Bədiüzzaman verdiyi bu məlumatlarla, hz. Mehdinin çox geniş imkanlara sahib olacağını və bu vəzifələrin tamamilə yerinə yetirilməsinin bu üç sahədə eyni anda güc sahibi olmaqla reallaşdırılacağını izah edir. **BİR ÇOX SAHƏLƏRDƏ İŞLƏRİ OLDUĞU KİMİ"** deməklə isə, hz. Mehdinin bu **"fəaliyyətlərinin və təsir sahəsinin genişliyini"** ifadə edir. Bədiüzzaman yaşadığı müddət ərzində çox böyük bir iman xidməti yerinə yetirmiş ancaq bu üç sahədə eyni anda imkan və səlahiyyətlərə sahib olmamışdır. Əksinə öz ömrünü əsarət, maddi çətinliklər və problemlər altında keçirmişdir. Müxtəlif haqsızlıqlara və əziyyətlərə məruz qalmış, həyatının böyük bir hissəsini həbsxanada və sürgün şəraitində keçirmişdir. Şübhəsiz ki, əgər Bədiüzzaman Mehdi olub, diyanət, səltənət və siyasət sahələrindəki üç vəzifəni yerinə yetirmiş olsaydı, belə bir vəziyyətdən söhbət getməzdi. Buna görə də Bədiüzzaman, hz. Mehdi haqqında verdiyi bu məlumatla özünün hz. Mehdi ola bilməyəcəyini şəxsən öz sözləriylə yenidən dəlilləndirmişdir.

Bədiüzzaman həmçinin bu sözləriylə hz. Mehdinin **"lider xüsusiyyətlərini daşıyan üstün BİR ŞƏXS"** olduğuna yenidən diqqət çəkmişdir. Bədiüzzamanın saydığı vəzifələrin hər biri ancaq **"BİR İNSAN"**ın boynuna götürə biləcəyi məsuliyyətlərdir. **"MEHDİ"** sözü, **"HİDAYƏTƏ ÇATAN VƏ HİDAYƏTƏ YÖNƏLDƏN"** mənasındadır. Bədiüzzaman hz. Mehdinin **"DİYANƏT", "SİYASƏT"** və **"SƏLTƏNƏT"** sahəsində bu **"MEHDİLİK XÜSUSİYYƏTİNİ"** daşımaqla boynuna böyük məsuliyyətlər götürəcəyini ifadə edir. Bir şəxsi mənəvinin diyanət, siyasət və səltənət mövzularında səlahiyyət sahibi olması; bu sahələrdə insanların məsuliyyətlərini boynuna götürərək ədaləti təmin etməsi heç cür mümkün deyildir. Bütün bu məsuliyyətlərin yerinə yetirilməsi Bədiüzzamanın da ifadə etdiyi kimi, **"HİDAYƏTƏ ÇATMIŞ BİR İNSANIN", "iman, ağıl və vicdandan istifadə edərək yerinə yetirə biləcəyi vəzifələr"**dir. Bədiüzzaman da sözləriylə bu həqiqəti bəyan etmiş, hz. Mehdinin bir şəxsi mənəvi ola bilməyəcəyini ifadə etmişdir.

**"BÖYÜK MEHDİ"NİN DÖRD ƏHƏMİYYƏTLİ VƏZİFƏSİNİN VƏ DAHA ƏVVƏL GƏLİB-GETMİŞ KİÇİK MEHDİLƏRİN "BÖYÜK MEHDİ"NİN MÜƏYYƏN VƏZİFƏLƏRİNİ BİR İSTİQAMƏTDƏ YERİNƏ**

**YETİRDİKLƏRİNİ** və **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN YOLUNU, QURAN ƏXLAQINI VƏ QURAN ƏXLAQININ ƏSASLARINI, HƏQİQƏTLƏRİNİ VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ YENİDƏN DİRÇƏLDİB, HAMIYA EŞİTDİRƏRƏK VƏ TƏTBİQ EDƏRƏK, BAŞ KOMANDİRLƏRİ OLAN "BÖYÜK MEHDİ"NİN UCA ƏDALƏTİNİ VƏ HAQDAN VƏ DOĞRULUQDAN AYRILMAMAĞINI DÜNYAYA GÖSTƏRMƏLƏRİ** çox məqbul olmaqla yanaşı, çox lazım və zəruri, həmçinin cəmiyyət həyatına aid qaydaların gərəyidir. *(Şüalar, səh. 456)*

Bədiüzzaman, hz. Mehdinin İslam əxlaqını yenidən yaşanacaq bir hala gətirəcəyini, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsiylə hərəkət edəcəyini, üstün bir ədalət anlayışına sahib olacağını izah edir:

## "BÖYÜK MEHDİ"NİN DÖRD ƏHƏMİYYƏTLİ VƏZİFƏSİNİN VƏ DAHA ƏVVƏL GƏLİB-GETMİŞ KİÇİK MEHDİLƏRİN "BÖYÜK MEHDİ"NİN MÜƏYYƏN VƏZİFƏLƏRİNİ BİR İSTİQAMƏTDƏ YERİNƏ YETİRDİKLƏRİNİ:

Bədiüzzaman yuxarıdakı sözlərində, iki cür Mehdi olduğunu bildirmişdir. Bunlardan birini **"kiçik Mehdilər"** olaraq adlandırmış, digərinin isə Axırzamanda zühur edəcək olan **"BÖYÜK MEHDİ"** olduğunu ifadə etmişdir. Bədiüzzaman **"BÖYÜK MEHDİ"**nin çox aydın şəkildə görünən və təqlid edilməsi mümkün olmayan bəzi əlamətlərinin olduğunu ifadə etmişdir. Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilməsi və İslam əxlaqının bütün dünyada hakim olması, bütün müsəlmanlar arasında İslam Birliyinin yaradılması, xristianlarla müsəlmanların ittifaqının təmin edilməsi, hz. Mehdinin rədd edilməsi mümkün olmayan əlamətlərindəndir. Bədiüzzaman, "kiçik Mehdi" olaraq bəhs etdiyi, əvvəlki əsrlərdə gəlib-getmiş müsəlman şəxslərin hz. Mehdinin yerinə yetirəcəyi xidmətlərdən bəzilərini bir istiqamətdə yerinə yetirdiklərini, ancaq bunların heç birinin bu vəzifələrin hamısını eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir. Bədiüzzaman bu sözləri ilə, Axırzamanda zühur etməsi gözlənilən "Böyük Mehdi"nin, keçmişdə göndərilən müsəlman şəxslərlə qarışdırılmamasının lazım olduğunu; **"Böyük Mehdi"nin ancaq sayılan bütün vəzifələrini eyni anda yerinə yetirməsi ilə tanınacağını"** xatırlatmışdır. Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilərək İslam əxlaqının bütün dünyaya hakim olması, İslam Birliyinin yaradılması, xristian və müsəlman ittifaqının təmin edilməsi nə Bədiüzzamanın yaşadığı dövrdə, nə də ondan əvvəlki dövrlərdə yerinə yetirilməmiş hadisələrdir. Bədiüzzaman da bu həqiqətə diqqət çəkərək hz. Mehdinin özündən sonrakı bir dövrdə zühur edəcəyini və bu mübarək insanın, keçmişdə İslama xidmət edən digər müsəlman şəxslərdən bu əlamətləri ilə seçiləcəyini ifadə etmişdir. Bundan əlavə Bədiüzzaman bu şərhləriylə **"hz. Mehdinin BİR ŞƏXS olduğunu"** da yenidən bəyan etmişdir. Axırzamanın "Böyük Mehdi"sindən əvvəl gəlib-getmiş bütün İslam ağsaqqalları, mücəddidlər və Bədiüzzamanın "kiçik Mehdi" olaraq

adlandırdığı kəslər həmişə bir şəxs olublar. Bədiüzzaman, Allahın bu adətullahının Axırzamanda da dəyişməyəcəyinə və **“BÖYÜK MEHDİ”**nin də yenə **“BİR ŞƏXS”** olacağına diqqət çəkmişdir.

## PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN YOLUNU, QURAN ƏXLAQINI VƏ QURAN ƏXLAQININ ƏSASLARINI, HƏQİQƏTLƏRİNİ VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ:

Bədiüzzaman **“PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN YOLUNU, QURAN ƏXLAQINI VƏ QURAN ƏXLAQININ ƏSASLARINI, HƏQİQƏTLƏRİNİ VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ”** deməklə, bir çox hədisdə də bildirildiyi kimi, hz. Mehdinin Axırzamanda Peyğəmbərimiz (s.ə.v)-in sünnəsi ilə hərəkət edəcəyini və dini, bidətlərdən təmizləyəcəyini və İslam dinini əslinə qaytaracağını bildirir. Peyğəmbərimiz (s.ə.v)-in bu mövzunu xəbər verən hədislərindən bəziləri belədir:

*Hz. Mehdi heç bir bidəti sağ saxlamayacaq. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

*Mehdi yox edilməyən bidət saxlamayacaqdır. Axırzamanda eyni Peyğəmbər (s.ə.v) kimi dinin zərurətlərini yerinə yetirəcəkdir. (Kıyamet Alametleri, səh.* 163)

Hz. Mehdi İslam dinini, Əsri-Səadət olaraq adlandırılan Peyğəmbərimiz (s.ə.v)-in dövründə yaşanan və Quranda bildirilən əslinə qaytaracaqdır. Bu vəzifə İslam tarixində digər İslam alimlərinə nəsib olmamış, bu günə qədər belə bir vəziyyət reallaşmamışdır. Bədiüzzaman da bu şərhiylə, İslam dinini əslinə qaytarmaq vəzifəsinin ancaq hz. Mehdiyə nəsib olacağını və bunun hz. Mehdinin tanınmasını təmin edəcək ən əhəmiyyətli əlamətlərdən biri olacağını xatırlatmışdır.

## YENİDƏN DİRÇƏLTMƏKLƏ, HAMIYA EŞİTDİRƏRƏK VƏ TƏTBİQ EDƏRƏK:

Bədiüzzaman bu sözlərində hz. Mehdinin tutacağı yolu yolu izah edir, insanları haqq dinə dəvət edərkən istifadə ediləcək üsulları izah edir:

Bədiüzzamanın burada istifadə etdiyi **"ƏHYA"** sözünün mənası **"YENİDƏN DİRÇƏLTMƏKDİR"**dir. Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdi Axırzamanda Qurandan uzaqlaşmış olan insanların yenidən Quran əxlaqına görə yaşamalarına vəsilə olacaqdır.

**"ELAN"** sözünün mənası isə, **"HƏR KƏSƏ EŞİTDİRMƏK"**dir. Bədiüzzamanın şərhlərinə görə hz. Mehdi, Quran həqiqətlərini və Quran əxlaqını hər kəsin görəcəyi, əldə edəcəyi şəkildə çatdıracaqdır. Kütləvi informasiya vasitələrindən və texnologiyandan çox yaxşı istifadə edəcəyi aydınlaşan hz. Mehdi, İslam həqiqətlərini çox müxtəlif və hikmətli üsullardan istifadə edərək bütün dünyaya aydın şəkildə göstərəcək və elan edəcəkdir.

**"İCRA"** sözünün mənası da, **"TƏTBİQ ETMƏK"**dir. Bədiüzzaman bu sözləriylə də hz. Mehdinin, Quran əxlaqını bütün dünyada hakim edəcəyini və bütün cəmiyyətlərdə yaşanan hala gətirəcəyini ifadə edir.

Bədiüzzamanın burada hz. Mehdinin fəaliyyəti haqqında yerinə yetirdiyi geniş əhatəli xidmətlər, bütün dünyanın gözləri qarşısında reallaşacaq hadisələrdir deyir. Bədiüzzaman bunlardan heç birinin özü həyatda olarkən reallaşdığına diqqət çəkir, ancaq bu əlamətlərin reallaşmasına vəsilə olacaq adamın hz. Mehdi ola biləcəyini bildirir.

Bədiüzzaman diqqət çəkdiyi bu əhəmiyyətli mövzuyla yanaşı, hz. Mehdinin bir şəxsi mənəvi olmadığını da bəyan edir. Bədiüzzaman, İslam dininin əsaslarını, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini **"ƏHYA, ELAN VƏ İCRA EDƏCƏK BİR ŞƏXSİN"** mövcudluğundan danışır. Bütün bu işlər "iman, ağıl və vicdan sahibi müqəddəs **BİR ŞƏXSİN** yerinə yetirə biləcəyi" vəzifələrdir. Buna görə də Bədiüzzaman bu şərhləriylə **"HZ. MEHDİNİN BİR ŞƏXSİ MƏNƏVİ OLA BİLMƏYƏCƏYİ"** mövzusunda da qəti bir dəlil daha irəli sürür.

## BAŞ KOMANDİRLƏRİ OLAN "BÖYÜK MEHDİ"NİN UCA ƏDALƏTİNİ VƏ HAQDAN VƏ DOĞRULUQDAN AYRILMAMAĞINI, DÜNYAYA GÖSTƏRMƏLƏRİ:

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən bir çox hədisdə hz. Mehdi dövründə yer üzünün ədalətlə dolacağı xəbər verilir:

*Qiyamətin qopması üçün vaxtdan sadəcə bir gündən başqa vaxt qalmamış da olsa Allah, mənim Əhli-beytimdən (nəslimdən) bir şəxsi göndərəcək, yer üzü zülmlə dolduğu kimi, o yer üzünü ədalətlə dolduracaqdır. (Sünen-i Ebu Davud, 5/92)*

*Mehdi məndəndir,* ***yer üzünü zülm və işgəncə bürüdüyü kimi onu düzgünlük və ədalətlə doldurar.*** *(Sünen-i Ebu Davud, 5/93)*

*Bu (Əmir) də (hz. Mehdi) insanlar yer üzünü daha əvvəl zülm ilə doldurduqları kimi,* ***yer üzünü ədalətlə dolduracaqdır.*** *(Sünen-i İbn-i Mace, 10/348)*

Hədislərdə bildirilən, bu ədalət və dinclik mühiti çox geniş sahəli və çox bənzərsiz olacaqdır. Bədiüzzaman da **"UCA ƏDALƏTİ"** və **"HAQDAN VƏ DOĞRULUQDAN AYRILMAMAĞINI"** deməklə, hz. Mehdinin ədalətinin ən mükəmməl səviyyədə olacağını bildirir. Bədiüzzaman hz. Mehdinin bu xüsusiyyətlərini dilə gətirərək əvvəlcə onun bir şəxsi mənəvi olmadığını, **"ƏDALƏTLİ OLA BİLƏCƏK HAQQ VƏ DOĞRU YOLLA GEDƏ BİLƏCƏK BİR ŞƏXS"** olduğunu ifadə edir. Bir şəxsi mənəvinin "ədalətli olması ya da haqq yoldan ayrılmamaq xüsusiyyətinə sahib olmasından" söhbət gedə bilməz. Bədiüzzaman da hz. Mehdinin əxlaqındakı bu **"MÖMİN XÜSUSİYYƏTLƏRİ"**nə diqqət çəkərək, bu mövzuya aydınlıq gətirmiş və onun mübarək **"BİR İNSAN"** olduğunu xatırlatmışdır.

Bədiüzzaman bu sözlərinin əvvəlində isə "Böyük Mehdi"nin **"BAŞ KOMANDİR"** sifətinə diqqət çəkmişdir. Bu, ancaq **"BİR İNSAN"**ın sahib ola biləcəyi bir xüsusiyyət və bir insanın boynuna götürəcəyi bir vəzifədir. Aydındır ki, Bədiüzzaman burada bir şəxsi mənəvinin möminlərin baş komandiri olacağından bəhs etmir; **"BU VƏZİFƏLƏRİ YERİNƏ YETİRƏ BİLƏCƏK XÜSUSİYYƏTLƏRƏ SAHİB BİR ŞƏXSİ"** ifadə edir.

Bədiüzzaman **"Baş komandirləri olan "Böyük Mehdi"nin uca ədalətini və haqdan və doğruluqdan ayrılmamağını DÜNYAYA GÖSTƏRMƏLƏRİ"** deməklə burada həmçinin, hz. Mehdinin uca ədalətinin, haqdan və doğruluqdan ayrılmamağının mükəmməlliyinə **"BÜTÜN DÜNYANIN ŞAHİD OLACAĞINI"** ifadə edir. Bütün insanlar, bu mübarək şəxsi görüb tanıyacaqlar, Allahın ədalətli sifətinin yer üzündəki təcəllilərini hz. Mehdidə görəcəklər. Hz. Mehdinin yerinə yetirdiyi böyük fikri mübarizəsi nəticəsində, bəlkə də bütün dünyada ilk dəfə olaraq zülm və iğtişaşlar tamamilə bitəcək, dünya səviyyəsində sülh, dinclik və ədalət mühiti yaranacaqdır. Bədiüzzaman bu şərhləriylə, hz. Mehdinin əvvəlki dövrlərdə zühur etmədiyini, zühur etdiyində isə Allahın bu hadisələr vəsiləsi ilə onu insanlara tanıdacağını xəbər verir.

Ümmətin gözlədiyi, **AXIRZAMANDA ZÜHUR EDƏCƏK ŞƏXSİN ÜÇ VƏZİFƏSİNDƏN ƏN ƏHƏMİYYƏTLİSİ VƏ ƏN BÖYÜYÜ VƏ ƏN DƏYƏRLİSİ OLAN HƏQİQİ İMANI YAZIB-PAYLAMAQ YOLU İLƏ YAYMAQ VƏ İMAN EDƏNLƏRİ AZĞINLIQDAN XİLAS ETMƏKDİR...** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, hz. Mehdinin üç böyük vəzifəsindən birincisinin və ən əhəmiyyətlisinin həqiqi imanı yayaraq insanların azğınlıqdan xilas olmasına vəsilə olmaq olduğunu ifadə etmişdir:

## AXIRZAMANDA ZÜHUR EDƏCƏK:

Bədiüzzaman **"AXIRZAMANDA ZÜHUR EDƏCƏK"** deməklə, hz. Mehdinin özündən sonrakı bir dövrdə gələcəyini ifadə etmişdir. Əgər Bədiüzzaman, öz yaşadığı dövrdə, ya da yaşadığı dövrdən əvvəl hz. Mehdinin zühur edərək fəaliyyətlərinə başladığı qənaətində olsaydı, heç şübhəsiz **"ZÜHUR EDƏCƏK"** sözü əvəzinə "**zühur etmişdir**" ya da "**zühur etdi**" kimi sözlərdən istifadə edərdi. Ancaq belə bir vəziyyətin hələ reallaşmadığını, Bədiüzzaman da hz. Mehdinin zühur etmə vaxtının **"GƏLƏCƏKDƏ"** olacağını ifadə edən bir sözdən istifadə etmişdir.

Bədiüzzaman **"ZÜHUR EDƏCƏK"** sözünü, bu kitabda hz. Mehdi ilə əlaqədar olan sözlərində dəfələrlə işlətmişdir. Bədiüzzaman, eyni ifadəni dəfələrlə təkrarlayaraq bu mövzuya aydınlıq gətirmiş və hz. Mehdinin özündən sonrakı bir dövrdə zühur edəcəyi mövzusunda heç bir şübhəyə yer qoymamışdır. Bədiüzzaman bu sözlərində həmçinin hz. Mehdinin **"ZÜHUR EDƏCƏK BİR ŞƏXS"** olduğunu da ifadə etmişdir. Çünki bir şəxsi mənəvinin **"ZÜHUR ETMƏSİ"**ndən deyil, ancaq **"MEYDANA GƏLMƏSİ"**ndən danışmaq olar. Buna görə də Bədiüzzaman "Axırzamanda meydana gələcək" deməmiş, **"Axırzamanda ZÜHUR EDƏCƏK"** cümləsindən istifadə edərək, hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu izah etmişdir.

## ŞƏXSİN:

Bədiüzzaman istifadə etdiyi **"ŞƏXS"** ifadəsi ilə hz. Mehdinin "mənəvi bir varlıq" deyil, **"BİR ŞƏXS"** olduğunu olduqca aydın bir tərzdə izah etmişdir. Məlum olduğu kimi "ŞƏXS" sözünün lüğəvi mənası, "ADAM, KİMSƏ, ŞƏXS" deməkdir. Həmçinin zamanda "təkdən" yəni "BİR ADAM"dan bəhs edildiyini izah edən bir ifadədir. Məlum olan bir adamı ifadə etmək məqsədiylə işlədilər. Həmçinin bir hörmət ifadəsidir. Onlarla risaləni bir-birindən hikmətli ifadələrlə qələmə alan böyük İslam alimi Bədiüzzaman da, şübhəsiz ki, bu sözün mənasını bütün təfərrüatlarıyla çox yaxşı bilir. Əgər Bədiüzzaman hz. Mehdinin bir şəxsi mənəvi olacağını izah etmək istəsəydi, şübhəsiz ki, bunu aydın şəkildə ifadə edəcək qədər konkret mənalar ilə "BİR İNSAN"ı ifadə edən "ŞƏXS" sözündən istifadə etməzdi. Bunun əvəzinə "şəxsi mənəvi" anlayışını ifadə edəcək bir-birindən hikmətli çox müxtəlif sözlər seçə bilərdi. Buna

baxmayaraq aydın şəkildə “ŞƏXS” sözünü seçmiş olması, Bədiüzzamanın hz. Mehdinin bir şəxs olduğu mövzusundakı qənaətini çox aydın bir şəkildə ifadə edir.

Bədiüzzaman kimi böyük elm sahibi bir şəxsin, bir sözü eyni mövzuda dəfələrlə təkrarlamasında, əlbəttə ki, müəyyən bir hikmət vardır. Şübhəsiz ki, Bədiüzzaman, hz. Mehdinin bir şəxs olduğu mövzusunda çox konkret bir qənaətə sahibdir və bu qənaəti istiqamətində möminləri də ən doğru şəkildə məlumatlandırır.

## ÜÇ VƏZİFƏSİNDƏN:

Bədiüzzaman, müsəlmanların gözlədiyi, Axırzamanda zühur edəcək mübarək şəxsin təkcə bir vəzifəsinin olmayacağını xəbər vermişdir. Bu şəxsin **“ÜÇ BÖYÜK VƏ HƏRTƏRƏFLİ VƏZİFƏSİNİN”** olacağını ifadə etmişdir. Bədiüzzaman bu vəzifələrin;

1) “İnsanların imanını xilas etmək,

2) İslam Birliyini yaratmaq və bütün dünya müsəlmanlarının rəhbəri olmaq,

3) Quran əxlaqını bütün dünyaya hakim etmək və xristianlarla ittifaq yaratmaq olduğunu” izah etmişdir. Peyğəmbərimiz (s.ə.v)-dən etibarən göndərilən mücəddidlər içərisində 1400 ildir ki, bu vəzifələrin birini yalnız müəyyən qədər yerinə yetirmiş İslam böyükləri olmuşdur. İslam tarixində insanların imanına vəsilə olan bir çox böyük alim vardır. Osmanlı padşahları İslam Birliyini idarə edən müsəlman liderlərdir. Lakin heç biri, bəhs edilən üç əhəmiyyətli vəzifəni eyni anda və dünya səviyyəsində yerinə yetirməyiblər. Bədiüzzaman da burada hz. Mehdinin bu xüsusiyyətini bəyan edərək, bu üstün xüsusiyyətli şəxsin əvvəlki dövrlərdə zühur etməsindən söhbət gedə bilməyəcəyini, bu vəzifələrin yerinə yetirilməsinin, onu insanlara tanıdan əlaməti olacağını ifadə etmişdir.

## ƏN ƏHƏMİYYƏTLİSİ VƏ ƏN BÖYÜYÜ VƏ ƏN DƏYƏRLİSİ OLAN HƏQİQİ İMANI YAZIB-PAYLAMAQ YOLU İLƏ YAYMAQ VƏ İMAN EDƏNLƏRİ AZĞINLIQDAN XİLAS ETMƏKDİR:

Bədiüzzaman **"İMANI XİLAS ETMƏK VƏZİFƏSİ"**nin, Axırzamanda zühur edəcək olan hz. Mehdinin üç vəzifəsindən birincisi olduğunu ifadə etmişdir. Və bu vəzifəni, hz. Mehdinin "ən əhəmiyyətli və ən dəyərli vəzifəsi" olaraq qeyd etmişdir. Axırzamanda zühur edəcək olan bu mübarək şəxsin öz dövründə "çox böyük və əhəmiyyətli bir imani xidmət" göstərəcəyini xəbər vermişdir. Bu xidmətin təsir sahəsi əvvəllər heç kimə nəsib olmamış böyüklükdə olacaqdır. Bədiüzzaman burada istifadə etdiyi **"YAZIB-PAYLAMAQ YOLU İLƏ YAYMAQ"** sözü ilə iman həqiqətlərinin hər cür imkandan istifadə etməklə, müxtəlif kütləvi informasiya vasitələriylə tətbiq ediləcəyinə diqqət çəkmişdir. Əlbəttə ki, bu şəkildə imanı yaymaq cəhdi də dünyadakı bütün insanlar tərəfindən bilinəcəkdir. Axırzamanda Məsih Dəccalın fitnəsi bütün insanları bürümüş olacaq və bu böyüklükdəki bir fitnəni təsirsiz hala gətirib iman edənlərin imanını qorumaq da hz. Mehdinin ən böyük vəzifələrindən biri olacaqdır. Bədiüzzaman bu günə qədər belə böyük bir miqyaslı "imanı xilas etmək vəzifəsi"nin heç bir mücəddid tərəfindən yerinə yetirilmədiyini və hz. Mehdinin də bu vəzifəsini, böyük bir iz qoyacaq şəkildə həyata keçirməsi ilə tanınacağına işarə etmişdir.

**O ŞƏXSİN İKİNCİ VƏZİFƏSİ, QURAN ƏXLAQININ ƏSASLARINI VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ TƏTBİQ ETMƏK VƏ YERİNƏ YETİRMƏKDİR.** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, bu sözündə də hz. Mehdinin ikinci vəzifəsinin Quran əxlaqının əsaslarının tamamilə yaşanmasına vəsilə olmaq olduğunu izah etmişdir:

**<u>O:</u>**

Bədiüzzaman burada da yenə hz. Mehdi üçün, **"BİR ŞƏXS ƏVƏZLİYİ"** olan **"O"** sözünü işlətmişdir. Bədiüzzaman sözlərində tez-tez təkrarladığı bu söz ilə, Axırzamanda zühur edəcək olan hz. Mehdinin "mənəvi bir lider" deyil, şəxsən möminlərin başçısı olaraq, onları hidayətə yönəldəcək **"BİR ŞƏXS"** olduğunu ifadə edir.

Bədiüzzaman həmçinin burada "onlar" kimi cəm birliyi ifadə edən bir sözdən istifadə etməmiş, hz. Mehdinin **"TƏK BİR ADAM"** olduğunu ifadə edən **"O"** sözünü işlətmişdir. Bədiüzzaman bu şərhləriylə, hz. Mehdinin bir şəxsi mənəvi olmadığı mövzusundakı konkret qənaətlərini dəlilləriylə bərabər bəyan etmişdir.

**<u>ŞƏXSİN:</u>**

Bədiüzzaman buradakı **"ŞƏXS"** sözüylə, eyni cümlə daxilində hz. Mehdinin **"BİR ŞƏXS"** olduğu mövzusuna aydınlıq gətirən ikinci bir bəyandan da istifadə etmişdir. Bədiüzzaman

bu qədər çox təkrarladığı bu sözüylə, hz. Mehdinin konkret olaraq "mənəvi bir varlıq" olmadığını izah etmiş və müsəlmanların bu müqəddəs **"ŞƏXS"** haqqında ən doğru şəkildə məlumatlanmalarını təmin etmişdir.

## İKİNCİ VƏZİFƏSİ, QURAN ƏXLAQININ ƏSASLARINI VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ TƏTBİQ ETMƏK VƏ YERİNƏ YETİRMƏKDİR:

**"İCRA VƏ TƏTBİQ ETMƏK"**, **"tətbiq etmək, həyata keçirmək, yerinə yetirmək"** deməkdir. Bədiüzzaman da bu sözüylə hz. Mehdinin, Quran əxlaqının tələblərini və əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini bütün insanlar arasında tətbiq edəcəyini və həyata keçirəcəyini xəbər verir. Bu da, hz. Mehdinin İslam Birliyini yaratması və bütün müsəlmanların liderliyini boynuna götürməsi ilə reallaşacaqdır. Bədiüzzaman da bu həqiqəti xatırladaraq, bu vəzifəni hələ heç kimin yerinə yetirməmiş olduğuna və reallaşdığında da bunun, hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olacağına diqqət çəkmişdir. Birinci vəzifə, maddi imkanla deyil, bəlkə güclü və səmimi bir iman və yalnız Allahın məmnuniyyətini güdməklə və ürəkdən bağlılıqla olduğu bir halda, **BU İKİNCİ VƏZİFƏ ÜÇÜN, ÇOX BÖYÜK MADDİ İMKAN VƏ HAKİMİYYƏT LAZIMDIR Kİ, O İKİNCİ VƏZİFƏNİ YERİNƏ YETİRMƏK MÜMKÜN OLSUN** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsinin ancaq "böyük bir maddi imkan və hakimiyyətlə" reallaşmasının mümkün olacağını ifadə etmişdir:

## BU İKİNCİ VƏZİFƏ ÜÇÜN, ÇOX BÖYÜK MADDİ İMKAN VƏ HAKİMİYYƏT LAZIMDIR Kİ, O İKİNCİ VƏZİFƏNİ YERİNƏ YETİRMƏK MÜMKÜN OLSUN:

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsinin ancaq **"BÖYÜK BİR MADDİ İMKAN VƏ HAKİMİYYƏTLƏ"** reallaşmasının mümkün olduğunu bəyan etmişdir. Bu imkana sahib olacaq tək adam hz. Mehdidir. Bədiüzzaman, hz. Mehdinin bu vəzifəsini dünya səviyyəsində reallaşdıracağını xatırladaraq, onun sahib olacağı maddi imkan və hakimiyyətin də çox böyük miqyasda olacağına diqqət çəkmişdir. Peyğəmbərimiz (s.ə.v)-in dövründən etibarən

belə bir imkan və hakimiyyət təmin edilməmişdir. Bədiüzzaman da yaşadığı müddət ərzində belə bir imkan və hakimiyyət sahibi olmamışdır. Bütün həyatını Quran əxlaqının təbliğinə həsr etmiş, bu yolda hər cür fədakarlığı gözə almış və çox böyük bir xidmət göstərmişdir. Ancaq onun təbliği maddi güc və hakimiyyət şəraitində deyil, olduqca çətin maddi şərtlərdə və unikal çətinliklər içərisində keçmişdir. Həm Bədiüzzaman həm də tələbələri böyük iman xidmətlərini çox məhdud imkanlarla həyata keçirmişlər. Bütün bu çətinliklər içərisində, Bədiüzzaman şərəfli mübarizəsini davam etdirmiş və ixlası ilə, səmimiyyəti ilə müsəlmanlara əhəmiyyətli bir nümunə olmuşdur. Ancaq şəxsən özünün də ifadə etdiyi kimi bu vəziyyət hz. Mehdinin əldə edəcəyi "çox böyük maddi güc və hakimiyyət"in Bədiüzzamanın həyatında mümkün olmadığını aydın şəkildə bəyan etmişdir. Necə ki, Bədiüzzaman da, özünə Mehdilik isnad edən kəslərə hz. Mehdi olmadığını bu dəlili də əsas gətirərək izah etmişdir.

**O ŞƏXSİN** üçüncü vəzifəsi, **İSLAM XƏLİFƏLİYİNİ İSLAM BİRLİYİ ƏSASINDA YARADARAQ, DİNDAR XRİSTİANLARLA VƏ XRİSTİAN ALİMLƏRİ İLƏ ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK EDƏRƏK İSLAM DİNİNƏ XİDMƏT ETMƏKDİR. BU VƏZİFƏ, ÇOX BÖYÜK BİR HÖKMRANLIQ** və **GÜC** və **MİLYONLARLA İNSANIN FƏDAKARCASINA İŞTİRAKI İLƏ YERİNƏ YETİRİLƏ BİLƏR.** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, hz. Mehdinin başqa bir vəzifəsinin də İslam cəmiyyətini birləşdirmək və xristian aləmi ilə əməkdaşlıq etmək olduğunu bildirmişdir:

<u>O:</u>

Bədiüzzaman, bu sözündə yenə **"O"** əvəzliyindən istifadə etmiş və hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu yenidən təkrarlamışdır. Əgər Bədiüzzaman, hz. Mehdinin "mənəvi bir ad" ya da "xeyli insandan ibarət olan bir birlik" olduğunu fikirləşsəydi, əlbəttə ki, bütün bu iddiaları rədd edəcək qədər aydın bir sözdən istifadə edər, hz. Mehdidən **"O ŞƏXS"** sözü ilə danışmazdı. Aydındır ki, Bədiüzzaman, hz. Mehdinin **"TƏK BİR ŞƏXS"** olduğunu ifadə etmiş və bunun əksi olan bütün fikirlərin etibarsızlığını bəyan etmişdir.

<u>ŞƏXSİN:</u>

Bədiüzzaman, **"ADAM, KİMSƏ YA DA ŞƏXS"** mənasını verən **"ŞƏXS"** sözünü bu sözlərində təkrarlamış və hz. Mehdinin bütün dünya müsəlmanlarının liderliyini boynuna götürəcək, **"üstün xüsusiyyətli BİR İNSAN"** olduğunu yenidən bəyan etmişdir.

<u>İSLAM XƏLİFƏLİYİNİ İSLAM BİRLİYİNİN ƏSASINDA YARADARAQ):</u>

Bədiüzzaman hz. Mehdinin üçüncü vəzifəsinin İslam cəmiyyətini birləşdirmək və xristian aləmi ilə əməkdaşlıq etmək olduğunu ifadə etmişdir.

Hz. Mehdinin İslam birliyini yaradıb xristian başçılarla əməkdaşlıq etməsi və bu vəsiləylə də İslama xidmət etməsi Bədiüzzamanın yaşadığı dövrdə və ondan əvvəl də reallaşmamış hadisələrdir. Bədiüzzaman da bu vəzifənin Allahın izni ilə hz. Mehdi tərəfindən yerinə yetiriləcəyini ifadə edərək, özünün hz. Mehdi olmadığını yenidən sübut etmişdir.

## DİNDAR XRİSTİANLARLA VƏ XRİSTİAN ALİMLƏRİ İLƏ ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK EDƏRƏK İSLAM DİNİNƏ XİDMƏT ETMƏKDİR:

Bədiüzzaman, hz. Mehdinin İslam cəmiyyətini birləşdirib xristian başçılarla birlikdə, İslam və Xristianlığın ortaq cəbhəsi olan "materializm və dinsizliyə" qarşı mübarizədə əməkdaşlıq edəcəyini və bu yolla İslam dininə xidmət edəcəyini xəbər verir. Bir Quran ayəsində bildirildiyi kimi, **"..."Biz xaçpərəstik!" - deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər".** (Maidə Surəsi, 82) səmimi müsəlmanlar və səmimi xristianlar bir-birlərinin həqiqi müttəfiqləridirlər. Dinsizliyə qarşı ortaq bir fikri mübarizə yerinə yetirmələri və köməkləşmələri lazımdır. Axırzamanda bu həmrəyliyin ən gözəl nümunəsi hz. İsa və hz. Mehdi vəsiləsiylə yaşanacaqdır. Bədiüzzaman da bu sözləriylə hz. Mehdinin bu əhəmiyyətli əlamətinə diqqət çəkir. Bədiüzzaman, özü həyatda ikən hələ reallaşmamış olan bu irəliləyişləri xatırladaraq, hz. Mehdinin özündən sonrakı bir tarixdə zühur edəcək bir şəxs olduğunu müjdələyir.

## BU VƏZİFƏ ÇOX BÖYÜK BİR HÖKMRANLIQ VƏ GÜC:

Bədiüzzaman, İslam Birliyi ilə müsəlman və xristian aləminin haqq din uğrunda əməkdaşlıq etməsi kimi böyük bir hadisənin ancaq üç şərtin meydana gəlməsiylə reallaşacağına diqqət çəkmişdir. Bədiüzzaman **"ÇOX BÖYÜK BİR HÖKMRANLIQ VƏ GÜC"** deməklə bu şərtlərdən ikisini izah edir. **"Hökmranlıq"** anlayışı, güc və səlahiyyət ifadə edən

bir sözdür. **"GÜC"** anlayışı isə "istədiyi şeyi yerinə yetirə bilmək gücünü yəni səlahiyyət"ni təyin edir. Bədiüzzaman hz. Mehdinin İslam Birliyini yaradıb bu birliyin liderliyini boynuna götürəcəyini və **"çox böyük bir güc və səlahiyyətə sahib olacağını"** bildirmişdir. Bədiüzzamanın **"ÇOX BÖYÜK"** sözləri, hz. Mehdinin sahib olacağı bu gücün və hökmranlığın geniş əhatəli olduğunu ifadə edir. Belə böyük bir gücün Bədiüzzaman və ondan əvvəlki mücəddidlərin dövründə reallaşmadığı məlum olan bir həqiqətdir. Bədiüzzaman da hz. Mehdinin bu əhəmiyyətli əlamətini bəyan edərək, bu mübarək şəxsin öz yaşadığı dövrdə hələ zühur etmədiyini, zühur etdiyində isə bu xüsusiyyətləriylə tanınacağını xatırlatmışdır.

## MİLYONLARLA İNSANIN FƏDAKARCASINA İŞTİRAKI İLƏ YERİNƏ YETİRİLƏ BİLƏR:

Bədiüzzaman **"MİLYONLARLA İNSANIN FƏDAKARCASINA İŞTİRAKI İLƏ YERİNƏ YETİRİLƏ BİLƏR"** deməklə, hz. Mehdinin üçüncü vəzifəsini yerinə yetirə bilməsi üçün lazımlı olan üçüncü şərtin **"MİLYONLARLA İNSANIN FƏDAKARCASINA İŞTİRAKI"** olduğunu xəbər vermişdir. Bədiüzzaman bu sözləri ilə hz. Mehdiyə tabe olan, onu dəstəkləyən milyonlarla adam olacağını bildirmişdir. Belə geniş əhatəli bir dəstək Bədiüzzamanın iman xidmətində mümkün olmamışdır. Üstəlik, Bədiüzzaman hz. Mehdinin bu vəzifəsini yerinə yetirə bilməsi üçün yalnız "sayı milyonu keçən fədakarcasına bir dəstənin" deyil, həmçinin "böyük bir güc, qüdrət və hakimiyyət"in də bununla yanaşı mövcud olmasının lazım olduğunu ifadə etmişdir. Bu həqiqəti xatırlatmaqla da, hz. Mehdinin öz yaşadığı dövrdə zühur etmədiyini bəyan etmişdir.

Birinci vəzifə, digər iki vəzifədən üç-dörd dərəcə daha çox dəyərlidir, lakin **O İKİNCİ, ÜÇÜNCÜ VƏZİFƏLƏR ÇOX AYDIN VƏ ÇOX GENİŞ BİR ƏRAZİDƏ VƏ DƏBDƏBƏLİ BİR TƏRZDƏ OLDUĞUNDAN ÜMUMİNİN VƏ XALQIN GÖZÜNDƏ DAHA ƏHƏMİYYƏTLİ GÖRÜNÜRLƏR.** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman hz. Mehdinin ikinci və üçüncü vəzifələrinin, birincisinə nisbətən daha geniş bir ərazidə təsir oyadacaq böyük işlər olduğunu izah etmişdir.

## O İKİNCİ, ÜÇÜNCÜ VƏZİFƏLƏR ÇOX AYDIN VƏ ÇOX GENİŞ BİR ƏRAZİDƏ VƏ DƏBDƏBƏLİ BİR TƏRZDƏ OLDUĞUNDAN:

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin ikinci və üçüncü vəzifələrinin çox geniş kütlələri və əraziləri əhatə edən dəbdəbəli, şərəfli və geniş əks-sədalar doğuran işlər olduğunu ifadə edir. Necə ki, İslam Birliyini yaratmaq, bütün müsəlmanların liderliyini boynuna götürmək, xristianlarla əməkdaşlıq və həmrəylik etmək və nəticədə İslam əxlaqını yer üzünə hakim etmək, dünya tarixinin bəlkə də ən böyük və ən şərəfli hadisələrindən biri olacaqdır.

Bədiüzzamanın haqqında danışdığı bu vəzifələr Bədiüzzamanın yaşadığı dövrdə və İslam tarixinin heç bir dövründə, hz. Mehdi dövründə olacağı kimi yaşanmamışdır. Bədiüzzamanın ehtişamlı fəaliyyətlərini bu qədər təfərrüatlı olaraq təsvir etdiyi adamın, özündən sonra zühur edəcəyini və bu üç vəzifəni ən şərəfli şəkildə yerinə yetirəcəyini ifadə etdiyi şəxs hz. Mehdidir.

## ÜMUMİNİN VƏ XALQIN GÖZÜNDƏ DAHA ƏHƏMİYYƏTLİ GÖRÜNÜRLƏR:

Bədiüzzaman bu ifadələri hz. Mehdinin fəaliyyətlərinin, cəmiyyətin əksəriyyətinin gözləri qabağında, açıq-aşkar bir şəkildə reallaşacağını və insanlarda təqdir və heyranlıq oyandıracağını bildirir. Bədiüzzamanın da bildirdiyi kimi, Axırzamanın son dövründəki bu hadisələr; hz. Mehdinin iqtidar və hakimiyyəti çox aydın dəlillərlə və bütün dünyanın şahid olacağı bir şəkildə yaşanacaqdır. Dəccalın fitnəsi aradan qalxacaq, yer üzündə dinclik, sülh və ədalət mühiti yaranacaqdır. Bu cür bütün dünyanın gözləri qabağında reallaşacaq olan böyük inkişaflar və dəyişmələr əvvəlki mücəddidlərin dövründə yaşanmamışdır. Bədiüzzaman da bu əhəmiyyətli mövzunu bəyan edərək, bütün bunların yaxın bir dövrdə hz. Mehdinin dövründə reallaşacağını müjdələmişdir.

# Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə izah etmişdir?

**BƏDİÜZZAMAN "HZ. MEHDİNİN HƏM DİYANƏT, HƏM SİYASƏT, HƏM DƏ SƏLTƏNƏT SAHƏLƏRİNDƏ MEHDİLİK EDƏCƏYİNİ" İFADƏ ETMİŞDİR**

Böyük İslam mütəfəkkiri olan Bədiüzzaman Səid Nursi əsərlərində, əsrlərdir bütün İslam aləminin gözlədiyi hz. Mehdinin zühuru haqqında Peyğəmbərimiz (s.ə.v)-in hədisləri əsasında ətraflı izahlar vermişdir. Bədiüzzaman hədislərdə verilən bu məlumatlara əsaslanaraq, Axırzamanda zühur edəcək olan hz. Mehdinin üç müxtəlif sahədə eyni anda Mehdilik edəcəyini yəni, həm **"SİYASƏT MEHDİSİ"** həm **"SƏLTƏNƏT MEHDİSİ"** həm də **"DİYANƏT MEHDİSİ"** olacağını ifadə etmişdir. Bədiüzzamanın hz. Mehdinin bu əhəmiyyətli xüsusiyyətini izah etdiyi sözlərindən biri belədir:

**"Böyük Mehdinin vəzifələri çoxdur. Eynilə SİYASƏT, DİYANƏT, SƏLTƏNƏT, MÜBARİZƏ ALƏMİNDƏ və bir çox sahədə işləri olduğu kimi..."** *(Şualar, səh. 590)*

Bədiüzzamana görə hz. Mehdi, Mehdilik vəzifəsini təkcə bir sahədə yerinə yetirməyəcəksə, onda **dörd müxtəlif sahədə eyni anda böyük və əhəmiyyətli fəaliyyətləri olacaqdır".**

Ancaq Əmirdağ Lahiqəsinə aid nəşr olunmamış bir məktubunda, Bədiüzzaman **"Hərçənd ki, həqiqət məqamında Axırzamanda zühur edəcək olan böyük Hz. Mehdi siyasəti əsl dindar olan İsəvilərə təhvil verib təkcə İslamiyyət həqiqətlərini isbat etməyə, göstərməyə və yerinə yetirməyə çalışar..."** şəklində bir söz işlətmişdir. Bədiüzzamanın bu sözü ilə nəyi nəzərdə tutmuş olması isə, müxtəlif orqanlar tərəfindən müzakirə mövzusuna çevrilir. Bədiüzzamanın bu sözlərinə əsaslanaraq, "hz. Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir iş yerinə yetirəcəyi; ancaq siyasət və səltənət sahələrində hər hansı bir vəzifə boynuna götürməyəcəyi" şəklində şərhlər irəli sürülür.

Ancaq bu fikir Bədiüzzamanın risalələrdə yüzlərlə səhifə etibarilə izah etdiyi məlumatlarla tamamilə ziddiyyət təşkil edir. Çünki Bədiüzzaman əsərlərində hz. Mehdinin yerinə yetirəcəyi üç böyük vəzifə haqqında geniş məlumat vermiş və hz. Mehdinin "diyanət, siyasət, səltənət və mübarizə sahələrində Mehdilik vəzifəsini nə cür yerinə yetirəcəyini"

təfərrüatlı olaraq izah etmişdir. Bu sözlərində hz. Mehdinin "İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, müsəlmanların mənəvi liderliyini boynuna götürərək İslam Birliyini yaradacağını, xristian dünyası ilə əməkdaşlıq edəcəyini" təfərrüatlı olaraq izah etmişdir. Bədiüzzamanın bütün bu izahları heç bir müzakirə və ya şərhə yer verməyəcək qədər aydındır.

Aydındır ki, əgər Bədiüzzaman, hz. Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir xidmət göstərib, siyasət ya da səltənət sahələrində vəzifəsinin olmayacağını fikirləşsəydi, risalələrdə belə bir şərhə yer verməz, hz. Mehdinin bu istiqamətdəki vəzifələrini Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə istinad edərək bu qədər uzun və ətraflı olaraq izah etməzdi. Çünki Bədiüzzaman kimi dərin imanlı böyük bir mücəddidin əsərlərində fikirləşdiyi və inandığı şeylərin əksi olan şərhlərin mövcud olmasından heç cür söhbət gedə bilməz. Aydındır ki, ortada bir səhv başa düşmək məsələsi vardır və Bədiüzzamanın bu məktubundakı sözlərinin səhv formalarda şərh edilməsindən söhbət gedə bilər. Bu vəziyyət Bədiüzzamanın bəhsi keçən məktubunu risalələrə köçürtməmiş olmasının hikmətlərini də aydın şəkildə bəyan edir. Bədiüzzaman da bu mövzunu şübhəli olaraq gördüyünü, baş qarışdıra biləcəyini və səhv başa düşüləcəyi üçün bəhs edilən məktubunu risalələrə köçürtməmişdir. Necə ki, bu da Bədiüzzamanın bir kəramətidir. Bədiüzzamanın narahatlıq keçirtdiyi vəziyyət reallaşmış və aparılan bu səhv şərh, Bədiüzzamanın sözlərinin səhv başa düşülməsinə səbəb olmuşdur. Buna görə də bu mövzunun aydınlaşdırılmasında və Bədiüzzamanın bu sözlərlə həqiqətdə nəyi nəzərdə tutmuş olduğunun aşkarlanmasında fayda vardır.

## BƏDİÜZZAMAN, HZ. MEHDİ İLƏ ƏLAQƏDAR OLARAQ İŞLƏTDİYİ "SİYASƏT" ANLAYIŞI İLƏ NƏYİ NƏZƏRDƏ TUTUR?

Bədiüzzamanın hz. Mehdinin siyasət sahəsindəki vəzifəsi ilə əlaqədar olan sözlərinin daha yaxşı başa düşülməsi üçün əvvəlcə Bədiüzzamanın **"siyasət"** anlayışını nə mənada istifadə etdiyinin və **"hz. Mehdinin siyasət sahəsində yerinə yetirəcəyi işlər"** deməklə nəyi nəzərdə tutduğunun tamamilə izah edilməsi lazımdır.

## BƏDİÜZZAMAN ƏSƏRLƏRİNDƏ "İKİ CÜR SİYASƏT ANLAYIŞI"NDAN BƏHS EDİR

Bədiüzzaman əsərlərində **"iki cür siyasət anlayışı"**ndan bəhs edir. Bunlardan birincisi, Bədiüzzamanın da həyatı boyunca uzaq durduğunu bildirdiyi **"dünya siyasəti"**dir. Bədiüzzaman əsərlərində bu həqiqəti dəfələrlə ifadə etmişdir. Bədiüzzamanın bu mövzudakı sözlərindən bəziləri belədir: **Bir zaman, bu pis niyyətli tərəf tutmağın nəticəsi olaraq gördüm ki; dindar olub dini əmrlərə və qadağalara tabe olan bir elm əhli siyasət fikrinə qarşı olan səmimi bir alimi küfrlə kafirliklə, ittiham etməklə narahat etdi. Və öz fikrində olan bir münafiqi, hörmətlə təriflədi. Budur,** siyasətin bu pis nəticələrindən qorxdum, əuzu billahi minəş-şeytani vəs-siyasi (şeytandan və siyasətdən Allaha sığınıram) **dedim. O vaxtdan bəri siyasət sahəsindən uzaqlaşdım.** (Mektubat, 22.Mektup, 4.Vecih, 4.Düstur, səh. 247)

Həmçinin iman və həqiqət məqamında bu cür maraqların böyük zərərləri vardır. **Çünki qəflətə salacaq və dünyaya boğduracaq və insanın həqiqi vəzifəsini və axirəti unutduracaq olan ən geniş sahə isə siyasət sahəsidir.** (Emirdağ Lahikası, səh.46)

Bədiüzzamanın burada **"şeytandan və siyasətdən Allaha sığınıram"** deməklə bəhs etdiyi şey **"Qurandan kənar olan bir siyasət anlayışı"**dır. Necə ki, Allaha sığındığını deməsi bu həqiqəti aydın şəkildə bəyan edir.

Bədiüzzaman əsərlərində hz. Mehdinin də bu mənada bir siyasət ilə məşğul ola bilməyəcəyini bildirir. Ancaq Bədiüzzaman **"...Eynilə SİYASƏT, DİYANƏT, SƏLTƏNƏT, MÜBARİZƏ SAHƏSİNDƏ və bir çox sahədə işləri olduğu kimi..."** (Şualar, səh. 590) deməklə də, hz. Mehdinin siyasət aləmində əhəmiyyətli vəzifələr boynuna götürəcəyini bildirir. Bədiüzzamanın burada istifadə etdiyi siyasət anlayışı ilə nəzərdə tutduğu məna Bədiüzzamanın özünün də Allaha sığındığını ifadə etdiyi siyasət anlayışından çox fərqlidir. Bədiüzzaman hz. Mehdinin, "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi", yəni "müsəlmanların mənəvi lideri" xüsusiyyətini daşıyaraq bütün dünya müsəlmanları arasında İslam Birliyini yaradacağını, xristian aləmi ilə əməkdaşlıq meydana gətirəcəyini və hz. İsa ilə birlikdə İslam əxlaqını bütün dünyada hakim edəcəyini bildirmişdir. Bədiüzzamanın ətraflı olaraq izah etdiyi hz. Mehdinin boynuna götürəcəyi bütün bu vəzifələr, hz. Mehdinin **"Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni bütün dünya müsəlmanlarının mənəvi lideri"** xüsusiyyətinə sahib olacağını və **"idarəçi"** mövqeyində çıxış edəcəyini aydın şəkildə bəyan edir.

Ancaq xəlifə olması; yəni müsəlmanların mənəvi lideri sifətinə sahib olması ilə siyasət anlayışı fərqli mövzulardır. Hz. Mehdi dünya siyasəti ilə şəxsən məşğul olmaya bilər amma **"Müsəlmanları maraqlandıran hər mövzuda çıxış yolu tapacaq bir adam olaraq mənəvi liderləri hz. Mehdi olacaqdır".** Hz. Mehdinin boynuna götürəcəyi bu vəzifənin necə adlandırıldığı əhəmiyyətli deyildir. **"Hz. Mehdinin məşğul olacağı siyasət, "Quran əxlaqı daxilindəki siyasət" olacaqdır".** Əhəmiyyətli olan hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifənin "Quranın bir hökmü" olmasıdır. **"Quran əxlaqına uyğun siyasət"** anlayışı isə **"gözəl əxlaqlı,**

**şəfqətli, mərhəmətli olmaq, ədalətlə davranmaq, möminlər arasında birlik və qardaşlığı, sülhü və ictimai ədaləti təmin etmək, ədalətsizliyi aradan qaldırmaq, zənginlik və rifahı təmin etmək**" deməkdir. Quranda hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifə "**İslam əxlaqının hakimiyyəti**" olaraq müjdələnir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir... (Nur surəsi, 55)**

Hz. Mehdi də Quranın bu hökmünə uyğun olaraq, bütün müsəlmanların dincliyini, birlik və həmrəyliyi təmin edəcək, İslam əxlaqının gözəlliyini bütün dünyada hakim edəcəkdir. Bədiüzzamanın da siyasət və səltənət anlayışları ilə nəzərdə tutduğu əsas mövzu budur; "**Hz. Mehdinin bütün dünya müsəlmanlarının liderliyini boynuna götürməsi və Quranda buyrulan bu hökmə uyğun olaraq İslam dünyasının mənfəəti üçün fəaliyyət göstərməsi**"dir. Bütün bunlar Quran əxlaqının və Quran ayələrinin bir gərəyidir. Bədiüzzamanın "**o şəxsin ikinci vəzifəsi, Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini icra və tətbiq etməkdir**" (Sikke-i Tasdik-i Gaybi, səh. 9) deməklə ifadə etdiyi kimi hz. Mehdidə Quran əxlaqının tələblərini tətbiq etdiyi halda İslam Birliyinin meydana gəlməməsi, hz. Mehdinin idarəçi xüsusiyyətinə və səlahiyyətə sahibi olmaması, ya da lider mövqeyində çıxış etməmisdən söhbət gedə bilməz. Çünki bütün bunlar Allahın bütün müsəlmanları tətbiq etməklə məsuliyyət sahibi etdiyi hökmlərdir. Necə ki, Bədiüzzaman da hz. Mehdinin bu xüsusiyyətlərə sahib olacağını "**Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi ünvanı ilə İslam əxlaqının əsaslarını yenidən dirçəltməkdir".** (Emirdağ Lahikası, səh. 259) deməklə ifadə edir.

Bir ayədə Allah müsəlmanlara, aralarındakı "əmir sahiblərinə" tabe olmalarını belə buyurur:

**Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır. (Nisa surəsi, 59)**

Bu ayə kimi Quranda müsəlmanların Allahın özlərini dünyada və axirətdə xilas etməsi üçün göndərmiş olduğu elçilərə tabe olmaları ilə əlaqədar xeyli ayə vardır. Budur Bədiüzzaman, **"siyasət, diyanət, səltənət və mübarizə sahəsində və bir çox sahədə işləri olduğu kimi"** deməklə hz. Mehdi üçün nəzərdə tutduğu siyasət anlayışını ifadə edir. Bədiüzzaman bu sözlərində iştirak edən "siyasət və səltənət" anlayışları ilə hz. Mehdinin, Quranın bu hökmünü nə cür yerinə yetirəcəyini izah edir.

Necə ki, risalələrdəki hz. Mehdinin vəzifələrinin izah edildiyi sözlər diqqətlə tədqiq olunduğunda, Bədiüzzamanın bu sözləri ilə nəyi nəzərdə tutmuş olduğu asanlıqla başa düşülür; hz. Mehdinin siyasət və səltənət sahəsində bir çox vəzifə boynuna götürəcəyi aydın şəkildə görünür.

## BƏDİÜZZAMAN ƏMİRDAĞ LAHİQƏSİNDƏKİ NƏŞR OLUNAN MƏKTUBUNDA BƏHSİ KEÇƏN "DİNDAR İSƏVİLƏR" SÖZLƏRİ İLƏ KİMLƏRİ NƏZƏRDƏ TUTUR?

"Hərçənd həqiqət məqamında Axırzamanda zühur edəcək böyük hz. Mehdi siyasəti əsl dindar olan İsəvilərə təhvil verib təkcə İslamiyyət həqiqətlərini isbat etməyə, aşkara çıxartmağa, ortaya qoymağa, göstərməyə, tətbiq etməyə və yerinə yetirməyə çalışar..." (Emirdağ Lahikası – 1)

Bədiüzzaman Əmirdağ Lahiqəsindəki məktubunda hz. Mehdinin **"siyasəti əsl dindar olan İsəvilərə təhvil verəcəyini"** ifadə etmişdir. Bədiüzzamanın bu sözlərində **"dindar olan İsəvilər"** deməklə kimləri nəzərdə tutduğunun aşkarlanması, hz. Mehdinin vəzifələri ilə əlaqədar mövzunun ən doğru şəkildə başa düşülməsi baxımından çox əhəmiyyətlidir. Diqqət yetirsək Bədiüzzamanın burada **"müsəlmanlığa qayıtmış İsəvilər"** demədiyini görərik. Demək ki, haqqında bəhsi keçən kəslər **"hələ müsəlmanlığı qəbul etməmiş xristianlar"**dır. Bu kəslər hələ Quranı qəbul etməmiş, İsəviliyi tərk edərək müsəlmanlığa tabe olmamış kəslərdir. Halbuki, hz. İsa nüzul etdiyində Qurana tabe olub müsəlman olacaqdır. Buna görə də İsəvi deyil Məhəmmədi olacaqdır. Ona tabe olan İsəvilər də onun müsəlman olmasından ötəri onlar da Məhəmmədi olacaqlar.

Buna görə də Bədiüzzamanın sözlərindən, burada **"bəhsi keçən xristianların hələ Quranın təbliğini qəbul etməmiş və müsəlmanlığa qayıtmamış kəslər olduqları"** aydın şəkildə başa düşülür. Bədiüzzamanın **"dindar olan İsəvilər"** deməklə nəzərdə tutduğu **"İncilə və xristianlıq dininə tabe olmuş dindar xristianlardır".**

Bədiüzzaman Axırzaman ilə əlaqədar sözlərində İsəvilər ilə əlaqədar **“iki mərhələ”**dən danışır. **“Bunlardan biri hz. İsanın nüzulundan əvvəlki digəri də hz. İsanın nüzulundan sonrakı dövrdür”. Hz. İsanın ikinci dəfə dünyaya qayıtmasından əvvəlki dövrdə dindar olan İsəvilər “dünya siyasəti” ilə məşğul olacaqlardır.** Necə ki, indiki vaxtda da bu vəziyyət aydın şəkildə görünür. Bədiüzzaman da bu sözlərində bu həqiqəti dilə gətirmişdir.

Bundan əlavə əvvəlki sətirlərdə bu mövzu ilə əlaqədar olaraq hz. Mehdinin məşğul olacağı siyasətin yalnız **“Quran əxlaqı daxilindəki bir siyasət”** olacağı izah edilmişdi. **“Budur hz. Mehdinin bu dövrdə əsl dindar olan İsəvilərə təhvil verdiyi siyasət də “Qurandan kənar siyasət” olacaqdır”.** Necə ki, hz. Mehdinin “Qurana uyğun olmayan bir siyasəti”, “Qurana tabe olmayan bir cəmiyyətə” təhvil verməməsi də çox normaldır. Demək ki, İslam əxlaqının hakim olmadığı bu dövrdə güc və imkanlar Qurana tabe olmamış bu cəmiyyət üçün xarakterik olacaqdır.

## BƏDİÜZZAMAN HZ. MEHDİ ÜÇÜN İŞLƏTDİYİ “VƏZİFƏLƏRİ ÇOXDUR” SÖZLƏRİ İLƏ NƏYİ NƏZƏRDƏ TUTUR?

Bədiüzzaman hz. Mehdinin vəzifələrini izah etdiyi sözlərində **“Böyük Mehdinin VƏZİFƏLƏRİ ÇOXDUR...”** (Şualar, səh. 590) deyə bildirir. Bu sözlərinin davamında isə yenə hz. Mehdi üçün **“BİR ÇOX SAHƏDƏ İŞLƏRİ OLDUĞU KİMİ...”** ifadəsini işlədir.

Bəhs edilən Əmirdağ Lahiqəsindəki nəşr olunmuş məktubunda isə hz. Mehdi üçün **“...o mübarək şəxsin və yaxud onun nurani camaatının şəxsi mənəvisinin ÇOX OLAN VƏZİFƏLƏRİNDƏN ən əhəmiyyətli vəzifəsi olan iman həqiqətlərinin isbatı və yayılmasını...”** (Emirdağ Lahikası-1) sözlərinə yer verir.

Bədiüzzamanın bəhsi keçən məktubundakı sözlərinə əsaslanaraq “hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini dindar olan İsəvilərə təhvil verib təkcə birinci vəzifəsi olan iman həqiqətlərinə istiqamətli bir fəaliyyət göstərəcəyi” iddia edilir. Ancaq Bədiüzzaman yenə bəhsi keçən bu məktubunda **“O MÜBARƏK ŞƏXSİN”** olaraq ifadə etdiyi hz. Mehdinin **“ÇOX OLAN VƏZİFƏLƏRİNDƏN”** danışır.

**1) Bədiüzzamanın Əmirdağ Lahiqəsində bəhs etdiyi və risalələrin digər hissələrində də yer alan “VƏZİFƏLƏRİ ÇOXDUR” sözləri hansı mənanı verir?**

Bədiüzzaman, Əmirdağ Lahiqəsindəki məktubunda olduğu kimi, risalələrdə yüzlərlə səhifə etibarilə hz. Mehdinin **"vəzifələrinin çox olacağı", "bir çox sahədə işlərinin olacağı"** şəklində şərhlər etmiş; **"hz. Mehdinin birinci vəzifəsi", "ikinci vəzifəsi"** və **"üçüncü vəzifəsi"** olaraq adlandırdığı bir çox sözünə yer vermişdir. Əgər Bədiüzzaman **"vəzifələri çoxdur"** deyirsə, bunun hz. Mehdinin təkcə bir vəzifəsini ifadə etməsi mümkün deyildir. Deməк ki, **"Bədiüzzamana görə <u>hz. Mehdinin təkcə bir vəzifəsi yoxdur; birdən çox vəzifəsi vardır</u>".**

**2) Bədiüzzaman Əmirdağ Lahiqəsinə aid bəhsi keçən məktubunda "ən əhəmiyyətli vəzifəsi olan iman həqiqətlərinin isbatı və yayılması"** (Emirdağ Lahikası-I) **olduğunu xəbər verir. Burdan birinci vəzifənin nə olduğu başa düşülür. Bəs hz. Mehdinin, Bədiüzzamanın "vəzifələri çoxdur" deməklə ifadə etdiyi digər vəzifələri hansılardır?**

Bədiüzzaman bu problemin cavablarını risalələrdə geniş və ətraflı olaraq izah etmişdir. Hz. Mehdinin **"diyanət, siyasət, səltənət və mübarizə sahələrində vəzifələrinin olduğunu"** izah etmişdir. Sonrakı sətirlərdə hz. Mehdinin bu vəzifələri təfərrüatlı olaraq izah ediləcəkdir.

Bədiüzzamanın risalələrdə qeyd etdiyi bir mövzunu təkcə bir sözüylə dəyərləndirmək səhv şərhlərin aparılmasına səbəb ola bilər. Çünki Bədiüzzaman Risalə-i Nur külliyatının müxtəlif əsərlərində mehdiyyət mövzusuna yer vermiş bu mövzularda bir-birini tamamlayan əhəmiyyətli izahlar vermişdir. Bu mövzuda da Bədiüzzamanın Əmirdağ Lahiqəsinə aid bu məktubundakı hz. Mehdi ilə əlaqədar olan izahları risalələrin digər hissələrindəki izahları ilə bir-birini tamamlayır. Bədiüzzaman bu hissələrdə siyasət və səltənət mövzularını çox geniş bir şəkildə izah etmişdir.

Buna görə də Bədiüzzamanın bu məktubunda qeyd olunan olan bu sözlərinin də Bədiüzzamanın risalələrdə bu qədər geniş yer verdiyi və Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə istinad edərək təfərrüatlı olaraq izah etdiyi digər sözlərinin əsasında dəyərləndirilməsi lazımdır.

## <u>BƏDİÜZZAMAN, HZ. MEHDİNİN VƏZİFƏLƏRİNİ "ÜÇ MÜXTƏLİF MƏRHƏLƏDƏ" YERİNƏ YETİRƏCƏYİNİ İZAH ETMİŞDİR</u>

**Dəfələrlə məktublarımda işarə etdiyim kimi, PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDAN GƏLƏN HZ. MEHDİNİN TƏMSİL ETDİYİ MÜQƏDDƏS CAMAATININ ŞƏXSİ MƏNƏVİSİNİN <u>ÜÇ VƏZİFƏSİ VARDIR</u>. Əgər qiyamət tezliklə baş verməsə və insanlar tamamilə yoldan çıxmasa,**

**həmin vəzifələri onun cəmiyyəti və seyidlər (Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələnlər) camaatının yerinə yetirəcəyini Allahın rəhmətindən gözləyirik. Və <u>ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQDIR</u>.** (Emirdağ Lahikası, səh. 259)

1-Cİ MƏRHƏLƏ

Hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətlərini təbliğ edərək inkarçı fəlsəfələrə qarşı mübarizə apardığı dövr

2-Cİ MƏRHƏLƏ

Hz. Mehdinin siyasət və səltənət sahələrindəki ikinci vəzifələrini yerinə yetirdiyi dövr

3-CÜ MƏRHƏLƏ

Hz. İsanın ikinci dəfə yer üzünə gəldiyi və hz. Mehdi ilə birlikdə islam əxlaqını bütün dünyaya hakim etdikləri dövr

Bədiüzzaman əsərlərində hz. Mehdinin yerinə yetirəcəyi vəzifələri izah edərkən, bunların müəyyən bir ardıcılıq üzrə reallaşacağını da ifadə etmişdir. Bədiüzzamana görə hz. Mehdinin bu vəzifələrini yerinə yetirməsi **"<u>ÜÇ MÜXTƏLİF MƏRHƏLƏ</u>"** də reallaşacaqdır.

<u>BİRİNCİ MƏRHƏLƏ</u>: Hz. Mehdi vəzifəsinə başladığı ilk dövrdə Bədiüzzamanın **"ən əhəmiyyətli vəzifəsi olan iman həqiqətlərinin isbatı və yayılması"** (Emirdağ Lahikası-I) sözləriylə bəhs etdiyi birinci vəzifəsini yerinə yetirəcəkdir. Bu mərhələdə hz. Mehdi siyasət və səltənət sahələrində vəzifə sahibi olmayacaq bunu hələ Qurana tabe olmamış dindar olan İsəvilərə təhvil verəcəkdir. Bədiüzzamanın istifadə etdiyi **"isbatı və yayılması"** sözündən başa düşüldüyü kimi nəşriyyat yolu ilə yəni kitab, jurnal, CD və digər kütləvi informasiya vasitələri yolu ilə geniş kütlələrə iman həqiqətlərini təbliğ edəcəkdir.

<u>İKİNCİ MƏRHƏLƏ:</u> Hz. Mehdi ikinci mərhələdə isə siyasət və səltənət sahələrindəki vəzifələrinə başlayacaqdır; İslam birliyini təmin edəcək və inkarçı fəlsəfələrə qarşı xristianlarla birgə əməkdaşlıq edəcəkdir. Bu mərhələdə hz. Mehdi, "Peyğəmbərimiz (s.ə.v)-in

xəlifəsi", yəni "bütün müsəlmanların mənəvi lideri" olmaq xüsusiyyəti ilə İslam aləminin başçısı kimi çıxış edəcəkdir.

ÜÇÜNCÜ MƏRHƏLƏ: Bu üçüncü mərhələyə keçilən dövrdə isə hz. İsanın ikinci dəfə yer üzünə gəlişi və hz. Mehdi ilə birləşmələrinin başlanğıc illəri olacaqdır. Bu dövr hz. Mehdinin hz. İsa ilə birləşərək İslam əxlaqını bütün dünyaya hakim edəcəkləri bir mərhələ olacaqdır.

## BƏDİÜZZAMAN HZ. MEHDİNİN, BİRİNCİ VƏZİFƏSİNİ YERİNƏ YETİRƏRKƏN SİYASƏTLƏ MƏŞĞUL OLMAYACAĞINI NECƏ İZAH ETMİŞDİR?

Bədiüzzaman hz. Mehdinin, vəzifələrini yerinə yetirməyə başladığı birinci mərhələdə vəzifəsinə birinci vəzifəsi olan iman həqiqətləri mövzusunu əsas götürərək başlayacağını; siyasət və səltənət sahələrindəki vəzifələrini isə sonrakı mərhələlərdə reallaşdıracağını izah etmişdir. Bədiüzzamanın bu mövzudakı sözləri belədir:

**...İndiki dövrdə elə fövqəladə fikri cərəyanlar vardır ki, hər şeyi öz hesabına aldığı üçün, fərz edək ki həqiqi gözlənilən və bir əsr sonra zühur edəcək olan O ŞƏXS İNDİKİ DÖVRDƏ ZÜHUR ETSƏ BELƏ, fəaliyyətini o cərəyanların əlinə keçirməmək üçün SİYASƏT SAHƏSİNDƏKİ VƏZİFƏSİNDƏN İMTİNA EDƏCƏYİNİ VƏ HƏDƏFİNİ DƏYİŞDİRƏCƏYİNİ GÜMAN EDİRƏM.**

Həmçinin üç məsələ vardır: **Biri həyat, biri Quran əxlaqının əsasları, biri isə imandır. Haqq baxımından ən vacibi və ən böyüyü iman məsələsidir. Lakin hal-hazırkı cəmiyyətin gözündə və dünyanın indiki vəziyyətində ən mühüm məsələ həyat və islam dininin əsasları olaraq hesab edildiyindən o şəxs indi zühur etsə də üç məsələni eyni anda yer üzündəki ümumi vəziyyətdə onların vəziyyətlərini dəyişdirmək bütün insanlar üçün etibarlı olan adətullaha tabe olmadığından, YƏQİN Kİ, ƏN BÖYÜK MƏSƏLƏYƏ DİQQƏT YETİRİB O BİRİ MƏSƏLƏLƏRİ DİQQƏTDƏN KƏNARDA SAXLAYACAQDIR.** O vaxta qədər ki, iman xidməti səmimiyyətini ümuminin nəzərində pozmasın həmçinin elmi və məlumatı az olan kəslərin tez aldadıla bilən ağıllarında, o xidmətin başqa məqsədlərə alət olmadığı başa düşülsün. *(Kastamonu Lahikası, səh. 57)*

Bədiüzzaman "**...fəaliyyətini o cərəyanların əlinə keçirməmək üçün siyasət sahəsindəki vəzifəsindən imtina edəcəyini və hədəfini dəyişdirəcəyini güman edirəm...**" deməklə, hz. Mehdinin vəzifəsinə başladığı ilk vaxtlarda siyasət və səltənət sahələrindəki ikinci və üçüncü vəzifələrindən imtina edərək bunları sonrakı mərhələyə saxlayacağını güman etdiyini xəbər vermişdir. Bədiüzzaman bu ilk mərhələdə hz. Mehdinin siyasət və səltənət sahələrindəki

vəzifələrini reallaşdıra bilməsi üçün əlverişli mühitin olmadığını xəbər vermişdir. Ancaq ikinci mərhələdə vəziyyət dəyişəcək və hz. Mehdinin siyasət və səltənət sahələrindəki ikinci və üçüncü vəzifələrini yerinə yetirə bilməsi üçün əlverişli bir mühit yaranacaqdır.

Bədiüzzaman "yəqin ki ən böyük məsələyə diqqət yetirib, digər məsələləri diqqətdən kənarda saxlayacaqdır" deməklə hz. Mehdinin ən əhəmiyyətli mövzu olan iman həqiqətlərini izah edərək dinsizliyə qarşı fikri bir mübarizə icra etmək vəzifəsini "birinci növbəyə alacağını" xəbər vermişdir.

**"<u>O şəxs indiki vaxtda zühur etsə belə</u>"** deməklə **"öz yaşadığı dövrdə hz. Mehdinin siyasət, səltənət və mübarizə sahəsindəki vəzifələrinin yerinə yetrilməsinin mümkün olmadığını ifadə etmiş; hz. Mehdinin bu vəzifələrini yerinə yetirməsinin bu şəxsin ancaq AXIRZAMANDA ZÜHUR ETMƏSİ İLƏ mümkün ola biləcəyini" xəbər vermişdir. Bədiüzzamanın bu mövzunu izah etdiyi sözü belədir**:

**ÜÇ VƏZİFƏNİN EYNİ ANDA BİR ŞƏXSDƏ YAXUD CAMAATDA <u>İNDİKİ DÖVRDƏ</u> TAPILMASI VƏ MÜKƏMMƏL ŞƏKİLDƏ OLMASI VƏ BİR-BİRİNƏ MANE OLMAMASI <u>ÇOX UZAQ SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR,</u> <u>AXIRZAMANDA</u> Peyğəmbərimiz (s.ə.v)-in nəslinin nurani camaatını təmsil edən Mehdi də və camaatındakı şəxsi mənəvidə <u>ANCAQ CƏMLƏŞƏ BİLƏR</u>.** (Kastamonu Lahikası, səh. 139)

Bədiüzzaman burada hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini yerinə yetirməsinin bu şəxsin **"<u>ANCAQ AXIRZAMANDA ZÜHUR ETMƏSİ İLƏ</u>"** mümkün olacağını ifadə edir. **"Təkcə, sadəcə"** mənalarında işlənən **"ancaq"** sözü də bu mövzunu çox konkret olaraq aydınlaşdırır. Demək ki, hz. Mehdi bu vəzifələrini yerinə yetirə bilmək üçün Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirildiyi kimi, Axırzamanda zühur edəcək və bu dövrdə şərtlərin dəyişməsi ilə yanaşı vaxt ərzində müvafiq olaraq ikinci və üçüncü vəzifələrini də yerinə yetirə biləcəkdir. Çünki o dövrdə artıq siyasət ilə məşğul olmasının bir problemi olmayacaq.

Bu mövzu sual-cavab formasında izah edilsə Bədiüzzamanın nəzərdə tutduğu məna daha yaxşı başa düşülər:

**1) Bədiüzzamana görə hz. Mehdinin digər vəzifələrinə zərər yetirmədən siyasət və səltənət sahələrindəki vəzifələrini yerinə yetirə bilməsi üçün necə bir mühit yaranmalıdır?**

Bu dövr **"A<u>xırzaman</u>"** olmalıdır.

**2) Hz. Mehdinin üç vəzifəsini də eyni anda yerinə yetirə bilməsi üçün nə lazımdır?**

**"<u>Hz. Mehdinin Axırzamanda zühur etməsi</u>"** lazımdır.

**3) Hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini yerinə yetirə bilməsi ancaq necə mümkün ola bilər?**

“Ancaq hz. Mehdinin Axırzamanda zühur etməsi ilə” mümkün olar.

**4) Bədiüzzaman “ancaq Mehdidə və camaatındakı şəxsi mənəvidə cəmləşə bilər” sözləri ilə nəyi ifadə edir?**

Bədiüzzaman bu sözləri ilə “**hz. Mehdi və camaatından başqa heç kimin bu üç vəzifəni eyni anda yerinə yetirə bilməyəcəyini**” ifadə edir.

## BƏDİÜZZAMAN “HZ. MEHDİNİN, SİYASƏTİ HANSI DÖVRDƏ TAMAMİLƏ DİNDAR İSƏVİLƏRƏ TƏHVİL VERƏCƏYİNİ” DEYİR?

Bədiüzzamanın Əmirdağ Lahiqəsinə aid nəşr olunan məktubunda bəhs etdiyi “**hz. Mehdinin siyasəti dindar İsəvilərə təhvil verdiyi dövr; hz. Mehdinin siyasət və səltənətlə məşğul olmadığı iman həqiqətlərini yaymaqla məşğul olduğu BİRİNCİ MƏRHƏLƏ**”dir. Bədiüzzamana görə hz. Mehdi bu mərhələdə siyasəti tamamilə dindar isəvilərə, yəni hələ müsəlman olmamış xristianlara təhvil verəcəkdir.

Necə ki, Bədiüzzaman da sözlərində “**hz. Mehdinin siyasəti tamamilə dindar İsəvilərə təhvil verdiyi bu mərhələdə təkcə iman həqiqətlərini İSBAT ETMƏK, İZHAR ETMƏK və YERİNƏ YETİRMƏKLƏ məşğul olacağını**” xəbər verir. Bədiüzzamanın, hz. Mehdinin bu mərhələdə “**islamiyyətin əsaslarını isbat etməyə, göstərməyə və yerinə yetirməyə çalışacağını**” deməsi, bu dövrün hz. Mehdinin birinci vəzifəsini yerinə yetirdiyi “**ilk dövr**” olduğunu göstərir. Çünki “**İSBAT**” sözünün mənası “**doğrunu dəlil göstərərək meydana qoymaq, dəlil və şahidlə bir şeyin doğruluğunu göstərmək**”dir. “**İZHAR**” sözü isə “**aşkar etmək, nümayiş etdirmək, göstərmək**” mənasını verir. Bədiüzzamanın bu sözlərindən hz. Mehdinin siyasəti tamamilə dindar isəvilərə təhvil verdiyi bu mərhələdə birinci vəzifəsi olan iman həqiqətlərini izah edərək təbliğ mərhələsini yerinə yetirdiyi aydın şəkildə başa düşülür.

## BƏDİÜZZAMAN “VƏZİFƏLƏRİ ÇOXDUR” DEMƏKLƏ İFADƏ ETDİYİ HZ. MEHDİNİN VƏZİFƏLƏRİNİ NECƏ İZAH ETMİŞDİR?

## <u>HZ. MEHDİNİN BİRİNCİ VƏZİFƏSİ:</u>

Bədiüzzaman ateist fəlsəfələrin Axırzamanda təhlükə yaradacağını xəbər vermiş xüsusilə darvinist materialist fəlsəfələrin ateizmdən dəstək görəcəklərini və Allahın varlığını inkar edəcək təhlükəli bir həddə çatacaqlarını ifadə etmişdir. Buna görə də **"hz. Mehdinin birinci vəzifəsinin materializm fikrinə qarşı, yəni Allahı inkar etmək əsasında qurulmuş materialist, darvinist və ateist fəlsəfələrə qarşı fikri mübarizə aparmaq və bu fəlsəfələrin insanlar üzərindəki təsirini tamamilə aradan qaldırmaq olacağını"** ifadə etmişdir:

Birincisi: Fənn və fəlsəfənin təsiriylə və materializm, darvinizm və ateizm xəstəliyinin insanlar arasında yayılmasıyla hər şeydən əvvəl **materializm, darvinizm və ateizm kimi Allahı inkar edən dinsiz cərəyanları TAMAMİLƏ SUSDURACAQ BİR TƏRZDƏ imanı xilas etməkdir.** İman edənləri azğınlıqdan qorumaqdır... (Emirdağ Lahikası, 259)

**Ümmətin gözlədiyi, Axırzamanda zühur edəcək şəxsin üç vəzifəsindən ən mühümü və ən böyüyü və ən dəyərlisi olan dəlillərə əsaslanan imanı yaymaq <u>və</u> <u>iman edənləri azğınlıqdan qorumaqdır</u>.** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Bədiüzzaman əsərləriylə böyük bir imani xidmət göstərmiş xeyli insanın iman etməsinə və imanının dərinləşməsinə vəsilə olmuşdur. Ancaq Bədiüzzamanın **"TAMAMİLƏ SUSDURACAQ BİR TƏRZDƏ"** deməklə ifadə etdiyi **"<u>materializmi bütün dünyada tamamilə təsirsiz hala gətirmək</u>" vəzifəsi Bədiüzzaman tərəfindən tamamilə yerinə yetirilməmiş; dünya səviyyəsində insanların imanını xilas etmək vəzifəsi hz. Mehdiyə verilmişdir.**

Məlum olduğu kimi materializmin güclənməsi Bədiüzzamanın dövründə davam etdiyi kimi vəfatından yəni 1960-cı illərdən sonra da dövrümüzə qədər davam etmişdir. Televiziya və radio kanallarının inkişafı ilə, yazılı mətbuatın da köməyi ilə təsir sahəsi olduqca genişlənmişdir. Yəni Bədiüzzamanın vəfatından sonra da materializm təbliğatı genişlənərək 21-ci əsrə qədər gəlib çatmışdır.

Buna görə də özünün də ifadə etdiyi kimi Bədiüzzamanın dövründə bu mövzuda tam bir nəticə əldə edilməmişdir. Bədiüzzaman da **"tamamilə susduracaq tərzdə"** deməklə bu həqiqətə diqqət çəkmişdir. Materializm, ateizm və darvinizmin tənəzzülü ilə yanaşı insanların imanını xilas etmək vəzifəsi dünya səviyyəsində hz. Mehdiyə verilmişdir. Bədiüzzamanın şəxsən başladığı ancaq tamamilə sona çatmayan bu cərəyanla fikri mübarizə aparmaq Allahın izni ilə hz. Mehdi ilə davam edəcək və yekun bir nəticəyə çatdırılacaqdır.

## HZ. MEHDİNİN SİYASƏT VƏ SƏLTƏNƏT SAHƏLƏRİNDƏKİ İKİNCİ VƏ ÜÇÜNCÜ VƏZİFƏLƏRİ:

Bədiüzzamanın, hz. Mehdinin ikinci və üçüncü vəzifələrindən danışdığı sözlərində hz. Mehdinin, diyanət Mehdisi olması ilə yanaşı həmçinin siyasət Mehdisi və səltənət Mehdisi olaraq da üç vəzifəni eyni anda yerinə yetirəcəyi aydın şəkildə görünür. Bədiüzzamanın bu mövzunu dəlilləriylə bərabər izah edən sözlərindən bəziləri belədir:

**O şəxsin ikinci vəzifəsi Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini TƏTBİQ ETMƏK VƏ YERİNƏ YETİRMƏKDİR.** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

1) TƏTBİQ ETMƏK VƏ YERİNƏ YETİRMƏKDİR:

Bədiüzzaman hz. Mehdinin ikinci vəzifəsinin "islam əxlaqını və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnəsini dirçəltmək olduğunu" ifadə etmişdir. **"İCRA VƏ TƏTBİQ ETMƏK"**, **"tətbiq etmək, qüvvəyə salmaq, yerinə yetirmək"** deməkdir. Bədiüzzaman da bu sözüylə hz. Mehdinin, Quran əxlaqının tələblərini və əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini bütün insanlar arasında tətbiq edəcəyini və həyata keçirəcəyini xəbər verir. Bu da, hz. Mehdinin İslam Birliyini yaratması və bütün müsəlmanların mənəvi liderliyini boynuna götürməsi ilə reallaşdırılacaqdır.

**- hz. Mehdi "icra və tətbiq etmək" vəzifəsini necə yerinə yetirəcəkdir?**

Aydındır ki, bunun üçün hz. Mehdinin **"bu tədbirləri yerinə yetirmək üçün "səlahiyyətə" sahib olması"** lazımdır. Bu da **"hz. Mehdinin siyasət və səltənət sahəsində bir vəzifə yerinə yetirəcəyini bütün müsəlmanlara qarşı "idarəçi bir xüsusiyyətinin" olacağını"** aydın şəkildə bəyan edir.

**İkinci vəzifəsi: PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏSİ ÜNVANI İLƏ** islam **əxlaqının əsaslarını yenidən dirçəltməkdir. İSLAM ALƏMİNİN BİRLİYİNƏ ƏSASLANARAQ insanları maddi və mənəvi təhlükələrdən və Allahın əzabından xilas etməkdir. Bu vəzifənin dayaq nöqtəsi və qulluqçuları, MİLYONLARLA** (fərdləri) **OLAN ORDULAR lazımdır.** (Emirdağ Lahikası, səh. 259)

2) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏSİ ÜNVANI İLƏ:

Hz. Mehdi hal-hazırda müxtəlif qruplar halında dağınıq olan müsəlmanları birləşdirəcək, İslam əxlaqını və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnəsini dirçəldəcəkdir. İslam aləminin birliyini meydana gətirəcək bu vəsiləylə insanları maddi və mənəvi təhlükələrdən xilas edəcək və insanların Allahın rizasına uyğun bir həyat yaşayaraq Allahın əzabından çəkinmələrinə vəsilə olacaqdır.

Bədiüzzaman hz. Mehdinin bu ikinci vəzifəsini **"Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi",** yəni **"müsəlmanların mənəvi lideri"** sifətiylə yerinə yetirəcəyini bildirmişdir. Şübhəsiz ki, **hz. Mehdinin, "islam cəmiyyətinin lideri xüsusiyyəti ilə" islamiyyəti yenidən dirçəltməsi, sayı milyonlara çatan bir birliyin maddi və mənəvi gücü ilə hərəkət edərək bütün yer üzündə İslam Birliyini yaratması xüsusiyyətləri, onun "<u>siyasət və səltənət sahəsində göstərəcəyi fəaliyyətləri</u>" ifadə edir.**

## <u>3) İSLAM ALƏMİNİN BİRLİYİNƏ ƏSASLANARAQ:</u>

Bədiüzzaman hz. Mehdinin, əvvəllər heç bir mücəddid tərəfindən yerinə yetirilməmiş olan vəzifələrindən birinin "İslam Birliyinin təmin edilməsi" olduğunu xəbər verir. Hz. Mehdi bu birliyin yaradılmasına vəsilə olacaq milyonlarla müsəlmanı bir yerə toplayacaqdır. İslam Birliyini təmin etmək və bu birliyin liderliyi ünvanına sahib olmaq həm Bədiüzzamanın dövründə, həm ondan əvvəlki mücəddidlərin dövründə, həm də indiki vaxtda hələ də reallaşmamış hadisələrdir. Bədiüzzaman da bu həqiqəti bəyan etmiş bu hadisələrin hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən biri olacağını xatırlatmışdır.

Bədiüzzamanın hz. Mehdinin ikinci vəzifəsi haqqında vermiş olduğu bu məlumatlar da yenə **"hz. Mehdinin "<u>idarəçi</u>" mövqeyində çıxış edəcəyini və <u>siyasət sahəsində əhəmiyyətli vəzifələr boynuna götürəcəyini</u>"** heç bir şərhə yol verməyəcək bir şəkildə izah edir. Çünki hz. Mehdi bu birliyi təmin edəcək bir adam olaraq **"<u>lider</u>"** xüsusiyyəti ilə İslam Birliyinin başçısı olacaqdır.

## <u>4) MİLYONLARLA FƏRDLƏRİ OLAN ORDULAR:</u>

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin bu birliyi təmin etməsində ona kömək edəcək çox geniş bir kütlənin mövcudluğundan danışır. Bədiüzzaman, hz. Mehdinin qulluğunda Allahın varlığı və birliyi mövzusunu, iman həqiqətlərini bütün insanlara izah edən, geniş əhatəli bir imani xidmət göstərən elm və iman birliklərinin olacağını xəbər vermişdir. Şübhəsiz sayları milyonlarla ifadə olunan belə geniş bir kütlənin istiqamətləndirilməsi hz. Mehdinin **"<u>idarəçi xüsusiyyətini</u>"**nə sahib olacağını aydın şəkildə bəyan edir.

**Birinci vəzifə, maddi güclə deyil, bəlkə güclü və səmimi bir iman və yalnız Allahın məmnuniyyətini güdməklə və sədaqətlə mümkün olacağı halda bu ikinci vəzifə üçün <u>ÇOX BÖYÜK MADDİ GÜC VƏ HAKİMİYYƏT</u> lazımdır ki, o ikinci vəzifə yerinə yetrilə bilsin.** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

**<u>5) ÇOX BÖYÜK MADDİ BİR GÜC VƏ HAKİMİYYƏT:</u>**

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsinin ancaq "böyük bir maddi güc və hakimiyyətlə" reallaşmasının mümkün olduğunu ifadə etmişdir. Hz. Mehdinin bu vəzifəsini dünya səviyyəsində reallaşdıracağını xatırladaraq **"hz. Mehdinin sahib olacağı maddi güc və hakimiyyətin də böyük miqyasda olacağına"** diqqət çəkmişdir.

**- hz. Mehdinin böyük bir güc və hakimiyyətə sahib olması nəyi ifadə edir?**

**"Güc və hakimiyyət"** anlayışları "**<u>çox böyük bir səlahiyyət və iqtidarın mövcudluğunu</u>**" ifadə edir. Hz. Mehdinin bu cür böyük bir səlahiyyətə sahib olması **"<u>liderlik xüsusiyyəti ilə idarəçi mövqeyində çıxış edəcəyini</u>"** aydın şəkildə bəyan edir.

Peyğəmbərimiz (s.ə.v)-in dövründən etibarən belə bir güc və hakimiyyət təmin edilə bilməmişdir. Bədiüzzaman belə geniş əhatəli bir maddi güc və hakimiyyətin hz. Mehdi dövründə yaşanacağını ifadə edərək hz. Mehdinin siyasət və səltənət sahəsində reallaşdıracağı vəzifələrin əhəmiyyətini aydın şəkildə ifadə edir.

**O ŞƏXSİN üçüncü vəzifəsi, <u>İSLAM XƏLİFƏLİYİNİ İSLAM BİRLİYİ ƏSASINDA YARADARAQ, DİNDAR XRİSTİANLARLA VƏ XRİSTİAN ALİMLƏRİ İLƏ ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK EDƏRƏK İSLAM DİNİNƏ XİDMƏT ETMƏKDİR</u>. BU VƏZİFƏ, <u>ÇOX BÖYÜK BİR HÖKMRANLIQ və GÜC</u> və milyonlarla insanın fədakarcasına iştirakı ilə yerinə yetirilə bilər.** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

**<u>6) İSLAM XƏLİFƏLİYİNİ</u>**:

Bədiüzzaman, hz. Mehdinin başqa bir vəzifəsinin də islam cəmiyyətini birləşdirmək və xristian aləmi ilə əməkdaşlıq etmək olduğunu xəbər vermişdir. Hz. Mehdinin bu vəzifəsini iman sahiblərinin Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn fədakar seyidlərin və digər bütün müsəlmanlarınköməkliyi ilə reallaşdıracağını xəbər vermişdir.

Bədiüzzaman bu sözüylə "hz. Mehdinin dünya səviyyəsində bütün müsəlmanların mənəvi liderliyini boynuna götürəcəyini" yenidən ifadə edərək, "hz. Mehdinin siyasət və səltənət sahələrində vəzifələrini" izah etmişdir.

Bədiüzzamanın hz. Mehdi ilə əlaqədar olan izahlarında dəfələrlə təkrarladığı hz. Mehdinin bu xüsusiyyətini görməməzlikdən gəlib yalnız iman həqiqətləri istiqamətində fəaliyyət göstərib siyasət və səltənət sahələrində bir vəzifə boynuna götürməyəcəyini iddia etməkdən heç cür söhbət gedə bilməz. Bədiüzzaman çox aydın dəlillərlə hz. Mehdinin bu sahələrdə müxtəlif fəaliyyətlər yerinə yetirəcəyini izah etmiş və bütün bunların hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən olacağını ifadə etmişdir.

## 7) İSLAM BİRLİYİNƏ ƏSASLANARAQ:

Bədiüzzaman, hz. Mehdinin **"siyasət, səltənət və mübarizə sahələrində"** göstərəcəyi fəaliyyətlərdən birinin İslam Birliyini yaratmaq olduğunu ifadə etmişdir. Bədiüzzaman hz. Mehdinin bu vəzifəsiylə, onun **"idarəçi"** mövqeyində çıxış edəcəyini və **"müsəlmanların mənəvi liderliyini"** boynuna götürəcəyini ifadə edir.

## 8) DİNDAR XRİSTİANLARLA VƏ XRİSTİAN ALİMLƏRİ İLƏ ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK EDƏRƏK İSLAM DİNİNƏ XİDMƏT ETMƏKDİR:

Bədiüzzaman, hz. Mehdinin islam cəmiyyətini birləşdirib xristian başçılarlarla islam və xristianlığın ortaq cəbhəsi olan "materializm və dinsizliyə" qarşı mübarizədə əməkdaşlıq edəcəyini və bu yolla da islam dininə xidmət göstərəcəyini xəbər verir. Bədiüzzaman, **"hz. Mehdinin bütün müsəlmanların mənəvi lideri xüsusiyyəti ilə"** xristianlarla edəcəyi bu əməkdaşlığı izah edərək hz. Mehdinin **"siyasət sahəsində"** yerinə yetirəcəyi fəaliyyətlər haqqında məlumat verir. Bədiüzzaman bu şərhləriylə hz. Mehdinin yalnız iman həqiqətləri istiqamətində bir vəzifəsinin olmayacağını əksinə bütün dünyaya sülh və əmin-amanlıq bəxş edəcək çox böyük miqyaslı xidmətlər göstərəcəyini bəyan edir.

## 9) ÇOX BÖYÜK BİR SƏLTƏNƏT VƏ GÜC:

Bədiüzzaman, islam birliyi ilə müsəlman və xristian dünyasının əməkdaşlığı kimi böyük bir hadisənin ancaq üç şərtin meydana gəlməsiylə reallaşacağına diqqət çəkmişdir. Bədiüzzaman **"ÇOX BÖYÜK BİR SƏLTƏNƏT VƏ GÜC"** deməklə bu şərtlərdən ikisini izah edir.

**"Səltənət"** anlayışı, güc və səlahiyyət ifadə edən bir sözdür. **"Güc"** anlayışı isə **"istədiyi şeyi yerinə yetirə bilmək gücünü, yəni səlahiyyət"**ini ifadə edir. Bədiüzzaman hz. Mehdinin İslam Birliyini yaradıb bu birliyin liderliyini boynuna götürəcəyini və **"çox böyük bir güc və səlahiyyətə sahib olacağını"** xəbər vermişdir. Bədiüzzaman **"ÇOX BÖYÜK"** deməklə, hz. Mehdinin sahib olacağı bu gücün və səltənətin təsir sahəsinin geniş olacağını ifadə edir.

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsində olduğu kimi üçüncü vəzifəsini də eynilə çox böyük bir səltənət və güc ilə reallaşdıracağını ifadə etmişdir. Hz. Mehdinin İslam Birliyi və xristian aləmi arasında yaradacağı əməkdaşlıq dünya səviyyəsində bir xidmət olacaqdır; bu vəzifənin tələb etdiyi güc və səltənət də eynilə dünya səviyyəsində çox böyük bir hakimiyyətlə həyata keçiriləcək.

Bədiüzzamanın hz. Mehdinin üçüncü vəzifəsi haqqında səhifələrlə yazmış olduğunu bu şərhlər "**hz. Mehdinin yalnız diyanət Mehdisi olaraq xidmət göstərəcəyini, <u>həm siyasət, həm də səltənət sahəsində dünya səviyyəsində çox böyük vəzifələr boynuna götürəcəyini</u>**" ifadə edir.

**Üçüncü vəzifəsi: ...O şəxs bütün iman edənlərin mənəvi köməyi ilə və <u>İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ</u> və bütün alimlərin və vəlilərin və xüsusilə də Peyğəmbərimiz (s.ə.v)-in nəslindən hər əsrdə çox sayda olan milyonlarla insan Peyğəmbər nəslindən gələn fədakar kəslərin iştirakı ilə o böyük vəzifəni** yerinə yetirməyə çalışar. (Emirdağ Lahikası, səh. 260)

<u>10) İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ:</u>

Bədiüzzaman burada yenidən hz. Mehdinin İslam Birliyini yaradacağından bəhs etmişdir. Ancaq əvvəlki sətirlərdə də izah edildiyi kimi hz. Mehdi bu birliyin başında bütün "**<u>müsəlmanların mənəvi lideri</u>**" mövqeyində şəxsən özü çıxış edəcəkdir. Bədiüzzaman verdiyi bu məlumatlarda "**siyasət sahəsində vəzifələri olması ilə nəyin nəzərdə tutulduğunu və hz. Mehdinin bu sahədə necə bir fəaliyyət göstərəcəyini**" aydın şəkildə ifadə edir.

**Birinci vəzifə, digər iki vəzifədən üç-dörd dərəcə daha çox dəyərlidir, lakin o ikinci, üçüncü vəzifələr <u>ÇOX AYDIN VƏ ÇOX GENİŞ BİR ƏRAZİDƏ VƏ DƏBDƏBƏLİ BİR TƏRZDƏ</u> olduğundan ümuminin və xalqın gözündə daha əhəmiyyətli görünürlər**. (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

<u>11) O İKİNCİ, ÜÇÜNCÜ VƏZİFƏLƏR ÇOX AYDIN VƏ ÇOX GENİŞ BİR ƏRAZİDƏ VƏ DƏBDƏBƏLİ BİR TƏRZDƏ OLDUĞUNDAN:</u>

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin ikinci və üçüncü vəzifələrinin "**çox geniş kütlələri və əraziləri əhatə edən dəbdəbəli, şərəfli və geniş əks-sədalar doğuran işlər olduğunu**" xəbər verir. Necə ki, İslam Birliyini yaratmaq, bütün müsəlmanların liderliyini boynuna götürmək, xristianlarla əməkdaşlıq və həmrəylik yaratmaq və nəticədə islam əxlaqını yer üzünə hakim etmək, dünya tarixinin bəlkə də ən böyük və ən şərəfli

hadisələrindən biri olacaqdır. Bədiüzzaman bütün bu şərhləriylə **"hz. Mehdinin yerinə yetirəcəyi xidmətlərin yalnız birinci vəzifəsi olan iman həqiqətləri ilə məhdudlaşmayacağını "<u>müsəlmanların mənəvi lideri</u>" olaraq dünya səviyyəsində çox böyük xidmətlər göstərəcəyini"** ifadə edir.

**<u>...Həzrəti Mehdinin, o vəzifəsini şəxsən özünün yerinə yetirməsinə vaxt və vəziyyət imkan verməz. Çünki PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏLİYİ İSTİQAMƏTİNDƏKİ SƏLTƏNƏTİ, ONUNLA MƏŞĞUL OLMAĞA vaxt saxlamır.</u> Yəqin ki, o vəzifəni ondan əvvəl bir birlik bir istiqamətiylə yerinə yetirəcəkdir. O şəxs, o birliyin uzun sürən tədqiqatı ilə yazdıqları əsəri özünə hazır bir proqram edəcək, onunla o birinci vəzifəni tamamilə yerinə yetirmiş olacaqdır...** (Emirdağ Lahikası, səh. 259)

<u>12) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN XƏLİFƏLİYİ İSTİQAMƏTİNDƏKİ SƏLTƏNƏTİ, ONUNLA MƏŞĞUL OLMAĞA VAXT SAXLAMIR:</u>

Bədiüzzaman hz. Mehdinin işlərindən əvvəl, hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətlərini yaymaq və materializmi fikrən yox etmək istiqamətində istifadə etdiyi elmi vəsaitləri hazırlayan bir birlik olacağından bəhs edir. Bədiüzzaman **"bir istiqamətdə"** deməklə isə bu elmi birliyin, materializmi fikrən təsirsiz hala gətirilməsi işlərini yalnız müəyyən qədər yerinə yetirəcəklərini, buna görə də "hz. Mehdinin də özünə proqram edərək bu birliyin işlərindən bu istiqamətiylə faydalanacağını" xəbər verir. Əvvəlki səhifələrdə də ifadə edildiyi kimi, materialist fəlsəfənin **"tamamilə təsirsiz hala gətirilməsi"** isə ancaq hz. Mehdinin yerinə yetirəcəyi xidmətlər nəticəsində reallaşdırılacaqdır.

Bədiüzzaman hz. Mehdi üçün burada **"o vəzifəsini şəxsən özünün yerinə yetirməsinə vaxt və vəziyyət imkan verməz"** sözlərindən istifadə etmişdir. Bunun səbəbinin isə, **"hz. Mehdinin dünya səviyyəsində bütün "<u>müsəlmanların mənəvi lideri</u>" olaraq "<u>siyasət və səltənət sahəsində reallaşdıracağı böyük vəzifələri</u>" səbəbiylə vaxtının qalmayacağını"** ifadə etmişdir.

Bədiüzzamanın bu şərhləri **"hz. Mehdinin bütün dünya müsəlmanlarının mənəvi lideri olaraq siyasət və səltənət sahələrində dünya səviyyəsində bir çox xidmətlər göstərəcəyini"** aydın şəkildə ifadə edir.

...Axırzamanda **Peyğəmbərimiz (s.ə.v)-in yolunu, Quran əxlaqını və Quran əxlaqının əsaslarını, həqiqətlərini və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini <u>YENİDƏN DİRÇƏLTMƏKLƏ, HAMIYA EŞİTDİRƏRƏK VƏ TƏTBİQ EDƏRƏK, BAŞ KOMANDİRLƏRİ OLAN "BÖYÜK MEHDİ"NİN UCA ƏDALƏTİNİ</u>** <u>və</u> **<u>HAQDAN VƏ DOĞRULUQDAN AYRILMAMAĞINI</u> dünyaya göstərmələri çox**

**məqbul olmaqla yanaşı çox lazım və zəruri və cəmiyyət həyatına aid qaydaların gərəyidir...”** (Şualar, səh. 456)

**<u>13) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN YOLUNU, QURAN ƏXLAQINI VƏ QURAN ƏXLAQININ ƏSASLARINI, HƏQİQƏTLƏRİNİ VƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SÜNNƏSİNİ YENİDƏN DİRÇƏLTMƏKLƏ, HAMIYA EŞİTDİRƏRƏK VƏ TƏTBİQ EDƏRƏK:</u>**

Bədiüzzaman bu sözlərində hz. Mehdinin siyasət və səltənət sahəsində tutacağı yolu başa salır, ikinci və üçüncü vəzifələrini yerinə yetirərkən istifadə edəcəyi üsulları izah edir. Bədiüzzamanın burada istifadə etdiyi **“ƏHYA”** sözünün mənası **“YENİDƏN DİRÇƏLTMƏK”** deməkdir. Bədiüzzamanın da ifadə etdiyi kimi hz. Mehdi Axırzamanda Qurandan uzaqlaşmış olan insanların yenidən Quran əxlaqına və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə görə yaşamalarına vəsilə olacaqdır.

**“ELAN”** sözünün mənası isə, **“hamıya eşitdirmək”** deməkdir. Bədiüzzamanın şərhlərinə görə hz. Mehdi Quran həqiqətlərini və Quran əxlaqını hamının görəcəyi və çatacağı şəkildə eşitdirəcəkdir. Kütləvi informasiya vasitələrini və texnologiyanı çox yaxşı istifadə edəcəyi başa düşülən hz. Mehdi islam həqiqətlərini çox müxtəlif və hikmətli üsullardan istifadə etməklə bütün dünyaya aydın şəkildə göstərəcək və elan edəcəkdir.

**“İCRA”** sözünün mənası da, **“TƏTBİQ ETMƏK”** deməkdir. Bədiüzzaman bu sözləriylə də hz. Mehdinin, Quran əxlaqını bütün dünyada hakim edəcəyini və bütün cəmiyyətlərdə yaşanan hala gətirəcəyini ifadə edir.

**-hz. Mehdinin “əhya, elan və icra etmək” xüsusiyyətləri nəyi ifadə edir?**

Bədiüzzamanın burada işlətdiyi **“əhya, elan və icra ilə”** sözləri, yenidən hz. Mehdinin “<u>**idarəçi xüsusiyyətini**</u>” ifadə edir. Bədiüzzaman hz. Mehdinin bütün dünyanın şahid olacağı şəkildə çox geniş əhatəli fəaliyyətlər göstərəcəyini və bunları həyata keçirərkən **“böyük bir səlahiyyət”** və **“rəhbərlik gücü”**nə sahib olacağını ifadə edir.

**<u>14) BAŞ KOMANDİRLƏRİ OLAN “BÖYÜK MEHDİ”NİN UCA ƏDALƏTİNİ VƏ HAQDAN VƏ DOĞRUDAN AYRILMAMAĞINI DÜNYAYA GÖSTƏRMƏLƏRİ:</u>**

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində də bildirildiyi kimi, hz. Mehdinin İslam əxlaqını bütün dünyaya hakim etdiyi vaxt yer üzündə bənzəri olmayan bir ədalət, dinclik və sülh mühitinin yaranacağını ifadə edir. Hz. Mehdinin bu uca ədalətinə və haqdan

və doğruluqdan ayrılmamağına bütün dünya şahid olacaqdır. Bədiüzzaman, hz. Mehdinin dünya səviyyəsində reallaşdıracağı bu vəzifəni "**baş komandir**" sifətiylə yerinə yetirəcəyini ifadə etmişdir. Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin "**<u>bütün dünya müsəlmanlarının liderliyini</u>**" boynuna götürəcəyini yenidən izah edir. Bu mövzuda soruşulacaq bir neçə suala veriləcək cavablar hz. Mehdinin bu xüsusiyyətinin çox aydın bir şəkildə başa düşülməsini təmin edəcəkdir:

**-hz. Mehdinin "baş komandir" sifətinə sahib olması nəyi ifadə edir?**

Bədiüzzaman hz. Mehdinin bu sifətini xatırladaraq hz. Mehdinin bütün dünya müsəlmanları üzərində "**<u>idarəçi</u>**" mövqeyində çıxış edəcəyini yenidən aydın bir şəkildə ifadə edir.

**-hz. Mehdinin bütün dünyaya uca ədalətini və haqdan və doğruluqdan ayrılmamağını göstərməsi necə reallaşacaqdır?**

Uca bir ədalət anlayışının və haqdan ayrılmamağının bütün dünyaya göstərilməsi ancaq "**<u>dünya səviyyəsində bir idarə gücüylə</u>**" mümkün ola bilər. Bütün insanların hz. Mehdinin ədalət anlayışına şahid olmaları hz. Mehdinin "**<u>ədalət yaradacaq səlahiyyətlərə sahib bir mövqedə olacağını</u>**" göstərir.

## <u>HZ. İSA YER ÜZÜNƏ İKİNCİ DƏFƏ GƏLDİYİNDƏBÜTÜN MÜSƏLMAN VƏ XRİSTİAN ALƏMİNİN MƏNƏVİ LİDERİ HZ. MEHDİ OLACAQDIR</u>

Hz. İsanın ikinci dəfə yer üzünə gəlişi, yuxarıda izah edildiyi kimi hz. Mehdinin vəzifələrini yerinə yetirdiyi **<u>"ÜÇÜNCÜ MƏRHƏLƏDƏ"</u>** reallaşacaqdır. Bu mərhələdə hz. Mehdi Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi yəni İslam aləminin mənəvi lideri sifətiylə dünya səviyyəsindəki bütün müsəlmanlar arasında İslam Birliyini təmin etmiş olacaq və lider mövqeyində çıxış edəcəkdir. Eyni mərhələdə iki fərqli şəxsin Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni müsəlmanların mənəvi lideri xüsusiyyətinə sahib olmasından söhbət gedə bilməz. Necə ki, hz. İsa gələndə, hz. Mehdinin bu vəziyyətində bir dəyişiklik olmayacaqdır, hz. İsa da hz. Mehdiyə kömək edəcəkdir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bu vəziyyət aydın şəkildə ifadə edilmiş; hz. Mehdi və hz. İsanın bir yerdə namaz qılacaqları və hz. İsanın "**imamlıq sənə verilmişdir**" deyərək hz. Mehdini imamlığa şəxsən özünün qoyacağı xəbər verilmişdir. Bu hədislərdən bəziləri belədir:

**İmamları saleh bir insan olan Mehdi olduğu halda Beytül Məqdisə sığınarlar. Oradakı imamları özlərinə səhər namazını qıldırmaq üçün qabağa keçdiyi bir vaxtda qəflətən Məryəm oğlu İsanın səhər vaxtında endiyini görərlər. Mehdi hz. İsanı qabağa keçirmək üçün arxaya çəkilər. HZ. İSA ONUN ÇİYİNLƏRİNƏ ƏLİNİ QOYAR VƏ ONA BELƏ DEYƏR: "KEÇ QABAĞA NAMAZ QILDIR. ÇÜNKİ SƏNİN ÜÇÜN İQAMƏ** (namaza başlama işarəsi) **GƏTİRİLMİŞDİR.** (Ebu Rafi'den rivayet edilmiştir; İmam Şarani, Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri, Bedir Yayınevi, səh. 495-496)

**...Nəhayət müsəlmanların əmiri** (hz. Mehdi) **ona Məryəm oğlu İsaya: Gəl bizə namaz qıldır, deyər. Buna görə də İsa: Xeyr, Allahın bu ümmətə bir neməti olaraq sizin bir qisminiz digər bir qismin üstündə əmirlərsiniz deyər.** (Sahih-i Müslim, cild. 1, səh. 209)

Peyğəmbərimiz (s.ə.v)-in bu hədisləri olduqca aydın başa düşüləndir. Aydındır ki, Allahın təqdiri gərəyi hz. İsa hz. Mehdi üzərində bir üstünlük sahibidir və ona tabedir. Bu vəziyyət Peyğəmbərimiz (s.ə.v)-in hədislərində əhəmiyyətlə bəyan edilmişdir. Bədiüzzaman da əsərlərində bu mövzunu izah etmiş; yer üzünə ikinci dəfə gəlişində hz. İsanın hz. Mehdiyə tabe olacağını ifadə etmişdir:

**...Hətta "həzrəti İsa əleyhissalam gəlib, həzrəti Mehdiyə namazda tabe olar"-deyə rəvayəti bu birləşməyə və Quran həqiqətlərinə tabe olunmasına və onun hakimiyyətinə işarə edər.** (Şualar, səh. 587)

Bədiüzzaman bu sözlərində Peyğəmbərimiz (s.ə.v)-in bəhsi keçən hədisində izah edilənlərin şərhini vermişdir. Hz. İsanın namazdakı imamlığı hz. Mehdiyə verməsinin **"Hz. Mehdinin üçüncü vəzifəsi gərəyi xristian dünyasıyla edəcəyi əməkdaşlığın Xristian dünyasının müsəlmanlığa qayıtması və Qurana tabe olmasıyla nəticələnəcəyini"** izah etmişdir.

Bədiüzzamanın etdiyi şərhlərə görə **"bu əməkdaşlıq əsnasında hz. Mehdi İslam aləminin, hz. İsa da müsəlmanlığa qayıtmış olan Xristian aləminin mənəvi lideri olacaqdır. Amma xristianlığın Qurana tabe olmasından ötəri Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi yəni bütün müsəlmanların mənəvi liderliyi xüsusiyyətinə hz. Mehdi sahib olacaqdır. Buna görə də "Hz. Mehdi, bu mərhələdə "həm müsəlman aləminin, həm də müsəlman olmuş xristian dünyasının mənəvi lideri olacaqdır".**

## BƏDİÜZZAMAN ÖZ YAŞADIĞI DÖVRDƏ, HZ. MEHDİNİN ÜÇ VƏZİFƏSİNİN EYNİ ANDA YERİNƏ YETRİLMƏSİNİN MÜMKÜN OLMADIĞINI BİLDİRMİŞDİR

Bədiüzzamanın yuxarıda təhlil edilən sözləri hz. Mehdinin, siyasət və səltənət sahəsində yerinə yetirəcəyi çox böyük və əhəmiyyətli fəaliyyətlərinin olduğunu dəlilləriylə bərabər isbat edir. Hz. Mehdini, əvvəlki mücəddidlərdən fərqləndirəcək və insanlara tanıdacaq ən əhəmiyyətli əlamətlərdən biri, **"Hz. Mehdinin bu vəzifələrin hamısını eyni anda yerinə yetirməsi"** olacaqdır. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və Bədiüzzamanın əsərlərində bütün bunlar dəlilləriylə bərabər çox təfərrüatlı olaraq təsvir edilir.

Bədiüzzaman əsərlərində hz. Mehdinin üç böyük vəzifəsinin öz yaşadığı dövrdə hələ yerinə yetirilmədiyini və hətta o dövrdə nə bir şəxs, nə də şəxsi mənəvi olaraq bir birlik tərəfindən bu vəzifələrin yerinə yetirilməsinin mümkün olmadığını ifadə etmişdir. Bədiüzzaman bu mövzunu belə izah etmişdir:

**BU ÜÇ VƏZİFƏNİN EYNİ ANDA BİR ŞƏXSDƏ YAXUD BİR CAMAATDA İNDİKİ DÖVRDƏ TAPILMASI VƏ MÜKƏMMƏL ŞƏKİLDƏ OLMASI VƏ BİR-BİRİNƏ MANE OLMAMASI ÇOX UZAQ SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR**, Axırzamanda **Peyğəmbərimiz (s.ə.v)-in nəslinin nurani camaatını təmsil edən Mehdidə və camaatındakı şəxsi mənəvidə ancaq cəmləşə bilər.** (Kastamonu Lahikası, səh. 139)

Bədiüzzaman **"İNDİKİ DÖVRDƏ"** deməklə öz yaşadığı dövrdən danışır. Və öz yaşadığı dövrdə, hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni tək bir şəxsin eyni anda yerinə yetirməsinin və bu üç vəzifənin bir-birinə mane olmamasının mümkün olmadığını deyir. Bədiüzzaman bu qənaətinin nə dərəcədə güclü olduğunu **"ÇOX UZAQ"** və **"SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR"** deməklə, də aydın şəkildə ifadə edir. Bu da, Bədiüzzamanın yaşadığı dövrdə hz. Mehdinin hələ zühur etməmiş olduğunu göstərən əhəmiyyətli bir dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə üç vəzifənin eyni anda yerinə yetirilməsinə şərait olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr sonra zühur edəcək Böyük Mehdinin bu vəzifələri eyni anda yerinə yetirə biləcəyini xəbər verir. (Kastamonu Lahikası, səh. 57).

## BƏDİÜZZAMAN, "DİYANƏT, SƏLTƏNƏT VƏ SİYASƏT SAHƏLƏRİNDƏKİ VƏZİFƏLƏRİ EYNİ ANDA YERİNƏ YETİRƏ BİLMƏDİKLƏRİ ÜÇÜN" ƏVVƏLKİ MÜCƏDDİDLƏRİN AXIRZAMANIN BÖYÜK MEHDİSİ OLMADIQLARINI İFADƏ ETMİŞDİR

Bədiüzzaman sözlərində dəfələrlə nə əvvəlki əsrlərdə gəlib-getmiş mücəddidlərin dövründə, nə də öz yaşadığı dövrdə hz. Mehdinin üç vəzifəsinin eyni anda yerinə yetrilmədiyini və bunu ancaq hz. Mehdinin reallaşdıracağını ifadə etmişdir. Bədiüzzamanın bu mövzunu izah edən sözlərindən biri belədir:

**Hərçənd ki, hər əsrdə hidayət verən, bir cür Mehdi və mücəddid gələr və gəlmişdir. Lakin HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR BAXIMDAN YERİNƏ YETİRMƏSİ SƏBƏBİYLƏ AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINA SAHİB OLMAMIŞLAR.** (Emirdağ Lahikası, səh. 260)

## BƏDIÜZZAMAN TƏLƏBƏLƏRİNİN, HZ. MEHDİNİN TƏKCƏ BİRİNCİ VƏZİFƏSİNİ NƏZƏRƏ ALDIQLARI ÜÇÜN ÖZÜNƏ MEHDİLİK MÖVZUSUNDA HÜSNÜ-ZƏNN BƏSLƏDİKLƏRİNİ, ANCAQ İKİNCİ VƏ ÜÇÜNCÜ VƏZİFƏLƏRİNƏ DİQQƏT YETİRMƏDİKLƏRİ ÜÇÜN "YANILDIQLARINI" XƏBƏR VERİR

Və **ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQDIR.** (Emirdağ Lahikası, səh. 260)

Bədiüzzaman əsərlərində **"hz. Mehdinin bir və ya iki vəzifəsi deyil, tam olaraq ÜÇ VƏZİFƏSİ olduğunu"** bildirir. Bu üç vəzifəni eyni anda yerinə yetirməyən şəxslərin isə Axırzamanın böyük Mehdisi olmayacağını ifadə etmişdir.

Bədiüzzamanın bu mövzudakı ətraflı şərhlərinə baxmayaraq bu əhəmiyyətli həqiqət nəzərə alınmayaraq Bədiüzzamanın Mehdi ola biləcəyi istiqamətində bəzi fikirlər irəli sürülür. Halbuki Bədiüzzaman əsərlərində bu mövzuya şəxsən özü aydınlıq gətirmiş Mehdi olmadığını səhifələr etibarilə dəlilləriylə bərabər izah etmişdir. Bu mövzudakı bütün bu açıq bəyanlarına baxmayaraq Risalə-i Nura və bu əsərin müəllifi kimi özünə Mehdilik mövzusunda hüsnü-zənn bəsləyənlərə isə bu fikirlərinin "qarışdırmadan qaynaqlanan bir səhv olduğunu" demişdir:

**"Risalə-i Nurun camaatını haqlı olaraq şəxsi bir görüş kimi hz. Mehdi olaraq qəbul edirlər. O şəxsi mənəvinin də bir nümayəndəsi, nur tələbələrinin həmrəyliyindən gələn bir şəxsi mənəvisi və o şəxsi mənəvinin bir cür nümayəndəsi olan BİÇARƏ TƏRCÜMƏÇİSİ ZƏNN ETDİKLƏRİNDƏN BƏZƏN ONA HZ. MEHDİ ADINI VERİRLƏR. Hərçənd BU, BİR QARIŞDIRMA VƏ BİR SƏHVDİR** lakin onlar bundan ötəri məsuliyyət sahibi deyildirlər. **ÇÜNKİ HÜSNÜ-ZƏNN ƏVVƏLDƏN BƏRİ CƏRƏYAN EDİR VƏ BUNA ETİRAZ EDİLMƏZ.** Mən də o qardaşlarımın hüsnü zənlərini bir cür dua və bir xahiş və nur tələbələrinin imanlarının fəzilətinin bir əks olunması olaraq gördüyümdən onlara çox dəyməzdim**...** (Tılsımlar Mecmuası, səh. 201) (Emirdağ Lahikası, səh. 248)

Bədiüzzaman Risalə-i Nurun şəxsi mənəvisinin və bu əsərlərin müəllifi olaraq özünün bəzən hz. Mehdi ola biləcəyinin düşünüldüyünü, ancaq bunun bir qarışdırma və səhv olduğunu ifadə etmişdir. Başqa bir sözündə isə bu fikrə sahib olan kəslərin iman həqiqətlərini izah etmə mövzusu istiqamətində bir dəyərləndirmə etdiklərini ancaq hz. Mehdinin digər iki vəzifəsi olan **"İslam Birliyinin təmin edilməsi, bütün islam dünyasının lideri olması və hz. İsa ilə birlikdə İslam əxlaqının dünyaya hakim olmasının özündə görünmədiyi xüsusunu nəzərə almadıqlarını"** demişdir. Bundan ötəri də **Risalə-i Nura və özünə edilən Mehdilik yaraşdırmasının yalnız bir "zənn"dən ibarət olduğunu ifadə etmişdir**:

**...O ZÜHUR EDƏCƏK ŞƏXSƏ DAİR XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNİ HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ UYĞUNLAŞDIRMAĞA CƏHD GÖSTƏRMİŞLƏR** və Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmək və xilafətiylə tətbiq olan **ÇOX GENİŞ ƏRAZİDƏ HÖKM EDƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAMIŞLAR**. (Tılsımlar Mecmuası, səh. 168)

Bədiüzzaman, bu sözü ilə hz. Mehdiyə aid xəbər və işarələrin Risalə-i Nur camaatıyla uyğunlaşdırılmağa cəhd göstərildiyini ancaq bu bənzətmələrin hz. Mehdi ilə əlaqədar verilən məlumatlara uyğun gəlmədiyini ifadə etmişdir. Bədiüzzaman bu bənzətməni edən kəslərin hz. Mehdinin iki böyük və əhəmiyyətli vəzifəsini nəzərə almadıqları üçün belə səhv bir qənaətə gəldiklərini ifadə edir. İslam Birliyinin təmin edilməsi və hz. Mehdinin bütün müsəlmanların liderliyini boynuna götürməsi xristianlarla əməkdaşlığın təmin edilməsi və hz. İsa ilə birlikdə Quran əxlaqının bütün yer üzünə hakim olması bu vaxta qədər hələ reallaşmamışdır. Bədiüzzaman da daxil olmaqla Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı dövrlərdə gəlib-getmiş mücəddidlərdən heç biri bu böyük vəzifələri yerinə yetirməmişdir. Buna görə də Bədiüzzaman da bu həqiqəti dilə gətirərək Risalə-i Nurun şəxsi mənəvisini Mehdiliklə uyğunlaşdıranların səhv etdiklərini ifadə edir. Necə ki, bir mövzuda bir adama hüsnü-zənn bəslənməsi bu düşüncənin həqiqəti əks etdirdiyini göstərən bir dəlil deyildir. Necə ki, Bədiüzzaman da risalələrində bunu dilə gətirmişdir.

# Bədiüzzaman özünə mehdilik zənni edən nur tələbələrinin səhv etdiklərini necə izah edir?

Bəzi ayələr və hədislər **AXIRZAMANDA ZÜHUR EDƏCƏK ƏN BÖYÜK MÜCƏDDİDİ** işarəli mənada xəbər verirlər. Lakin **O ZÜHUR EDƏCƏK ŞƏXSİN VƏ CƏMİYYƏTİNİN ÜÇ VƏZİFƏSİNDƏN** ən əhəmiyyətlisi olan və görünüşcə ən kiçiyi hesab edilən imanı xilas etmək və iman həqiqətlərini günəş kimi göstərmək vəzifəsini Risalə-i Nur və tələbələrinin şəxsi mənəvisi tam olaraq yerinə yetirdiklərindən; **O ZÜHUR EDƏCƏK ŞƏXSƏ** aid **XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ UYĞUNLAŞDIRMAĞA CƏHD ETMİŞLƏR** və Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmə və xilafəti tətbiq olan **ÇOX GENİŞ ƏRAZİDƏ HÖKM EDƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAMIŞLAR.** (*Tılsımlar Mecmuası, səh. 168)*

Bədiüzzaman, hz. Mehdinin üç böyük vəzifəsi olacağından bəhs etmiş və onun digər mücəddidlərdən bu xüsusiyyətləriylə fərqlənəcəyini xatırlatmışdır:

Bədiüzzaman hz. Mehdidən bəhs edərkən **"AXIRZAMANDA ZÜHUR EDƏCƏK"** ifadəsini işlətmişdir. Əgər hz. Mehdi Bədiüzzamanın dövründə və ya ondan əvvəlki dövrdə zühur etmiş olsaydı Bədiüzzaman **"zühur edəcək"** sözündən deyil "zühur etdi" və ya "zühur etmişdir" kimi sözlərdən istifadə edərdi. Ancaq Bədiüzzaman burada çox aydın bir şəkildə vaxt bildirmiş və hz. Mehdinin **"SONRAKI BİR DÖVRDƏ ZÜHUR EDƏCƏK BİR ŞƏXS"** olduğunu ifadə etmişdir. Və bu ifadəni əsərlərində israrla və dəfələrlə təkrarlamışdır. Bu, hz. Mehdinin zühurunun Bədiüzzamanın öz dövründə ya da əvvəllər reallaşmamış; ancaq Axırzamanda reallaşması gözlənilən bir hadisə olduğunu aydınlaşdırır.

Bədiüzzaman burada **"o zühur edəcək şəxsin və cəmiyyətinin"** ifadəsini işlətmişdir. **"O ZÜHUR EDƏCƏK ŞƏXS"** və **"BU ŞƏXSİN CƏMİYYƏTİ"** iki fərqli anlayışdır. Bədiüzzaman "VƏ" sözündən istifadə edərək bu ikisinin müxtəlif mənaları ifadə etdiyini aydın şəkildə ifadə etmişdir. Əgər hz. Mehdi bir şəxsi mənəvi olsaydı ya da bu cəmiyyət Mehdilik vəzifəsini boynuna götürmüş olsaydı Bədiüzzaman burada **"o gələcək cəmiyyət"** ya da "Mehdilik vəzifəsini boynuna götürəcək cəmiyyət" kimi bu mövzunu dəqiqləşdirəcək aydın ifadələrdən istifadə edərdi. Ancaq Bədiüzzaman heç bir etiraza məhəl qoymayacaq aydın bir şəkildə "o gələcək şəxs və cəmiyyəti" sözlərindən istifadə etmiş və hz. Mehdinin özünü təqib edənlərdən ibarət olan bir birliyin başında olan bir şəxs olduğunu ifadə etmişdir. Bədiüzzamanın qeyd etdiyi bu həqiqət bir neçə sual soruşulduğu təqdirdə aydın şəkildə özünü göstərər:

**1 - Bədiüzzaman Axırzamanda zühur edəcək bu şəxsin tək başına olduğunumu qeyd etmişdir?**

**Xeyr, Bədiüzzaman hz. Mehdi ilə yanaşı bir cəmiyyətinin də olacağını qeyd etmişdir.**

**2 - Bədiüzzaman bəhs etdiyi bu cəmiyyətin başında hər hansı bir şəxsin olacağını ifadə etmişdirmi?**

**Bəli, Bədiüzzaman bu cəmiyyətin başında hz. Mehdinin şəxsən özünün çıxış edəcəyini xəbər vermişdir.**

Bədiüzzaman burada bir cəmiyyətin mövcudluğundan bəhs etmişdir. Bu cəmiyyət Bədiüzzamanın "**o zühur edəcək şəxs**" deməklə müjdələdiyi hz. Mehdinin köməkçilərinin və dəstəkçilərinin meydana gətirdiyi bir cəmiyyətdir. Bədiüzzaman əsərlərinin bir çox yerində Peyğəmbərimiz (s.ə.v)-in hədisləri istiqamətində hz. Mehdinin bir camaatı olacağını və camaatın hz. Mehdinin göstərəcəyi fəaliyyətlərdə onun köməkçiləri olacağını ifadə etmişdir. Ancaq hz. Mehdinin bu fəaliyyətin rəhbəri və lideri olmaqla şəxsən bu birliyin başçısı olacağını da ifadə etmişdir. Bədiüzzaman, hz. Mehdiyə tabe olan və onun təbliğini təqib edən bu kütlə və hərəkəti "hz. Mehdinin şəxsi mənəvisi" olaraq adlandırmışdır. Ancaq Bədiüzzamanın da ifadə etdiyi kimi bu çox aydın bir həqiqətdir ki, başçıları olan bir şəxsləri bir liderləri olmadan bir şəxsi mənəvidən bəhs etmək mümkün deyildir. Hz. Mehdi də bu cəmiyyətinin başında onlara liderlik etməklə şəxsən özü iştirak edəcəkdir. Buna görə də Bədiüzzamanın bu şərhlərinə görə **"HZ. MEHDİ ÖZÜNÜ TƏQİB EDƏN BİR CAMAATI OLAN VƏ ONLARA LİDERLİK EDƏN TƏK BİR ŞƏXSDİR".**

**XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ** deməklə Bədiüzzaman geniş olaraq yayılan səhv bir şərhə işarə edir. Bədiüzzaman hz. Mehdiyə aid xəbər və işarələrin Risalə-i Nur camaatı ilə eyniləşdirilməsinə cəhd edildiyini, lakin bu yaraşdırmanın hz. Mehdi ilə əlaqədar verilən məlumatlara uyğun gəlmədiyini ifadə etmişdir. Bədiüzzaman bu yaraşdırmanı aparan kəslərin hz. Mehdinin iki böyük və əhəmiyyətli vəzifəsini nəzərə almadıqları üçün belə səhv bir qənaətə gəldiklərini ifadə edir.

İslam birliyinin təmin edilməsi və hz. Mehdinin bütün müsəlmanların liderliyini boynuna götürməsi xristianlarla əməkdaşlığın təmin edilməsi və Quran əxlaqının bütün yer üzünə hakim olması bu vaxta qədər hələ reallaşmamışdır. Bədiüzzaman da daxil olmaqla, Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı dövrlərdə gəlib-getmiş mücəddidlərdən heç biri bu böyük vəzifələri yerinə yetirməmişdir. Buna görə də Bədiüzzaman da bu həqiqəti dilə gətirərək Risalə-i Nurun şəxsi mənəvisini Mehdiliklə əlaqələndirənlərin yanıldıqlarını ifadə edir.

Bədiüzzaman risalələrin müəllifi olması səbəbiylə bəzi insanlar tərəfindən özünün də hz. Mehdi olaraq xarakterizə edildiyini ifadə etmişdir. Ancaq yuxarıda da izah edildiyi kimi Bədiüzzaman, hz. Mehdinin yerinə yetirəcəyi iki böyük vəzifənin nəzərə alınmadığı üçün belə bir səhv şərhin aparıldığını ifadə etmişdir. Buna görə də Mehdilik mövzusundakı bu düşüncənin əsassızlığını yenidən ifadə etmişdir.

Bədiüzzaman bu düşüncənin səhv olmasını istifadə etdiyi **"HƏTTA"** sözüylə yenidən bəyan edir. Bədiüzzaman **"hətta"** sözünü burada **"bundan daha da qəribə və daha da əcaib olanı"** mənasında işlətmişdir. Risalə-i Nurun Mehdi olduğunun zənn edildiyini, bundan daha da qəribə olaraq özünə istiqamətli də belə bir iddianın aparıldığını ifadə etmişdir. Bədiüzzaman bu ifadəsiylə, irəli sürülən bu Mehdilik iddiasının səhv olduğunu yenidən bəyan edir.

Bədiüzzaman bu sözündə həmçinin özünə edilən Mehdilik iddiasının **"davamlı olaraq hökm sürən bir iddia olmadığını"** istifadə etdiyi **"BƏZƏN"** sözüylə də ifadə etmişdir.

Bədiüzzaman hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifədən bəhs etdiyi kimi sözlərində hz. Mehdinin fərqləndirici bir xüsusiyyəti olaraq **"ÇOX GENİŞ SAHƏDƏ HÖKM ETMƏSİ"**nə də diqqət çəkmişdir. Hz. Mehdinin bu xüsusiyyəti çox əhəmiyyətlidir. Hz. Mehdi vəzifələrini yalnız müəyyən bir ərazidə yerinə yetirməyəcək, onun təsir sahəsi çox geniş bir ərazidə, yəni dünya səviyyəsində olacaqdır. Bədiüzzaman "dar dairə" olaraq ifadə etdiyi "kiçik diametrli" tətbiqlərin müsəlmanları çaşdırmamasının lazım olduğunu xəbər verir. Hz. Mehdinin ikinci və üçüncü vəzifələrini geniş bir ərazidə reallaşdıracağını xatırladaraq Risalə-i Nurun şəxsi mənəvisinə edilən Mehdilik yaraşdırmasının səhvini dəlilləriylə bərabər izah edir.

Bədiüzzamanın hz. Mehdinin yerinə yetirəcəyini ifadə etdiyi vəzifələr mövzusunda **"ÇOX GENİŞ DİAMETRLİ BİR HÖKM ETMƏK",** yəni **"DÜNYA SƏVİYYƏSİNDƏ"** belə bir nəticənin əldə olunması isə bu günə qədər reallaşmamışdır. Bu da hz. Mehdinin əvvəlki dövrdə zühur etmiş bir şəxs və ya şəxsi mənəvi olmadığını aydın şəkildə bəyan edir. Bəhsi keçən üç vəzifənin dünya səviyyəsində yerinə yetirilməsi, Allahın izni ilə hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən olacaq və onu bütün insanlara tanıdacaqdır.

Bədiüzzaman, hz. Mehdinin dünya səviyyəsində reallaşacaq olan ikinci (İslam Birliyini yaratmaq) və üçüncü (Quran əxlaqını bütün dünyaya yaymaq) vəzifələrinin, onun fərqləndirici və tanıdıcı xüsusiyyətləri olduğunu xatırlatmışdır. Çünki bu vəzifələri dünya səviyyəsində yerinə yetirəcək olan tək şəxs hz. Mehdidir. Buna görə də əgər bu vəzifələr bu xüsusiyyətləriylə birlikdə yerinə yetirilməsə belə olduğu təqdirdə Mehdilik mövzusunda hər hansı bir iddia aparmaqdan da söhbət gedə bilməz.

Çünki belə bir iddia Peyğəmbərimiz (s.ə.v)-in hədisləri ilə, İslam alimlərinin və Bədiüzzamanın bu istiqamətdə etdiyi izahların hamısı ilə ziddiyət təşkil edəcəkdir.

Bədiüzzaman da bu sözləriylə hz. Mehdi mövzusunda bir fikir yürütmək üçün dünya səviyyəsində reallaşması lazım olan bu iki böyük vəzifənin yerinə yetirilib yetirilmədiyinin nəzərə alınmasının vacib olduğunu xatırladır. Bədiüzzaman bu dəlillərin mövcud olmadığı bir vəziyyətdə ediləcək bir Mehdilik bənzətməsinin səhv bir çıxarış olacağını ifadə edir. Bədiüzzaman "nəzərə almayıblar" deməklə özünü və ya Risalə-i Nuru hz. Mehdi zənn edənlərin bu əhəmiyyətli məqama diqqət yetirmədiklərini və buna görə də səhv etdiklərini ifadə etmişdir.

**"Risalə-i Nurun camaatını haqlı olaraq şəxsi bir görüş kimi hz. Mehdi olaraq qəbul edirlər. O şəxsi mənəvinin də bir nümayəndəsi, nur tələbələrinin həmrəyliyindən gələn bir şəxsi mənəvisi və o şəxsi mənəvinin bir cür nümayəndəsi olan BİÇARƏ TƏRCÜMƏÇİSİ ZƏNN ETDİKLƏRİNDƏN BƏZƏN ONA HZ. MEHDİ ADINI VERİRLƏR. Hərçənd BU, BİR QARIŞDIRMA VƏ BİR SƏHVDİR...** *(Tılsımlar Mecmuası, səh. 201)*

Bədiüzzaman, Risalə-i Nurun və bu əsərin müəllifi olaraq özünün hz. Mehdi ola biləcəyinin düşünüldüyünü ancaq bunun bir səhv və qarışdırma olduğunu ifadə etmişdir:

Bədiüzzaman burada "haqlı olaraq" deyimini Risalə-i Nur camaatının Mehdi olaraq qəbul edilməsini haqlı gördüyünü bəyan etmək üçün deyil belə bir qəbulun asanlıqla qəbul edilməsinin və üzrlü hesab olunması lazım olan bir səhv olduğunu bəyan etmək üçün istifadə etmişdir. Mövzunun gəliş və gedişindən bu məna asanlıqla aydın olur. Necə ki, Bədiüzzaman əvvəlki sətirlərdə izah edilən sözlərində də bu səhvin hz. Mehdinin dünya səviyyəsində yerinə yetirəcəyi iki böyük vəzifəsinin nəzərə alınmamasından qaynaqlandığını ifadə edərək bunun "haqlı bir görüş olmadığını" izah etmişdir.

Bədiüzzaman risalələrin müəllifi olaraq Risalə-i Nur kimi özünün də hz. Mehdi olaraq dəyərləndirildiyini ancaq bunun "bir zənn" olduğunu ifadə etmişdir. "Zənn etmək" həqiqət deyil bir səhv və aldanmaqdan söhbət getdiyini ifadə edən bir sözdür. Bədiüzzaman, tələbələrinin yalnız hz. Mehdinin əhəmiyyətli bir vəzifəsi olan iman həqiqətlərini izah etmək mövzusu istiqamətində bir dəyərləndirmə etdiklərini, ancaq hz. Mehdinin digər iki vəzifəsi olan "İslam Birliyinin təmin edilməsi, bütün islam dünyasının lideri olması və İslam əxlaqının dünyaya hakim edilməsi"nin özündə olmadığı xüsusunu nəzərə almadıqlarını demişdir. Buna görə də Risalə-i Nura və özünə edilən Mehdilik yaraşdırmasının yalnız bir "zənn"dən ibarət olduğunu ifadə etmişdir.

Bundan əlavə Bədiüzzaman "zənn edirlər" deməklə burada yenidən özünü bu fikirdə olan insanların arasına daxil etmədiyini özünün onlarla eyni fikirdə olmadığını ifadə edir.

Bədiüzzaman, özünün və ya Risalə-i Nurun Mehdi olaraq qəbul edilməsinin bir **“QARIŞDIRMA”** olduğunu ifadə etmişdir. **“İltibas”** sözünün mənası “bir-birinə oxşayan şeyləri çaşaraq bir-birinə qarışdırmaq” deməkdir. *(Yeni Lugat, səh. 267)* Buna görə də burada bir-biri ilə qarışdırılan ancaq əslində bir-birindən fərqli olan iki müxtəlif anlayış vardır. Bədiüzzaman Risalə-i Nur ya da özünün hz. Mehdi ola biləcəyinin “zənn edildiyini”; lakin həqiqətdə bunun “bir səhv və qarışdırma”dan qaynaqlandığını ifadə edir.

Bədiüzzaman bu qarışıqlığın Risalə-i Nurun, hz. Mehdinin üç əsas vəzifəsindən biri olan “imanı xilas etmək” vəzifəsini boynuna götürmüş olmasından qaynaqlandığını izah etmişdir. Bədiüzzamanın izah etdiyi kimi, tarixən göndərilmiş olan bütün mücəddidlər hz. Mehdinin vəzifələrindən birini yerinə yetirmişlər. Ancaq Bədiüzzaman da daxil olmaqla “üç vəzifə heç bir mücəddid tərəfindən eyni anda yerinə yetirilməmişdir”. Buna görə də tarixən xeyli adama qarşı Mehdilik mövzusunda belə bənzətmələr aparılmışdır.

Ancaq Bədiüzzaman, “hz. Mehdinin hamısını eyni anda və dünya səviyyəsində reallaşdıracağı vəzifələrini” izah edərək bu Mehdilik iddialarının heç birinin doğru olmadığını və hz. Mehdinin gələcəkdə zühur edəcək bir şəxs olduğunu izah etmişdir.

Risalə-i Nura və Bədiüzzamana qarşı da edilən bu bənzətmədə də eyni vəziyyət hakimdir. Bədiüzzaman hz. Mehdi ilə əlaqədar Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki və islam alimlərinin şərhlərindəki izahlar və xüsusiyyətlərinə aid verilən məlumatlar nəzərə alınmadığı üçün “bir çaşma və qarışdırma” mövcud olduğunu xəbər verir.

Bədiüzzaman, özünün və ya Risalə-i Nurun Mehdi olaraq qəbul edilməsinin həmçinin bir **“SƏHV”** olduğunu demişdir. **“SƏHİV”**in mənası isə **“XƏTA, SƏHV, YANILMA”** deməkdir. *(yeni lugat, səh. 617)* Bədiüzzaman, özünə və Risalə-i Nura hz. Mehdi adının verilməsinin bir “qarışdırma” olacağını ifadə etməklə kifayətlənmir, həmçinin cümləsinin davamında da bunun bir **“səhv”** olacağını bəyan edir. Bu olduqca aydın bir ifadədir. Əgər Bədiüzzaman özünə və Risalə-i Nurun şəxsi mənəvisinə qarşı edilən Mehdilik iddialarında hər hansı bir doğruluq payı görsəydi, şübhəsiz ki, bunu bir **“səhv”** olaraq dəyərləndirməzdi. Aydın şəkildə bu iddiaların doğru olduğunu ifadə edən sözlərdən istifadə edərdi. Bunun bir səhv olduğunu ifadə etmiş olması Bədiüzzamanın bu mövzudakı qənaətini çox aydın və heç bir etiraza yol verməyəcək şəkildə bəyan edir. Bədiüzzaman Risalə-i Nurun ya da özünün hz. Mehdi ola biləcəyi fikrini qəbul etmir.

**<u>BƏZİ NUR TƏLƏBƏLƏRİNİN BƏDİÜZZAMANIN MEHDİ OLDUĞUNU</u>**

**<u>ZƏNN ETMƏLƏRİNİ USTAD BİR QARIŞDIRMA VƏ BİR SƏHV OLARAQ XARAKTERİZƏ EDİR</u>**

Üçüncü vəzifəsi: ...**O ŞƏXS BÜTÜN İMAN EDƏNLƏRİN MƏNƏVİ KÖMƏYİ İLƏ** VƏ **İSLAM BİRLİYİNİN KÖMƏKLƏŞMƏSİ İLƏ** və **BÜTÜN ALİMLƏRİN VƏ VƏLİLƏRİN** və xüsusilə **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN HƏR ƏSRDƏ ÇOX SAYDA OLAN MİLYONLAR FƏDAKAR PEYĞƏMBƏR NƏSLİNDƏN GƏLƏN FƏDAKAR KƏSLƏRİN İŞTİRAKI İLƏ O BÖYÜK VƏZİFƏNİ YERİNƏ YETİRMƏYƏ ÇALIŞAR. RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNİ HAQLI OLARAQ ŞƏXSİ BİR GÖRÜŞ KİMİ HZ. MEHDİ OLARAQ QƏBUL EDİRLƏR.** O şəxsi mənəvinin də bir nümayəndəsi nur tələbələrinin həmrəyliyindən gələn bir şəxsi mənəvisi və o şəxsi mənəvinin bir cür nümayəndəsi olan **BİÇARƏ TƏRCÜMƏÇİSİ ZƏNN ETDİKLƏRİNDƏN BƏZƏN ONA HZ. MEHDİ ADINI VERİRLƏR.** Hərçənd bu**, BİR QARIŞDIRMA VƏ BİR SƏHVDİR...** (Emirdağ Lahikası, 266)

Çünki hüsnü-zənn əvvəldən bəri hökm sürür və buna etiraz edilməz. Mən də o qardaşlarımın hüsnü zənnlərini bir cür dua və bir xahiş və nur tələbələrinin imanlarının fəzilətinin bir əks olunması olaraq gördüyümdən onlara çox dəyməzdim. Hətta əvvəlki övliyaların bir qismi kəraməti məlum olmayan Risalə-i Nurun eyni o Axırzamanın böyük hidayət vericisi olduğu deyə təcrübələri bu təhqiqat ilə şərhi başa düşülür. Demək ki, iki məqamda bir qarışdırma vardır və onları şərh etmək lazımdır:

Birincisi: Axırıncı iki vəzifə hərçənd ki, həqiqət məqamında birinci vəzifə dərəcəsində deyildirlər lakin Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi xilafət-i Məhəmmədiyə (s.ə.v) və İttihad-ı İslam, əvamda və əhli siyasətdə, xüsusilə bu əsrin əfkarında o birinci vəzifədən min dərəcə böyük görünür. Hərçənd hər əsrdə hidayət verən Mehdi bənzəri və mücəddid gəlmişdir və gəlir, lakin hər biri üç vəzifədən birini bir cəhətdə etməsi etibarilə, Axırzamanın Böyük Mehdisi ünvanına sahib olmamışlar.

İkincisi: **Axırzamanın o böyük şəxsi ali-beytdən olacaqdır**. Hərçənd mənəvi cəhətdən mən həzrəti Əli (r.ə)-in bir vələdi-mənəvisi hökmündəyəm. Ondan həqiqət dərsi aldım. Ali-Məhəmməd (s.ə.v) bir mənada həqiqi nur tələbələrinə şamil olmasından, mən də Ali-beytdən sayıla bilərəm. Lakin Nurun peşəsində heç bir cəhətdə mənlik, şəxsiyyət, şəxsi orqanları arzu etmək, şan və şərəf qazanmaq yoxdur. Nurda ixlası pozmamaq üçün, ührəvi məqamat belə mənə verilsə buraxmağa özümü məcbur bilirəm. *(Emirdağ Lahikası, 248)*

**"Mən özümü seyid bilmirəm. İndiki dövrdə nəsillər bilinmir. Halbuki Axırzamanın o böyük şəxsi Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olacaqdır**. *(Emirdağ Lahikası, 249).* Bəzi ayələr və hədislər **AXIRZAMANDA ZÜHUR EDƏCƏK ƏN BÖYÜK MÜCƏDDİD BARƏSİNDƏ** işarəli mənada xəbər verirlər. Lakin **O ZÜHUR EDƏCƏK ŞƏXSİN VƏ CƏMİYYƏTİNİN ÜÇ VƏZİFƏSİNDƏN**

ən əhəmiyyətlisi olan və görünüşcə ən kiçiyi kimi görünən imanı xilas etmək və iman həqiqətlərini günəş kimi göstərmək vəzifəsini Risalə-i Nur və tələbələrinin şəxsi mənəvisi tam yerinə yetirdiklərindən; **O ZÜHUR EDƏCƏK ŞƏXSƏ** aid **XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ UYĞUNLAŞDIRMAĞA CƏHD GÖSTƏRMİŞLƏR** və Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmə və xilafəti tətbiq olan **ÇOX GENİŞ ƏRAZİDƏ HÖKM EDƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAYIBLAR.** Onların qənaətləri onların **Risalə-i Nurdan istifadə etmə baxımından faydalıdır zərəsizdir**; Lakin Nurun peşəsindəki ixlasa və heç bir şeyə vasitə olmamasına və dünyəvi və mənəvi vəzifə axtarmamasına zərər verdiyi kimi, nurların gözətçiləri hər tayfanın xüsusilə də siyasi tayfanın tənqidinə və hücumuna vəsilə ola bilər. *(Tılsımlar Mecmuası, 168)*

**BƏDİÜZZAMANIN YUXARIDAKI İZAHLARINA GÖRƏ;**

**Nur Tələbələri hansı səbəbə görə Bədiüzzamanın Mehdi olduğunu zənn edirlər?**

- Hz. Mehdinin üç böyük vəzifəsindən birincisi olan imanı xilas etmək mövzusunu Risalə-i Nurda gördüklərinə görə

- Hz. Mehdinin ikinci və üçüncü əhəmiyyətli vəzifələri olan, İslam Birliyinin təmin edilməsi və hz. Mehdinin bütün müsəlmanların liderliyini boynuna götürməsi ilə xristianlarla əməkdaşlığın təmin edilməsi və Quran əxlaqının bütün yer üzünə hakim olması vəzifələrinin iman vəzifəsinə görə ikinci və üçüncü dərəcədə görüb dəyərləndirmədiklərindən ötəri.

**Bədiüzzamana Mehdilik mövzusunda hüsnü-zənn bəslənməsi yeni bir mövzudur və niyə davam edir?**

- Səid Nursi özünə həddindən çox edilən bu hüsnü zənnin əvvəldən bəri davam etdiyini və buna etiraz edilmədiyini deyir. Bu mövzuya etiraz edilmədiyindən və Bədiüzzamanın da tələbələrinin şövqünü yox etməmək üçün onlara elə də çox bir şey deməməsindən ötəri bu zənn davam edir.

Çünki **hüsnü-zənn əvvəldən bəri cərəyan edir və buna etiraz edilməz**. Mən də o **qardaşlarımın hüsnü-zənnlərini bir cür dua və bir xahiş** və **nur tələbələrinin imanlarının**

**fəzilətinin bir əks olunması olaraq** gördüyümdən onlara **çox dəyməzdim**... *(Emirdağ Lahikası, 248)*

**Bədiüzzaman tələbələrinin bu hüsnü zənnlərinə niyə müdaxilə etməmişdir?**

- Bunu bir dua və xahiş olaraq hesab etdiyini,

- Tələbələrinin Risalə-i Nurdan istifadə etmələri baxımından bu zənni faydalı görüb, zərərli görmədiyindən ötəri.

**Bədiüzzaman özünə qarşı edilən mehdilik hüsnü zənnini necə qiymətləndirir?**

- Bu fikrin bir **QARIŞDIRMA** və bir **SƏHV** olduğu şəklində qiymətləndirir.

**İLTİBAS:** Bir-birinə bənzəyən şeyləri səhv salıb, bir-birinə qarışdırmaqdır. Səhv. Qarışıqlıq **SƏHV**: Xəta, səhv, yanılma.

**Bədiüzzaman bu hüsnü-zənnin səhv olduğunu necə izah edir?**

- Axırzaman Mehdisinin üç böyük vəzifəsinin olduğunu özü də daxil olmaqla, indiyə qədər gəlib-getmiş mücəddidlərin bu 3 vəzifədən yalnız birini müəyyən qədər yerinə yetirdiklərini buna görə də bu üç vəzifəni yerinə yetirməmiş olanın Mehdi ola bilməyəcəyini ifadə etmişdir.

- Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olacağının xəbər verilmiş olmasını amma özünü nəslən seyid bilmədiyini izah etmişdir. *(Emirdağ Lahikası, 249)*

**MƏN ÖZÜMÜ SEYİD** (Peyğəmbərimiz (s.ə.v)-in nəslindən) **HESAB ETMİRƏM.** İndiki dövrdə nəsillər bilinmir. Halbuki **AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN OLACAQDIR.** *(Emirdağ Lahikası, səh. 249)*

Hz. Mehdinin hədislərdə bildirilən ən əhəmiyyətli xüsusiyyətlərindən biri **"seyid",** yəni Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmasıdır:

*Qiyamətin baş verməsi üçün vaxtdan tək bir gündən başqa vaxt qalmamış da olsa Allah **MƏNİM NƏSLİMDƏN BİR ŞƏXSİ** (hz. Mehdini) göndərəcəkdir. (Sünen-i Ebu Davud, 5/92)*

Bədiüzzaman da bu sözündə özünün Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmadığını hz. Mehdinin isə bu mübarək nəsildən olacağını ifadə etmişdir:

Bədiüzzaman seyid deyil və seyid olmamasının özünün Mehdi olmayacağının dəlillərindən biri olduğunu ifadə edir. Şübhəsiz ki, bir adamdan bir sual soruşmağın səbəbi əlaqədar mövzunun doğrusunu öyrənməkdir. Bədiüzzaman Səid Nursiyə də Mehdi olub olmadığının soruşulmasının səbəbi həqiqətləri öyrənməkdir. Bu sual qarşısında **"xeyr, mən Mehdi deyiləm"** deyirsə və bunun onlarla dəlilini irəli sürürsə buna inanmaq lazımdır. Çünki Bədiüzzaman çox aydın bir şəkildə bu mövzuya cavab vermiş və **"mən seyid deyiləm"** demişdir.

Əgər Bədiüzzaman seyiddirsə, bunu gizlətməsi üçün heç bir səbəb yoxdur. Çünki seyid olmaq gizlənməsi lazım olan bir xüsusiyyət deyildir. Əksinə Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmaq müsəlmanlar üçün böyük bir şərəfdir. Buna görə də Bədiüzzaman seyid olsaydı bunu heç bir şəkildə gizlətməz və aydın şəkildə ifadə edərdi. Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olduğunu deməkdən böyük bir qürur duyardı. Özündən belə bir sual soruşduqda "bəli seyidəm, amma Mehdi deyiləm" deyərdi. Çünki Bədiüzzaman şəxsən öz əsərlərində Peyğəmbərimiz (s.ə.v)-in hədisini xatırladaraq **"seyid olan bir adamın seyidliyini gizlətməsinin Quran əxlaqına uyğun olmadığını"** ifadə etmişdir .

***Seyid olmayan bir insanın seyidəm və seyid olan insanın da seyid deyiləm deməsi hər ikisi də günah işləmək və üsyan etmək kimi haramdır... Hədis və Quranda şişirtmək və ya gizlətmək qadağan edilmişdir.*** (Muhakemat, səh. 52)

Bədiüzzamanın bu sözü çox aydındır. Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirildiyi kimi İslam əxlaqına görə seyid olan bir adam heç bir səbəblə seyidliyini gizlədə bilməz. Seyid olmayan bir adam da mən seyidəm deyə bilməz. Belə olduqda Bədiüzzaman kimi dəyərli və üstün əxlaqlı bir şəxsin seyidliyini gizlətməsini düşünmək çox xoşagəlməz bir fikirdir. Bundan əlavə hər seyid olan adamın mütləq Mehdi olmasından da söhbət gedə bilməz. Dünyada milyonlarla sayda seyid vardır. Bir adamın seyid olması Mehdi olmasını tələb etmədiyi üçün hər insan bu həqiqəti asanlıqla dilə gətirə bilər. Həmçinin Bədiüzzaman "mənim bu mövzudakı tək çatışmayan cəhətim seyid olmamağımdır, əgər seyid olsam Mehdi olardım" da deməmişdir. Əksinə Bədiüzzaman hz. Mehdinin bütün xüsusiyyətlərini, yerinə yetirəcəyi bənzərsiz fəaliyyətləri uzun-uzadı izah etmiş və bunların heç birinin öz yaşadığı dövrdə hələ də reallaşmadığını ifadə etmişdir.

Bədiüzzaman **"ALİ-BEYTDƏN OLACAQDIR"** deməklə hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn seyid bir insan olacağını ifadə etmişdir. Bədiüzzaman əsərlərinin müxtəlif hissələrində hz. Mehdinin bu xüsusiyyətinə diqqət çəkərək hz. Mehdinin mənəvi bir varlıq olmadığını müəyyən bir nəsildən gələcək olan **"BİR ŞƏXS"** olduğunu bəyan etmişdir. Peyğəmbərimiz (s.ə.v)-in də hz. Mehdinin bu xüsusiyyətini xəbər verən çoxlu hədisi vardır.

Əlbəttə ki, bir şəxsi mənəvinin Peyğəmbər nəslindən gəlməsindən söhbət gedə bilməz. Həmçinin belə bir düşüncə həm Peyğəmbərimiz (s.ə.v)-in hədisləri ilə, həm də Bədiüzzamanın sözləriylə çox aydın bir şəkildə ziddiyyət təşkil edir. Bədiüzzamanın da ifadə etdiyi kimi hz. Mehdi **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN GƏLƏN BİR ŞƏXS"** olacaqdır.

Hərçənd **HƏR ƏSRDƏ HİDAYƏT VERƏN BİR CÜR MEHDİ VƏ MÜCƏDDİD GƏLƏR VƏ GƏLMİŞDİR. LAKİN HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ MÜƏYYƏN BAXIMDAN YERİNƏ YETİRMƏSİ SƏBƏBİYLƏ AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINA SAHİB OLMAMIŞLAR**. *(Emirdağ Lahikası, səh. 260)*

Bədiüzzaman bu sözündə Quran əxlaqını dünya üzərində hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini ancaq bunlardan heç birinin Axırzamanda hz. Mehdinin yerinə yetirəcəyi üç əhəmiyyətli vəzifəsini eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir:

Bədiüzzaman bu sözüylə bir neçə əhəmiyyətli mövzuya aydınlıq gətirmişdir. Bədiüzzaman əvvəlcə hz. Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq hər əsrin əvvəlində bir mücəddid göndəriləcəyini xəbər vermişdir. Bədiüzzaman risalələrdə hz. Mehdinin də hicri 14-cü əsrin əvvəlində zühur edəcəyini və 14-cü və 15-ci əsrlər arasında yaşayan bir mücəddid olacağını ifadə etmişdir.

Bədiüzzaman bu sözüylə həmçinin əvvəlki dövrlərdə göndərilmiş olan mücəddidlərlə hz. Mehdi arasındakı fərqi izah etmiş və hz. Mehdinin hansı xüsusiyyətiylə bu mücəddidlərdən fərqlənəcəyini xəbər vermişdir. Bədiüzzaman əsərlərində hz. Mehdidən əvvəl gəlib-getmiş mücəddidlərin onun üç vəzifəsindən birini yerinə yetirdiklərini və bu baxımdan "Mehdi bənzəri və mücəddid xüsusiyyətinə sahib olduqlarını" demişdir. Ancaq Bədiüzzaman yuxarıda bəhs etdiyi üç vəzifənin üçünü də eyni anda yerinə yetirəcək olan adamın yalnız **"BÖYÜK MEHDİ"** olacağını və bu xüsusiyyətiylə digər mücəddidlərdən fərqlənəcəyini ifadə etmişdir. Bədiüzzamanın istifadə etdiyi **"MEHDİ BƏNZƏRİ"** ifadəsi də bu vəziyyəti izah edir. Bədiüzzaman keçmişdə gəlib-getmiş və hz. Mehdinin üç böyük vəzifəsindən təkcə birini yerinə yetirən kəslərin həqiqətdə Axırzamanın gözlənilən Mehdisi olmadıqlarını bu kəsləri "bir cür Mehdi" olaraq xarakterizə etməklə ifadə etmişdir.

Bədiüzzaman **"HƏR BİRİ"** deməklə hz. Mehdidən əvvəl gəlib-getmiş mücəddidlərin də hz. Mehdi kimi həqiqi şəxsiyyətlər olduqlarına şəxsi mənəvi olmadıqlarına diqqət çəkir. Bu şərhdə bəhsi keçən əvvəlki əsrlərdə göndərilən mücəddidlərin bir şəxs olduqları qəbul edilərkən Bədiüzzamanın eyni şərhlərində yenə bir şəxs olacağını ifadə etdiyi "böyük Mehdi"nin bir şəxsi mənəvi olacağı düşüncəsi, əlbəttə ki, ziddiyyətlidir. Bu düşüncəyə görə Axırzaman Mehdisindən əvvəl gəlib-getmiş bütün mücəddidlərin də bir şəxsi mənəvi olması lazım idi. Ancaq belə bir şeydən söhbət getməmişdir. Necə ki, Bədiüzzaman da sözlərində bu həqiqəti izah etmişdir. Bədiüzzamanın da müjdələdiyi kimi Peyğəmbərimiz (s.ə.v)-in

rəvayətlərindəki xüsusiyyətlərə sahib olmasıyla tanınacaq olan böyük Mehdi Axırzamanda **"BİR ŞƏXS"** olaraq zühur edəcək və Allahın izni ilə Bədiüzzamanın ifadə etdiyi üç vəzifəni də eyni anda yerinə yetirəcəkdir.

Bədiüzzaman sözlərində iki cür Mehdi olduğunu ifadə etmişdir. Bunlardan birincisini "əvvəlki Mehdilər" digərini isə Axırzamanda zühur edəcək olan **"BÖYÜK MEHDİ"** olaraq adlandırmışdır. Bədiüzzaman Səid Nursi hz. Mehdinin yerinə yetirəcəyi fəaliyyətləri saymış və bunları ondan başqa heç kimin yerinə yetirə bilməyəcəyini ifadə etmişdir. Buna görə də bu əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə vəsilə olan adama **"BÖYÜK MEHDİ"** demişdir. Bədiüzzaman əsərlərində özü də daxil olmaqla əvvəlki dövrlərdə gəlib-getmiş əvvəlki Mehdilər olaraq adlandırdığı mücəddidlərin bu üç vəzifəni yerinə yetirə bilmədikləri üçün böyük Mehdi ola bilməyəcəklərini izah etmişdir. Bədiüzzaman əsərlərində həmçinin bəhs edilən kəslərin böyük Mehdi ünvanına sahib olmamalarının digər bir səbəbinin isə bu kəslərin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində ifadə etdiyi xüsusiyyətlərə uyğun gəlməmələri olduğunu bildirmişdir.

**BU ÜÇ VƏZİFƏNİN EYNİ ANDA BİR ŞƏXSDƏ YAXUD CAMAATDA İNDİKİ DÖVRDƏ TAPILMASI VƏ MÜKƏMMƏL ŞƏKİLDƏ OLMASI VƏ BİR-BİRİNƏ MANE OLMAMASI ÇOX UZAQ, SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR**. Axırzamanda, **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN OLAN NURANİ CAMAATI TƏMSİL EDƏN HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ CƏMLƏŞƏ BİLƏR.** (Sikke-i Tasdik-i Gaybi, səh. 156)

Bədiüzzaman bu sözündə hz. Mehdinin üç vəzifəsi olduğunu ifadə edir və bu üç vəzifənin eyni anda yerinə yetirilməsinin hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olduğuna diqqət çəkir. Bədiüzzaman öz yaşadığı dövrdə bu üç vəzifənin eyni anda yerinə yetirilmədiyini bunu ancaq hz. Mehdinin reallaşdıracağını deyir:

Bədiüzzaman əsərlərinin bir çox yerində hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifə olduğundan bəhs etmişdir. Bədiüzzaman hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən birinin bu üç vəzifəni də eyni anda yerinə yetirməsi olduğunu ifadə edir. Bu vəzifələrin birincisi materialist, darvinist və ateist fəlsəfələrlə fikri mübarizə aparılması və bu axınların fikirlə tamamilə susdurulmasıdır. İkincisi islam dünyasının liderliyini öhdəsinə götürərək İslam Birliyinin təmin etməsi, üçüncüsü isə Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilərək bütün yer üzünə hakim olmasıdır. Axırzamanda zühur edəcək olan hz. Mehdi bu vəzifələrin üçünü də eyni anda yerinə yetirəcəkdir. Bu əlamət onun tanınmasını təmin edəcək və onun ən əhəmiyyətli xüsusiyyətlərindən biri olacaqdır.

Bədiüzzaman əsərlərində hz. Mehdinin eyni anda **"SİYASƏT MEHDİSİ, SƏLTƏNƏT MEHDİSİ VƏ DİYANƏT MEHDİSİ"** olaraq üç xüsusiyyətə də eyni anda sahib olacağını və bu üç sahədə eyni anda Mehdilik edəcəyini demişdir. Bədiüzzaman Quran əxlaqını dünya üzərində hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini ancaq

bunlardan heç birinin Axırzamanda hz. Mehdinin yerinə yetirəcəyi üç əhəmiyyətli vəzifəni bu şəkildə eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir. Buna görə də Axırzamanın **"BÖYÜK MEHDİSİ"** ünvanına sahib olmadıqlarını ifadə etmişdir.

Bədiüzzaman hz. Mehdinin **"ÜÇ VƏZİFƏNİ EYNİ ANDA"** yerinə yetirəcəyini xatırlatdığı bu sözüylə bu mövzunun əhəmiyyətini yenidən xatırladır. Özü də daxil olmaqla əvvəlki mücəddidlərdən heç birinin bunların üçünü də eyni anda yerinə yetirmədiyini ifadə edərək hz. Mehdinin o dövrdə hələ zühur etməmiş olduğunu ifadə edir.

Bədiüzzaman **"İNDİKİ DÖVRDƏ"** deməklə öz yaşadığı dövrdən bəhs edir. Və öz dövründə hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni də eyni anda mükəmməl bir şəkildə, layiqincə və biri digərinə mane olmadan, zərər vermədən, əskiksiz və qüsursuz olaraq yerinə yetirməyi bacaran bir şəxs ya da camaat olmadığını xəbər verir. Bədiüzzaman bu qənaətinin nə qədər güclü olduğunu **"ÇOX UZAQ"** və **"SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR"** deməklə aydın şəkildə ifadə etmişdir. Bu da hz. Mehdinin Bədiüzzamanın yaşadığı dövrdə zühur etmədiyini göstərən başqa bir əhəmiyyətli dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə üç vəzifənin də eyni anda yerinə yetirilməsi üçün şərait olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr sonra zühur edəcək böyük Mehdinin bu vəzifələrin hamısını yerinə yetirəcəyini xəbər verir.

Bədiüzzaman əsərlərində dəfələrlə hz. Mehdinin hədislərdə bildirildiyi kimi **"seyid"**, yəni **"Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn bir kimsə"** olacağını **"özünün isə seyid olmadığını"** ifadə etmişdir. Bədiüzzaman bu sözündə də bu mövzuya yenidən aydınlıq gətirmiş **"PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNİN NURANİ CAMAATINI TƏMSİL EDƏN"** deməklə hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in mübarək nəslindən olacağına diqqət çəkmişdir. Bədiüzzaman hz. Mehdinin bu əhəmiyyətli əlamətlərindən birini xatırladaraq özünün hz. Mehdi olmadığını ifadə edir.

Bədiüzzamanın izah etdiyi üç böyük vəzifə ancaq Axırzamanda zühur edəcək hz. Mehdinin yerinə yetirə biləcəyi vəzifələrdir. Bədiüzzaman burada istifadə etdiyi **"ANCAQ"** sözüylə başqa bir insanın bu vəzifələri yerinə yetirməyi bacarmasının Allahın diləməsiylə **"QEYRİ-MÜMKÜN"** olduğunu ifadə edir. Çünki Allah bu vəzifələri təkcə hz. Mehdinin yerinə yetirə bilməsini təqdir etmişdir. Hz. Mehdi də taleyində belə təqdir edildiyi üçün bu vəzifələri Allahın izni ilə müvəffəqiyyətlə yerinə yetirəcəkdir. İslam tarixində hələ bunu bacaran bir insan və ya birlik görülmədiyi kimi Bədiüzzaman öz yaşadığı dövrdə də bu vəziyyətin reallaşmadığını bəyan edir.

Axırzamanın ən böyük fəsadı dövründə, əlbəttə ki, **ƏN BÖYÜK BİR MÜCTƏHİD** (lazım gələndə ayələrdən hökm çıxardan böyük İslam alimi) həm də **ƏN BÖYÜK BİR MÜCƏDDİD** (hər əsrin əvvəlində dövrün ehtiyacına görə dini həqiqətlər mözsusunda təhsil vermək üçün göndərilən böyük islam alimi, yeniləyən, yeniləyici) həm **HAKİM**, həm **MEHDİ,** həm **MÜRŞİD** (doğru yolu göstərən adam) həm **QÜTBÜ ƏZƏM** (müsəlmanların özünə qoşulduğu böyük

övliyalardan olan dövrün ən böyük mürşidi) olaraq **NURLU BİR ŞƏXSİ GÖNDƏRƏCƏK** və **O ŞƏXS** də **PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN** olacaqdır. Cənabı-Haqq bir dəqiqə ərzində beyn-əs səma vəl-ərz aləmini (yer ilə göy arasındakı aləmi) buludlarla doldurub boşaltdığı kimi bir saniyədə dənizdəki tufanları sakitləşdirər və yaz fəsli daxilində bir saat ərzində yay fəslinin nümunəsini və yayda bir saat ərzində qış fırtınasını icad edən **QADİRİ ZÜLCƏLAL** (hər şeyə müqtədir olan uca Allah) **HZ. MEHDİ VƏSİLƏSİLƏ DƏ, İSLAM ALƏMİNİN ZÜLMLƏ DOLDUĞU DÖVRÜ YOX EDƏ BİLƏR. BUNU VƏD ETMİŞDİR, ƏLBƏTTƏ Kİ, BU VƏDİNİ YERİNƏ YETİRƏCƏKDİR.** *(Mektubat, səh. 411-412)*

Bədiüzzaman Axırzaman əlamətlərinin şiddətləndiyi dövrdə Allahın insanların qurtuluşuna vəsilə olması üçün Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olan nurani bir şəxsi, yəni hz. Mehdini göndərəcəyini xəbər vermiş və bu müqəddəs şəxsi keçmiş dövrlərdə yaşayan mücəddidlərdən fərqləndirən xüsusiyyətləri izah etmişdir:

Peyğəmbərimiz (s.ə.v) hədislərində hər əsrin əvvəlində insanlara din əxlaqını və hökmlərini izah edən dövrün ehtiyaclarına görə şərhlər edən bir mücəddid göndəriləcəyini xəbər vermişdir. Məsələn, imam Rəbbani hicri 1000-ci ilin mücəddididir. Mövlana Xalidi Bağdadi hicri 1193-cü ildə (miladi 1779) anadan olmuş hicri 1242-ci ildə (miladi 1827) isə vəfat etmişdir. Buna görə də bu mübarək insan əldə olunmuş qənaətə əsasən hicri 12-ci və 13-cü əsrlər arasında yaşayan bir mücəddiddir. Bədiüzzaman Səid Nursi isə Mövlana Xalidi Bağdadidən tam 100 il sonra, hicri 1293-cü ildə (miladi 1878) anadan olmuşdur. Hicri 1379-cu ildə isə (miladi 1960) vəfat etmişdir. Bədiüzzaman da hicri 12-ci əsrin mücəddidi, Mövlana Xaliddən tam yüz il sonra nəşr olunan Risalə-i Nurun müəllifi olması səbəbiylə özünün də 13-cü və 14-cü əsrlər arasında yaşayan bir mücəddid olduğunu ifadə etmişdir.

Bədiüzzaman hz. Mehdinin isə özündən sonra zühur edəcəyini tarixiylə bərabər xəbər vermiş və hicri 14-cü və 15-ci əsrlər arasında yaşayan bir "mücəddid"in hz. Mehdi olacağını müjdələmişdir. Bədiüzzaman bu sözündə də hz. Mehdi üçün **"ƏN BÖYÜK MÜCƏDDİD** və **ƏN BÖYÜK MÜCTƏHİD"** sifətlərindən istifadə etmişdir. **"MÜCƏDDİD"** dini həqiqətləri dövrün ehtiyaclarına görə izah edən, **"MÜCTƏHİD"** isə lazım gələndə ayələrdən hökm çıxardan böyük İslam alimi və lider deməkdir. Bu xüsusiyyətdəki böyük şəxslər islam cəmiyyətlərinə nümunə olmuş, onlara yol göstərmiş, dövrün qütbü olmuş liderlərdir. Bu bir lider xüsusiyyəti kimi hökmləri ədəb-ərkana uyğun olaraq Quran və hədislərdən istifadə etməklə irəli sürmək və hökm vermək xüsusiyyətlərindən ötəri "məzhəb liderləri" olmuş, müsəlmanlar da onlara tabe olmuşlardır.

İmam Hənəfi, imam Şafi, imam Hənbəli və imam Maliki kimi lider xüsusiyyətinə sahib olan şəxslər 4 məzhəbin qurucularıdır. Bütün əhli-sünnə onların verdiyi hökmlərə əsasən hərəkət edir. Bədiüzzaman bu "müctəhid və mücəddid"lərdən ən böyüyünün isə hz. Mehdi olacağını ifadə etmişdir. Bu da hz. Mehdinin *Quran və hədislərdən istifadə etməklə ədəb-*

*ərkana uyğun şəkildə hökm verəcəyini* və hökm verməyə ən səlahiyyətli adam olaraq, özünün də **"bütün məzhəbləri aradan qaldıracağını"** göstərir. Çünki ən böyük məzhəb imamı olduğuna görə onsuz da bütün digər məzhəbləri aradan qaldırması lazımdır. Yaşadığı dövrdə hamının ona tabe olacağının xəbər verilmiş olması da bunu təsdiqləyir.

Bədiüzzaman hz. Mehdinin **"ən böyük müceddid və müctəhid"** olduğunu xəbər verərək onun bütün məzhəblərdən üstün bir mövqedə olacağını ifadə etmişdir. Keçmişdən müasir dövrümüzə qədər yaşamış olan bir çox islam alimi əsərlərində bu mövzuya yer vermişdir. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi isə "Futuhat-ül Məkkiyə" adlı əsərində bu mövzu haqqında belə məlumat vermişdir:

***...MEHDİ DİNİ PEYĞƏMBƏRİN DÖVRÜNDƏ OLDUĞU KİMİ EYNİLƏ TƏTBİQ EDƏCƏKDİR. YER ÜZÜNDƏ MƏZHƏBLƏRİ ARADAN QALDIRACAQDIR. HƏQİQİ DİNDƏN BAŞQA HEÇ BİR MƏZHƏB QALMAYACAQDIR.*** *(Muhammed B. Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 186-187)*

Hüseyin Hilmi Işık isə səadəti əbədiyə adlı əsərində hz. Mehdinin bu xüsusiyyətini belə xəbər vermişdir:

***HƏZRƏTİ MEHDİ AXIRZAMANDA ZÜHUR EDƏCƏKDİR.*** *Rəsullulah (s.ə.v)-in nəslindən olacaqdır. İsa əleyhissalamla görüşəcək,* ***MƏZHƏBLƏRİ ARADAN QALDIRACAQ, TƏKCƏ ONUN MƏZHƏBİ QALACAQDIR.*** *(H. Hilmi Işık, Saadeti Ebediye, səh. 35)*

Məlum olduğu kimi Bədiüzzaman Səid Nursi Şafi məzhəbindəndir. Bir məzhəb sahibi deyildir və başqa bir məzhəb qurucusuna tabe olmuşdur. İmam Şafini imamı olaraq qəbul etmişdir. Bədiüzzaman bu mövzunu əsərlərində belə ifadə etmişdir: *"Əvvəlcə:* ***Mən şafiyəm...*** *" (Emirdağ lahikası, səh. 38)*

*"...**Həm də şafilər kimi ibadət edirəm**". (Büyük Tarihçe-i Hayat, səh. 202)*

*"Bu qədəri bəs edər. **Mən şafiyəm...**" (Büyük Tarihçe-i Hayat, səh. 206)*

*"**Hətta Şafi məzhəbində olduğum üçün...**" (Emirdağ Lahikası, səh. 573)*

Halbuki hz. Mehdi bütün məzhəbləri aradan qaldıracaq və bütün məzhəblərin lideri mövqeyində çıxış edəcəkdir. Bir məzhəbə tabe olan Bədiüzzaman da bu xüsusiyyətin hz. Mehdiyə aid olacağını ifadə edərək özünün hz. Mehdi olmadığını izah etmişdir.

Həmçinin Bədiüzzaman bu sözüylə hz. Mehdinin bir şəxs olduğunu yenidən çox aydın dəlillərə istinad edərək bəyan etmişdir. Bədiüzzaman hz. Mehdinin həmçinin həm **"BİR MÜCƏDDİD"** həm də **"BİR MÜCTƏHİD"** olacağını demişdir. Hz. Mehdinin bu sifətlərinə uyğun olaraq "dini dövrün ehtiyaclarına görə izah edə bilməsi və lazım gəldiyində ayələrdən hökm çıxara bilməsi, bir İslam alimi və lideri ola bilməsi" üçün aydındır ki, "bir insan" olması

lazımdır. Bir şəxsi mənəvinin "şərh edə bilməsi, hökm çıxara bilməsi, ya da bir İslam alimi və lideri ola bilməsi" mümkün deyildir. Bədiüzzaman da bu xüsusiyyətlərini bəyan edərək **"HZ. MEHDİNİN BİR ŞƏXS OLDUĞUNU"** ifadə etmişdir.

Bütün elçilər və peyğəmbərlər kimi Peyğəmbərimiz (s.ə.v)-dən sonra gələn və islam tarixində iştirak edən heç bir mücəddid və ya müctəhid bir şəxsi mənəvi olaraq göndərilməmişdir. Allahın Quranda bildirdiyi Adətullahına uyğun olaraq bütün mücəddidlər insanları xəbərdar edib qorxudacaq, onları Allahın razılığı, rəhməti və cənnətiylə müjdələyə biləcək, onlara doğrunu səhvdən ayıran, hidayət rəhbəri ola biləcək **"BİR İNSAN"** olaraq gəlmişlər. Məsələn? Mövlana Xalidi Bağdadi və Bədiüzzaman kimi mücəddidlər yaşadıqları əsrdə bir şəxs olaraq gəlmiş böyük İslam alimləridir. Bədiüzzamanın da diqqət çəkdiyi kimi 1400 ildir ki, həyəcanla gözlənilən hz. Mehdi də Allahın izni ilə bu adətullaha uyğun olaraq mücəddid və müctəhid sifətlərinə sahib ola biləcək **"BİR ŞƏXS"** olaraq zühur edəcəkdir.

Bədiüzzamanın istifadə etdiyi **"HAKİM"** sözünün lüğətdəki mənası "haqlı və haqsızı ayırd edib ədalətlə hökm edən, idarə edən" deməkdir. Bədiüzzaman əsərlərində hz. Mehdinin yerinə yetirəcəyi vəzifələrindən bəhs etmiş, hal-hazırda dağınıq halda olan bütün İslam dünyasını birləşdirib bu birliyin liderliyini boynuna götürmənin də hz. Mehdinin bu vəzifələrindən biri olduğunu ifadə etmişdir. Bədiüzzaman burada hz. Mehdinin **"HAKİM"**lik sifətindən istifadə etmiş, bütün İslam aləminin başçısı olacağını və müsəlmanların məsələlərinə çıxış yolu tapacağını xəbər vermişdir. Buna görə də hz. Mehdi qərar orqanlarının başçısı olacaq, onun ədalətli hökmləri və istiqamətləndirməsiylə islam dünyası idarə olunacaqdır. Belə bir irəliləyiş indiyədək reallaşmamışdır. Necə ki, Bədiüzzaman da bu həqiqəti xatırladaraq hz. Mehdinin hələ zühur etmədiyini dilə gətirmiş, zühur etdiyində isə hz. Mehdinin bu **"HAKİMLİK XÜSUSIYYƏTİNƏ SAHİB OLMASI İLƏ TANINACAĞINA"** diqqət çəkmişdir.

Hz. Mehdi Bədiüzzamanın da ifadə etdiyi kimi "hakim" olacaq, yəni hökm və ədaləti təmin edən orqanların başçısı olacaqdır. Bədiüzzaman Səid Nursi isə, ömrünün 28 ilini **"məhkum"** olaraq böyük fədakarlıqlar altında keçirmiş və **"hakim"** mövqedə olmamışdır.

Bundan əlavə Bədiüzzaman bu sözüylə hz. Mehdinin bir şəxsi mənəvi olmadığı mövzusuna da konkret ifadələrlə aydınlıq gətirmişdir. Bir şəxsi mənəvinin "hakimlik" sifətinə sahib olması, müsəlmanların liderliyini öhdəsinə götürüb ədalətlə hökm verə bilməsi, bir birliyi idarə edə bilməsi, şübhəsiz ki, qeyri-mümkündür. Bütün bunlar ancaq bir insanın sahib ola biləcəyi xüsusiyyətlərdir. Yenə də bunlar ancaq iman, ağıl, mühakimə və vicdandan istifadə etməklə yerinə yetirilən məsuliyyətlərdir. Bir şəxsi mənəvinin isə bu xüsusiyyətlərin heç birinə sahib olmadığı, buna görə də hakim xüsusiyyəti ilə müsəlmanları idarə edə bilməyəcəyi olduqca aydın bir həqiqətdir. Bədiüzzaman da sözlərində bu həqiqəti aydın şəkildə ifadə etmiş, hz. Mehdinin **"BİR ŞƏXS"** olduğunu izah etmişdir.

Bədiüzzaman Rəbbimizin Axırzamanın ən ağır vaxtında bütün insanların qurtuluşuna vəsilə olması üçün göndərəcəyi mübarək şəxsin həmçinin **"MEHDİ"** xüsusiyyətinə də sahib olacağını xəbər vermişdir. **"MEHDİ"** sözü **"HİDAYƏT TAPAN, HİDAYƏTƏ VƏSİLƏ OLAN VƏ HİDAYƏTƏ YÖNƏLDƏN"** mənalarındadır. Mehdi sifəti xüsusi bir lütf olaraq Allahın hidayətinə nail olan və Allahın özünə yol göstərdiyi adamı ifadə edir. Axırzamanda zühur edəcək olan hz. Mehdi də adını bu xüsusiyyətindən alır. Bir şəxsi mənəvinin "Mehdi xüsusiyyətinə sahib olması"ndan isə heç bir şəkildə söhbət gedə bilməz. Allahdan bir lütf olaraq verilən **"HİDAYƏT TAPMA"** xüsusiyyətinin **"BİR İNSANI"** ifadə etdiyi çox aydındır. Bir şəxsi mənəvinin "hidayət tapma" və "insanların hidayətlərinə vəsilə olma" xüsusiyyətləri ola bilməz. Bədiüzzaman da burada bu həqiqəti bəyan etmiş hz. Mehdinin **"MEHDİ"** xüsusiyyətini ifadə edərək onun **"BİR ŞƏXS"** olduğunu yenidən bəyan etmişdir.

Bədiüzzaman hz. Mehdinin xüsusiyyətlərindən bəzilərini saydığı bu sözündə onun həmçinin həm **"MÜRŞİD",** həm də **"QÜTBÜ ƏZƏM"** olacağını xəbər vermişdir. **"MÜRŞİD"** sözü **"DOĞRU YOLU GÖSTƏRƏN KİMSƏ"** mənasını verir. **"QÜTBÜ ƏZƏM"** ifadəsi isə **"MÜSƏLMANLARI ÖZÜNƏ TABE EDƏN BÖYÜK ÖVLİYALARDAN DÖVRÜN ƏN BÖYÜK MÜRŞİDİ"** mənasındadır. Bədiüzzaman bu sözünün əvvəlindəki "Axırzamanın ən böyük fəsadı zamanında" ifadəsiylə hz. Mehdinin dünyanın bəlkə də ən böhranlı mərhələsi olan Axırzamanda dünya səviyyəsində yerinə yetirəcəyi işlərlə imandan və doğru yoldan din əxlaqından uzaqlaşmış insanları qəflətdən oyandırıb hidayətə yönəldəcəyini xəbər vermişdir. Hz. Mehdi müsəlmanların özünə tabe olduğu dövrün ən böyük yol göstəricisi olacaqdır.

Bədiüzzamanın bu sözündə istifadə etdiyi yuxarıdakı xüsusiyyətlər mənalarından da aydın olduğu kimi **"TƏK BİR ADAM"**a aid olan xüsusiyyətlərdir. Bir şəxsi mənəvinin "mürşid" və "qütbü əzəm" olması mümkün ola bilməz. Bədiüzzaman aydın şəkildə hz. Mehdinin yaşadığı dövrdə **"bütün müsəlmanların özünə tabe olduğu ən böyük övliyalardan, dövrünün doğru yolu göstərən ən böyük mürşidi olan BİR ŞƏXS"** olacağını ifadə etmişdir.

Bədiüzzaman burada hz. Mehdinin **"NURANİ BİR ŞƏXS"** olduğundan bəhs edir. Əgər Bədiüzzaman hz. Mehdinin bir şəxsi mənəvi olduğunu bəyan etmək istəsəydi burada **"NURANİ BİR ŞƏXSDİR"** deyil "nurani bir şəxsi mənəvidir" ifadəsindən istifadə edərdi. Ancaq çox aydın olaraq hz. Mehdi üçün **"bir şəxs"** ifadəsini işlətmişdir. Həmçinin **"NURANİ"** sözüylə də bu mübarək şəxsin bir xüsusiyyətini də bəyan etmiş, onun **"NURLU BİR ŞƏXS"** olduğunu ifadə etmişdir. Bir şəxsi mənəvinin **"NURLU"** olmasından danışa bilmək mümkün deyildir. Bu bir insanda görülə biləcək bir xüsusiyyətdir. Bədiüzzaman da bütün bu bəyanları və şərhləriylə hz. Mehdinin bir şəxsi mənəvi olmadığını mübarək "bir insan" olduğunu aydın şəkildə ifadə etmişdir.

Həmçinin Bədiüzzaman burada “iki şəxs” ya da “üç şəxs” kimi ifadələrə yer verməmiş istifadə etdiyi **“NURANİ BİR ŞƏXS”** ifadəsiylə hz. Mehdinin yalnız **“TƏK BİR ŞƏXS”** olduğunu da ifadə etmişdir.

Bədiüzzaman bundan əlavə bu sözündəki **“GÖNDƏRƏCƏK”** ifadəsiylə də hz. Mehdinin zühurunun Allahın izni ilə qəti olaraq reallaşacağına ümid etdiyini bildirir. Bədiüzzaman bu sözüylə həmçinin hz. Mehdinin zühurunun keçmişdə ya da öz dövründə hələ reallaşmamış olduğunu da xəbər verir. Əgər belə bir qənaəti olsaydı, şübhəsiz ki, Bədiüzzaman “Cənabı Haqq göndərdi” ya da “göndərmişdir” kimi, keçmiş zamanı ifadə edən bir feldən istifadə edərdi. Ancaq Bədiüzzaman bu ifadələrin heç birinə yer verməmiş və gələcək zamana işarə edərək Rəbbimizin hz. Mehdini özünə **“SONRAKI BİR DÖVRDƏ GÖNDƏRƏCƏYİNİ”** xəbər vermişdir.

Bədiüzzaman **“HZ. MEHDİNİN PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN GƏLƏN BİR ŞƏXS OLACAĞINI”** ifadə edir. Bədiüzzaman əsərlərində bu mövzunu da tez-tez bəyan edir. Şübhəsiz ki, Bədiüzzaman bir şəxsi mənəvinin peyğəmbər nəslindən gələ bilməyəcəyini çox yaxşı bilir. Bu xüsusiyyətini xatırladaraq hz. Mehdinin mübarək bir nəsildən gələn **“BİR İNSAN”** olacağını ifadə edir. Bundan əlavə Bədiüzzaman risalələrdə dəfələrlə özünün Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmadığını xəbər vermiş və hz. Mehdi zühur etdiyində digər mücəddidlərdən bu xüsusiyyətiylə fərqlənəcəyinə diqqət çəkmişdir.

Bədiüzzaman cəlal və qüdrət sahibi olan Rəbbimizin hz. Mehdi vəsiləsilə dinsizlik və zülm dövrünü aradan qaldıracağını ifadə etmişdir. Rəbbimizin yer ilə göy arasındakı bütün aləmi buludlarla bir dəqiqə ərzində doldurub boşaltdığı, bir saniyə ərzində dənizin tufanlarını dayandırdığı və yaz fəslində bir saat ərzində yay fəslinin nümunəsini və yayda da bir saat ərzində qış tufanını yaratdığı kimi bu hadisəni də dərhal reallaşdırmağa qadir olduğunu xatırlatmışdır. Bədiüzzaman Allahın bu vədinin haqq olduğunu və vədini mütləq reallaşdıracağını ifadə etmişdir.

Hz. Mehdi Allahın izni ilə islam dünyasının üzə-üzə gəldiyi zülm və çətinliklərə son qoymaqla mükəlləfləndirilmiş adam olacaq və işləriylə bütün dünya səviyyəsində təsirli olacaqdır. Ancaq bu cür bütün dünyanın gözləri qarşısında reallaşacaq bir vəziyyət nə Bədiüzzamanın yaşadığı dövrdə, nə də daha əvvəl reallaşmamışdır. Bədiüzzamanın dövründə bu zülm davam edirdi. Kommunizm də hələ ki, süqut etməmişdi. Müsəlmanlara edilən zülm isə bütün dünyanın gözləri qarşısında həyata keçirilirdi. Yaxın bir tarixə qədər Bosniyada indiki vaxtda hələ də Kəşmirdə, Moroda, Fələstində və üstəlik dünyanın bir çox yerində müsəlmanların ən təməl hüquqlarının belə əlindən alındığı, haqsız yerə öldürüldükləri məlumdur.

Buna görə də Bədiüzzamanın yaşadığı dövrdə zülm və əsarətin aradan qaldırılmasından heç bir şəkildə söhbət gedə bilməz. Hətta Bədiüzzamanın şəxsən özü bu

şərtlər səbəbiylə ömrünün çox böyük bir hissəsini zülm və əsarət altında keçirmişdir. Bədiüzzaman hədislərdə bildirildiyi kimi İslam dünyasında hakim olan bu zülmü aradan qaldıracaq adamın ancaq hz. Mehdi olacağını ifadə etmişdir.

Özünün belə bir hadisəyə vəsilə olmadığını və bu vəzifəni yerinə yetirəcək olan adamın hz. Mehdi olacağını ifadə etmişdir.

# Bədiüzzaman əsərlərində özünün “Son Mücəddid” və “Mehdi” olmadığını dəlilləriylə birlikdə izah etmişdir

RİSALƏ-İ NURUN GƏLƏCƏK ƏSRLƏRƏ İŞIQ

TUTAN BİR ƏSƏR OLMASI BƏDİÜZZAMANIN SON

MÜCƏDDİD VƏ YA MEHDİ OLDUĞUNU GÖSTƏRƏN BİR DƏLİL

DEYİLDİR; BÜTÜN İSLAM ALİMLƏRİNİN ƏSƏRLƏRİ

GƏLƏCƏK ƏSRLƏRİ AYDINLAŞDIRIR

Böyük islam alimi Bədiüzzaman Səid Nursi Risalə-i Nur külliyyatında səhih hədislər vasitəsilə bildirilən hz. Mehdinin zühuru və islam əxlaqını bütün dünyaya hakim etməsi mövzusuna geniş yer vermişdir. Bədiüzzaman bu şərhlərində özünün Mehdi olmadığını da aydın şəkildə ifadə etmişdir. Mehdilik mövzusunda özünə hüsnü-zənn bəsləyən kəslərə **“özünün hz. Mehdi olmadığını”** *(Emirdağ Lahikası, səh. 266)*, **“hz. Mehdinin yalnız bir ağası, nümayəndəsi və qabaqcılı olduğunu”** *(Barla Lahikası, səh. 162)*, **“Əsərləri və gördüyü işlərlə hz. Mehdiyə zəmin hazırladığını”** *(Sikke-i Tasdik-i Gaybi, səh. 189),* **“Hz. Mehdinin özündən bir əsr sonra zühur edəcəyini”** *(Kastamonu Lahikası, səh. 57)* ifadə edərək bu mövzuya aydınlıq gətirmişdir.

Ancaq Bədiüzzaman əsərlərində bu mövzunu heç bir şübhəyə yol verməyəcək şəkildə dəlilləriylə birlikdə izah etdiyi halda Bədiüzzamanın ***“...bu həqiqətdən aydın olur ki; sonrakı dövrdə zühur edəcək o mübarək şəxs Risalə-i Nuru bir proqramı olaraq yazıb-paylamaq yolu ilə yayacaq və tətbiq edəcəkdir.*** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* sözləri istiqamətində “hz. Mehdinin Risalə-i Nuru özünə bir program etməsinin Bədiüzzamanın “son mücəddid” olduğunu göstərdiyi” şəklində bəzi səhv fikirlər irəli sürülür. Bədiüzzamanın ***“Risalə-i Nur bu əsri və gələcək əsrləri nurlandıracaq olan bir Quran möcüzəsidir”.*** *(Tarihçe-i Hayat, səh. 463)* sözləri də bu istiqamətdə səhv formalarda şərh edilmişdir; “Risalə-i Nurun gələcək əsrlərə yol göstərici xüsusiyyətdə olmasının Bədiüzzamanın Mehdi ola biləcəyinin işarəsi olduğu” dilə gətirilir. Halbuki **“hz. Mehdinin öz vəzifələrini yerinə yetirərkən Risalə-i Nurdan istifadə etməsi Bədiüzzamanın ya da Risalə-i Nurun Mehdilik vəzifəsini boynuna götürmüş olduğunun bir dəlili deyildir”.**

Bədiüzzamanın qələmə aldığı həm çox dərin bir Quran təfsiri, həm də materialist fəlsəfəni rədd edən və iman həqiqətlərini ən yaxşı şəkildə ortaya qoyan çox əhəmiyyətli bir

əsər olan Risalə-i Nur külliyyatı yüzlərlə insanın iman etməsinə Allaha yaxınlaşmasına və doğru yolu görməsinə vəsilə olmuşdur. Bədiüzzaman səmimi və hikmətli üslubuyla axirət, tale, iman kimi bir çox mövzunu ülfət alçaldan və düşündürücü bir üslubla izah etmiş və bu yolla yaradılış həqiqətlərinin ağıllara və vicdanlara yerləşməsinə vəsilə olmuşdur. Bədiüzzaman Səid Nursinin əsərləri müsəlmanlara yol göstərici bu xüsusiyyətləriylə olduqca əhəmiyyətlidir.

Hz. Mehdi vəzifələrini yerinə yetirərkən haqq kitabımız olan Quran kərimi və Peyğəmbərimiz (s.ə.v)-in hədislərini özünə rəhbər edəcəkdir. Lakin bundan əlavə Peyğəmbərimiz (s.ə.v)-dən etibarən gəlib-getmiş bütün böyük islam alimlərinin və bu günə qədər yaşamış olan mücəddidlərin əsərlərindən və fikirlərindən istifadə edəcəkdir. İmam Qəzalı İmam Rəbbani, Mövlana Xalid, İmam Suyuti, Bədiüzzaman Səid Nursi kimi böyük islam alimləri özlərindən sonra müsəlmanlara yol göstərici xüsusiyyətdə əhəmiyyətli əsərlər qoyub getmişlər. Hz. Mehdi Risalə-i Nur külliyyatında istifadə etdiyi kimi bu dəyərli mütəfəkkirlərin işlərindən də eyni şəkildə faydalanacaqdır. Bu əsərlərin hər biri Risalə-i Nur külliyyatı kimi sonrakı əsrlərdə müsəlmanlara işıq yolu tutacaq və yol göstərəcək əsərlərdir. Hz. Mehdi zühur etdiyində bütün bu əsərlərin əhəmiyyətini itirməsi üçün heç bir səbəb yoxdur. Əlbəttə ki, müsəlmanlığın əsasları haqqında dərin təfəkkür ehtiva edən bütün bu əsərlərdən istifadə olunmalıdır. Necə ki, **"hz. Mehdinin İmam Qəzalının, İmam Rəbbaninin, ya da Mövlana Xalidin əsərlərindən istifadə etməsi bu islam alimlərinin son mücəddid və ya Mehdi olduqlarına dəlil deyilsə Risalə-i Nur külliyyatından istifadə etməsi də Bədiüzzamanın son mücəddid olduğunu göstərən bir dəlil deyildir".**

Hz. Mehdi olmaq fərqli, bir əsərin gələcək nəsillərə işıq yolu tutması, yol göstərməsi də tam fərqli bir mövzudur. Necə ki, hz. Mehdi vəzifələrini yerinə yetirərkən dünyadakı bütün elmi əsərlərdən; biologiya ya da fəlsəfə əsasında hazırlanmış işlərdən də faydalanacaq, yaxud da materializmin etibarsızlığını bəyan edərkən materialist fəlsəfənin əleyhinə yazılmış elmi işlərdən və ya darvinizm ilə əlaqədar əsərlərdən də istifadə edəcəkdir. Hz. Mehdinin bu elmi əsərlərdən faydalanması da hər hansı bir şeyin göstəricisi deyildir. Əhəmiyyətli olan hz. Mehdinin dünya səviyyəsində yerinə yetirəcəyi işlərdir.

Bir şəxsin hz. Mehdi ola bilməsindən danışmaq üçün bu şəxsin hər şeydən əvvəl Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilən xüsusiyyətlərə uyğun gəlməsi və yerinə yetirəcəyi bildirilən vəzifələri yerinə yetirməsi lazımdır. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və Bədiüzzaman kimi böyük İslam alimlərinin əsərlərində hz. Mehdi zühur etdiyində reallaşmış olması lazım olan bir çox əlamətin olduğu qeyd edilir. Hz. Mehdinin nəsli, fiziki xüsusiyyətləri, fəaliyyətləri yüzlərlə səhih hədislə bildirilmişdir. Hz. Mehdi zühur etdiyində bütün müsəlmanlar arasında İslam Birliyini yaradacaq, xristian dünyası ilə əməkdaşlıq edəcək, hz. İsa ilə görüşəcək və birlikdə namaz qılacaq, hz. İsa ilə birlikdə İslam əxlaqını bütün dünyaya hakim edəcəkdir. Bu xüsusiyyətlərə sahib olmayan və bu böyük

vəzifələrin hamısını eyni anda yerinə yetirməmiş bir şəxsin hz. Mehdi olmasından danışmaq qeyri-mümkündür. Bədiüzzaman da yaşadığı əsrin qütbü olaraq çox böyük bir iman xidməti göstərmiş, ancaq bu vəzifələri yerinə yetirməmişdir. Buna görə də hz. Mehdi olmasından söhbət belə gedə bilməz. Necə ki, özü də əsərlərində bunu çox aydın bir şəkildə ifadə etmişdir.

## BƏDİÜZZAMAN RİSALƏ-İ NURUN HZ. MEHDİNİN "BİRİNCİ VƏZİFƏSİNƏ MÜƏYYƏN İSTİQAMƏTLƏRDƏ YALNIZCA LİDERLİK ETDİYİNİ" İFADƏ ETMİŞDİR; HZ. MEHDİNİN BU ƏSƏRLƏRDƏN İSTİFADƏ ETMƏSİ BƏDİÜZZAMANIN MEHDİ OLDUĞUNUN BİR GÖSTƏRİCİSİ DEYİLDİR

**Qardaşlarımın ikinci səhvi: Fani və çürüməsi mümkün olan bir şəxsiyyəti BƏZİ İSTİQAMƏTLƏRİYLƏ BİRİNCİ VƏZİFƏDƏ LİDERLİK EDƏN nur tələbələrinin şəxsi mənəvisini təmsil edən o aciz qardaşına verməkdir. Halbuki bu iki səhv də Risalə-i Nurun həqiqi ixlasına və heç bir şeyə hətta mənəvi və axirəti vəzifəyə də alət olmamasına bir istiqamətdən zərər verdiyi kimi siyasət əhlini də vahiməyə salıb Risalə-i Nurun nəşr olunmasına, paylanmasına, eşitdirilməsinə də zərər gətirir. İndiki dövr şəxsi mənəvi dövrü olduğu üçün belə böyük və əbədi həqiqətlər fani, aciz və qüsur işləyə bilən şəxsiyyətlərə şamil edilə bilməz.** Bədiüzzaman nur tələbələrinin mehdilik mövzusunda özünə hüsnü-zənn bəslədiklərini ancaq bunun "**qarışdırmadan qaynaqlanan bir səhv olduğunu**" dilə gətirir. Buna görə də **öz şəxsi haqqında "belə deməyin, belə bir Mehdilik iddiası da etməyin"** deyir. Bədiüzzaman özünə qarşı belə bir səhv hüsnü-zənn edilməsinin Mehdilik mövzusunda "**səhv bir zənn**"in meydana gəlməsinə və beləcə də iman əhlinin səhv istiqamətləndirilməsinə səbəb olacağını, nəticədə isə bu vəziyyətin müsəlmanların həqiqi hz. Mehdini dərk etmələrinə mane ola biləcəyini qeyd edir.

Diqqət yetirsək Bədiüzzaman bu sözlərində nə özünün, nə də nur tələbələrinin hz. Mehdinin birinci vəzifəsini yerinə yetirdiklərini demir. Özünün "**hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətləri mövzusunda HZ. MEHDİYƏ YALNIZ LİDERLİK ETDİYİNİ və BUNU DA TƏKCƏ "BƏZİ İSTİQAMƏTLƏRDƏ" YERİNƏ YETİRDİYİNİ**" ifadə edir. Hz. Mehdinin birinci vəzifəsi olan materialist fəlsəfənin "**BÜTÜN DÜNYADA VƏ TAMAMİLƏ TƏSİRSİZ HALA GƏTİRİLƏRƏK DAĞILMASI**"nın isə ancaq hz. Mehdinin yerinə yetirəcəyi xidmətlər nəticəsində həyata keçiriləcəyini ifadə edir *(Emirdağ Lahikası, 259)*.

Əvvəlki sətirlərdə də izah edildiyi kimi hz. Mehdiyə birinci vəzifəsində liderlik edəcək olan bu işlər hz. Mehdinin faydalanacağı bir çox elmi əsərdən biri olacaqdır. **Necə ki, İslam alimlərinin əsərlərindən, elmi və ya fəlsəfi işlərdən istifadə etməsi, bu işlərin Mehdilik vəzifəsini boynuna götürdüyünün bir dəlili deyilsə, "hz. Mehdinin Risalə-i Nuru özünə bir proqram etməsi və bunlardan faydalanması da bu əsərlərin Mehdilik vəzifəsini yerinə yetirdiyinin bir ifadəsi deyildir".**

**BƏDİÜZZAMANIN HANSI SƏBƏBƏ GÖRƏ MEHDİ OLA BİLMƏYƏCƏYİNİ YÜZLƏRLƏ SƏHİFƏ BOYUNCA DƏLİLLƏRİYLƏ BİRLİKDƏ İZAH ETMİŞ OLMASI "MƏN MEHDİ DEYİLƏM" SÖZLƏRİNİ "ÜSULU İLƏ" DEMƏDİYİNİ AYDIN ŞƏKİLDƏ BƏYAN EDİR**

Yaşadığı dövrdə ətrafındakı insanlar Bədiüzzamana hz. Mehdi olub-olmadığı istiqamətində suallar verdi. Bədiüzzaman özünə verilən bu suala "xeyr, mən Mehdi deyiləm" deyərək cavab vermiş, ancaq bundan əlavə yüzlərlə səhifə boyunca hansı səbəbə görə Mehdi ola bilməyəcəyini səbəbləriylə birlikdə sübut edərək izah etmişdir. Aydındır ki, əgər Bədiüzzaman Mehdi olsaydı yalnız "mən Mehdi deyiləm" deyərdi və beləliklə də söhbət bağlanardı. Əksini isbat etmək üçün yüzlərlə səhifə boyunca uzun-uzadı şərh etməyə heç bir şəkildə ehtiyac duymazdı. Onu belə təfərrüatlı bir şərh etməyə nə məcbur edə bilərdi?. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdinin "mehdilik iddiası etməyəcəyi" ifadə edilmişdir. Ancaq belə bir şeyin gizlənməsi lazımdırsa bunun üçün yalnız tək bir cümlə ilə "mən Mehdi deyiləm" demək kifayətdir. Bu sözlər hansı səbəbə görə inandırıcı olmaz? Rədd etmək üçün uzun-uzadı yüzlərlə səhifə yalan deyilməsinə səbəb nədir? Necə ki, İmam Rəbbani, Mövlana Xalid kimi tarixən yaşamış olan bir çox İslam aliminə və mücəddidə hz. Mehdi olub-olmadıqlarını soruşulduğu vaxt bu kəslər də "mən Mehdi deyiləm" demişdir. Əsərlərində də Peyğəmbərimiz (s.ə.v)-in hədisləri istiqamətində Axırzamanda zühur edəcək olan hz. Mehdinin xüsusiyyətlərini təfərrüatlı olaraq izah etmişlər.

Ancaq hz. Mehdi zühur etdiyində ona da belə bir sual veriləcək və o "mən Mehdilik iddiası etmirəm" deyəcəkdir. Lakin yüzlərlə səhifə boyunca izah edib bunun əksini isbat etməyə də cəhd etməyəcəkdir. Hz. Mehdi seyid olacaq, lakin "mən seyid deyiləm hz. Mehdi bu xüsusiyyətlərə sahib olacaq, bu vəzifələri yerinə yetirəcək mən bu xüsusiyyətlərə sahib deyiləm" kimi izahlar da etməyəcəkdir.

Əgər bunu izah etmək üçün "mən hz. Mehdi deyiləm" deyilməsi kifayət deyildir və yüzlərlə səhifə yalan deyilməsi lazımdır" deyilirsə, bunun məntiqinin də izah edilməsi lazımdır. Bədiüzzamanın risalələrdəki "hz. Mehdinin özündən bir əsr sonra zühur edəcəyi, özünün hz. Mehdinin yalnız bir ağası, nümayəndəsi və qabaqcılı olduğu, gördüyü işlərlə hz. Mehdinin xidmətləri üçün zəmin hazırladığı, hz. Mehdinin üç böyük vəzifəsini eyni anda yerinə yetirməsiylə tanınacağını, özünün isə bunu reallaşdırmadığı" istiqamətindəki yüzlərlə səhifə boyunca izahlarının hamısının təkcə "mehdiliyini qəbul etməmək üçün ədəb-ərkanla deyilmiş sözlər" olduğunu iddia etmək də heç bir məntiqə sığmır. **Bədiüzzaman kimi böyük bir İslam aliminin "sırf ədəb-ərkanla deyilmiş olması üçün" yüzlərlə səhifə boyunca bütün İslam ümmətini aldadacaq izahlara yer verməsi üstəlik də bütün bunları Peyğəmbərimiz (s.ə.v)-in səhih hədislərinə əsaslandırmasından heç bir şəkildə söhbət gedə bilməz.** Bədiüzzamanın öz Mehdiliyini qəbul etməmək üçün yüzlərlə səhifə boyunca yalan

danışdığını və müsəlmanları səhv məlumatlandırdığını iddia etmək aydındır ki, dərin bir Allah qorxusuna və güclü bir imana sahib belə dəyərli bir İslam aliminə qarşı atılmış çox böyük bir böhtan və iftira olar. Vəfatından illərlə vaxt keçdikdən sonra belə bir iddianın edilməsi isə, hər nə qədər yaxşılıq və Bədiüzzamana göstərilən sevgi adına da edilmiş olsa, bu vicdani olaraq heç bir şəkildə qəbul edilə bilməz. Buna görə də Bədiüzzamanın Mehdilik mövzusundakı həqiqi düşüncələrinin tam mənasıyla aydınlaşdırılmasında fayda vardır.

Bu kitabda yer verilən, Bədiüzzamanın əsərlərində yüzlərlə səhifə boyunca izah etdiyi Mehdilik mövzusuyla əlaqədar bütün izahları, Bədiüzzamanın hz. Mehdi olmadığını dəlilləriylə birlikdə bəyan edir. Bu həqiqətin başa düşülməsi üçün Bədiüzzamanın bu mövzuda verdiyi dəlillərdən bəzilərini qısaca belə sıralaya bilərik:

1. Bədiüzzaman **"hz. Mehdinin seyid olacağını, özünün isə seyid deyil kürd olduğunu"** *(Emirdağ Lâhikası, səh. 266)*, *(Tenvir, Şualar, səh. 365) (Münazarat, səh.84; Tarihçe-I Hayat, səh.228; Bediüzzaman Ve Talebelerinin Mahkeme Müdafaları, səh.18);*

2. **"Özünün hz. Mehdinin bir ağası, nümayəndəsi və qabaqcılı olduğunu"** *(Barla Lâhikası, səh. 162)*;

3. **"Əsərləri və gördüyü işlər ilə hz. Mehdiyə zəmin hazırladığını"** *(Sikke-i Tasdik-i Gaybî, səh. 189);*

4. **"Hz. Mehdinin öz yaşadığı dövrdən bir əsr sonra zühur edəcəyini"** *(Kastamonu Lâhikası, səh. 57);*

5. **"Hz. Mehdi zühur etdiyində özünün vəfat etmiş olacağını"** *(Sikke-i Tasdik-i Gaybi, səh. 172)*

6. **"Özünün və Risalə-i Nurun Mehdi olaraq zənn edilməsinin bir səhv və qarışdırma olduğunu"** *(Emirdağ Lahikası, səh. 266)* **izah edərək Mehdi olmadığını ifadə etmişdir.**

7. **"Hz. Mehdinin siyasət, səltənət və diyanət sahəsində üç böyük vəzifəni eyni anda yerinə yetirəcəyini"** *(Şualar, səh. 456), (Şualar, səh. 590), (Emirdağ Lahikası, səh. 259-260)* **ifadə etmişdir; ancaq özü bu üç vəzifəni eyni anda yerinə yetirməmişdir.**

8. **"Hz. Mehdinin "materializm, ateizm və darvinizm kimi əsası Allahı inkar etmə üzərinə qurulmuş olan dinsiz cərəyanları "tam mənasıyla" təsirsiz hala gətirərək insanların imanını xilas edəcəyini"** *(Sikke-i Tasdik-i Gaybi, s. 9), (Emirdağ Lahikası, səh. 259)* **ifadə etmişdir; ancaq bu dinsiz cərəyanların aradan qalxması Bədiüzzamanın yaşadığı dövrdə "tam mənasıyla" reallaşmamışdır.**

9. **"Hz. Mehdinin "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi və bütün müsəlmanların mənəvi lideri" ünvanını daşıyaraq islam əxlaqının əsaslarını yenidən dirçəldəcəyini"** *(Sikke-i Tasdik-i*

*Gaybi, səh. 9)*, izah etmişdir; ancaq özü bütün inananların mənəvi lideri xüsusiyyətinə sahib olmamışdır.

10. "Hz. Mehdinin bütün dünyaya sülh, ədalət və haqq gətirəcəyini və islam aləmi üzərindəki zülmü aradan qaldıracağını" *(Emirdağ Lahikası, səh. 259), (Mektubat, səh. 411-412), (Mektubat, səh. 440), (Şualar, səh. 456)* ifadə etmişdir; ancaq bu vəziyyət Bədiüzzamanın yaşadığı dövrdə reallaşmamışdır.

11. "Hz. Mehdinin "ən böyük mücəddid" xüsusiyyətinə sahib olacağını" *(Tılsımlar Mecmuası, səh. 168)* xəbər vermişdir; Ancaq Bədiüzzaman bu ünvana sahib olmamışdır.

12. "Hz. Mehdinin bütün məzhəbləri aradan qaldıracağını və "ən böyük müctəhid" (lazım gəldikdə ayələrdən hökm çıxardan böyük İslam alimi və lideri) olaraq fəaliyyət göstərəcəyini *(Tılsımlar Mecmuası, səh. 168), (Mektubat, səh. 411-412)* ifadə etmişdir; Ancaq Bədiüzzaman məzhəbləri aradan qaldırmamış və şafi məzhəbinə tabe olmuşdur. *(Emirdağ Lahikası, səh. 38), (Büyük Tarihçe-i Hayat, səh.202), (Büyük Tarihçe-i Hayat, səh. 206) (Emirdağ Lahikası, səh.573)*

13. "Hz. Mehdinin islam Birliyini təmin edəcəyini" *(Emirdağ Lahikası, səh. 260)* ifadə etmişdir; Ancaq Bədiüzzaman yaşadığı dövrdə bütün dünya müsəlmanlarını bir yerə toplayaraq İslam Birliyini yaratmamışdır.

14. "Hz. Mehdinin bütün İslam alimlərinin, Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn seyidlərin və bütün müsəlmanların dəstəyini alacağını" *(Emirdağ Lahikası, səh. 260)* izah etmişdir; Ancaq Bədiüzzaman yaşadığı dövrdə belə geniş bir seqmentin dəstəyini almamışdır.

15. "Hz. Mehdinin "üç böyük vəzifəsini" yerinə yetirərkən çox böyük bir maddi güc və hakimiyyət sahibi olacağını" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* ifadə etmişdir; Ancaq Bədiüzzaman belə böyük bir maddi güc və hakimiyyət əldə etməmişdir.

16. "Hz. Mehdinin xristian dünyası ilə əməkdaşlıq edəcəyini" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* xəbər vermişdir; Ancaq Bədiüzzaman belə bir əməkdaşlığı reallaşdırmamışdır.

17. "Hz. Mehdinin hz. İsa ilə birlikdə namaz qılacaqlarını" *(Şualar, səh. 493)* ifadə etmişdir; Ancaq Bədiüzzaman yaşadığı müddət ərzində hz. İsa ilə birlikdə olmamış və onunla birlikdə namaz qılmamışdır.

18. "Hz. Mehdinin Quran əxlaqını bütün dünyaya hakim edəcəyini və bütün insanları doğru yola təşviq edəcəyini" *(Sikke-i Tasdik-i Gaybi, səh. 9) (Mektubat, səh. 473)* demişdir; ancaq İslam əxlaqının dünya hakimiyyəti də Bədiüzzaman yaşadığı dövrdə reallaşmamışdır.

19. **“Hz. Mehdinin hz. İsa ilə birlikdə süfyaniyət və dəccaliyyətin fikir sistemini təsirsiz hala gətirəcəklərini” izah etmişdir; ancaq Bədiüzzaman hz. İsa ilə bir yerə gəlməmiş və bu fikri sistemləri təsirsiz hala gətirilməmişdir.**

## BƏDİÜZZAMANIN SÖZLƏRİ AYDINDIR; BÜTÜN BUNLARIN “BATİNİ TƏFSİR” ADI ALTINDA MÜXTƏLİF ŞƏKİLDƏ ŞƏRH EDİLMƏSİNİN LAZIM OLDUĞU KİMİ BİR MƏNTİQ BƏDİÜZZAMANIN İZAHLARIYLA ZİDDİYYƏT TƏŞKİL EDİR

Bir insanın hz. Mehdi olması barədə danışa bilmək üçün Bədiüzzamanın yuxarıda verilən sözlərindəki bütün xüsusiyyətlərin **“tək bir şəxs”** üzərində müşahidə edilməsi lazımdır. Bədiüzzaman həyatını islam əxlaqının təbliğinə həsr etmiş, bu istiqamətdə çox böyük və şərəfli bir mübarizə aparmışdır. Ancaq hz. Mehdinin bu xüsusiyyətlərinə sahib olmamış, dünya səviyyəsində yerinə yetirəcəyi vəzifələri yerinə yetirməmişdir.

Bədiüzzamanın sözləri və hz. Mehdiyə aid hələ reallaşmamış əlamətlər, Bədiüzzamanın Mehdi olmadığını aydın şəkildə bəyan edir. Lakin bu həqiqəti bəzən müxtəlif şəkillərdə şərh etməyə cəhd edirlər; Bədiüzzamanın sözlərinə həqiqi mənalarından kənar olan bəzi şərhlər də əlavə olunaraq fərqli düşüncələr əmələ gətirilə bilir. Hətta bu dünyagörüşü elə bir səviyyəyə çata bilər ki, Bədiüzzamana böyük bir sevgi və hörmət bəsləyən kəslər belə Bədiüzzamanın dediklərinin aydın ola bilməsi üçün **“risalələrdəki sözlərinin kafi olmayacağını”** iddia edər. Bu sözləri yalnız xüsusi sirlərə sahib olan, xüsusi təfsir gücü olan, xüsusi qabiliyyətlərə və hisslərə sahib olan bəzi xüsusi kəslərin **“batini təfsir”** etməklə başa düşə biləcəklərini müdafiə edirlər. Halbuki bu kimi iddialar, belə dəyərli bir mücəddidin qələmə aldığı risalələrin hamısını şübhəli hala gətirəcək olduqca təhlükəli müdaxilələrdir.

Bədiüzzamanın şəxsən özü əsərlərində dəfələrlə bu mövzunun əhəmiyyətini ifadə etmiş; Bu cür bir anlayışa qarşı olduğu istiqamətindəki fikirlərini bəyan etmişdir. Əgər risalələrdəki mətnlərin təfsirə ehtiyacı varsa, bunu yenə bu mətnlər üzərində ediləcək əlavə izahlarla mövcud olan izahların uyğun gələcəyini ifadə etmişdir. Bu sözlərindən birində **“Bədiüzzaman belə bir təfsir anlayışından istifadə olunsa, bunun necə sui istifadəyə yol açacağını və bu yolla risalələrdə bəhs edilən həqiqətlərin necə əslindən uzaqlaşıb dəyişəcəyini”** belə xatırlatmışdır:

**Nurun mətninin izaha ehtiyacı olsa ediləcək bu izahların ya sətirin üstündə, ya da kənarda yazılması daha münasibdir**. Çünki mətnin içərisinə girsə, çoxaldılan nüsxələr ayrı-

ayrı olar və onları düzəltmək lazım gələr. **<u>Həm SUİ İSTİFADƏYƏ ŞƏRAİT YARANAR, HƏM DƏ QARŞI ÇIXANLAR BUNDAN istifadə edərlər. Həm hamı sənin kimi həqiqəti tədqiq edib tapan, təfərrüatlı olaraq tədqiq edən, ən kiçik gizli şeyləri belə görməyə çalışan olmaz, SƏHV MƏNA VERƏN BİR SÖZ ƏLAVƏ EDƏR, ƏHƏMİYYƏTLİ BİR HƏQİQƏTİ İTİRMƏYƏ SƏBƏB OLAR</u>.** Mən etdiyim düzəlişlərdə belə zərərli əlavələri çox gördüm... (Emirdağ Lâhikası Elyazma, səh. 661)

Yaşadığı əsrin mücəddidi olan belə mübarək bir şəxsin bütün dünya müsəlmanlarını yaxından maraqlandıran Mehdilik mövzusundakı əhəmiyyətli izahlarının da batini təfsir adı altında şərh edilməsi olduqca əhəmiyyətlidir. Belə bir dünyagörüşü risalələrin orijinal halından uzaqlaşmasına və müsəlmanların səhv məlumatlandırılmasına səbəb olacaqdır. Bu da Bədiüzzamanın hikmətli sözlərinin və dəyərli izahlarının lazım olduğu kimi təqdir edilməməsinə gətirib çıxaracaqdır.

Bədiüzzaman əsərlərində ***“Risalə-i Nurun hər bir kitabı bir Səiddir. Siz hansı kitaba baxsanız mənimlə qarşı-qarşıya görüşməkdən on dəfə çox faydalanar, həmçinin də həqiqi bir surətdə mənimlə görüşmüş olarsınız. Risalə-i Nur mənə heç bir ehtiyac saxlamır”.*** *(Emirdağ Lahikası, səh. 159)* şəklində bildirmişdir. Demək ki, risalələr hər hansı bir mövzuda Bədiüzzamanın bütün qənaətlərini ən açıq və doğru şəkildə əks etdirir. Mehdiyyət mövzusunda da Bədiüzzaman çox aydın izahlar etmiş **“özünün və ya onun şəxsi mənəvisi olaraq Risalə-i Nurun Mehdilik vəzifəsini boynuna götürməmiş olduğunu; Axırzamanın “böyük Mehdi”sinin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və risalələrdə yüzlərlə səhifə boyunca izah edilən xüsusiyyətlərə sahib olmasıyla tanınacağını”** heç bir mübahisəyə yol verməyəcək şəkildə izah etmişdir.

# ƏLAVƏ BÖLMƏ:

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç  bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir  müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona

görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv

edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin

əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus, homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri

belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi

şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Dərin məlumatlar ehtiva edən beş min səhifəlik Risalə- i Nur külliyyatı ilə milyonlarla insanın hidayətinə vəsilə olan böyük mütəfəkkir Bədiüzzaman Səid Nursi Quran əxlaqını ən gözəl şəkildə yaşamış, mübarizəsiylə bütün müsəlmanlara nümunə olmuşdur.

Əsərlərində bir çox mövzuya yer verən hicri 13-cü əsrin mücəddidi Bədiüzzamanın üstündə əhəmiyyətlə dayandığı mövzulardan biri də Axırzamandır. Bədiüzzaman müsəlmanlar üçün müjdəli olan bu dövrün əlamətlərini və əhəmiyyətli şəxslərini səhifələrlə və çox təfərrüatlı olaraq izah etmişdir.

Axırzamanın əhəmiyyətli şəxslərindən olan hz. Mehdinin tanınmasına vəsilə olacaq xüsusiyyətlər də Bədiüzzamanın əhəmiyyətlə üstündə dayandığı mövzulardandır.

Bədiüzzaman əsərlərinin bir çox yerində yalnız hz. Mehdinin yerinə yetirə biləcəyi “üç vəzifə” olduğunu izah etmişdir. Əlinizdəki kitabçanın birinci hissəsində Bədiüzzamanın ətraflı olaraq izah etdiyi “hz. Mehdinin üç böyük vəzifəsi” mövzusuna toxunulur.

Kitabçanın ikinci hissəsində “Bədiüzzaman hz. Mehdinin siyasət və səltənət sahələrindəki vəzifələrini necə izah etmişdir” mövzusu izah edilir.

Üçüncü hissə isə “Bədiüzzaman özünə Mehdilik zənnində olan nur tələbələrinin yanıldıqlarını necə izah edir?” başlığına sahibdir.

Kitabçanın son hissəsinin başlığı isə: “Bədiüzzaman əsərlərində özünün “son mücəddid” və “Mehdi” olmadığını dəlilləriylə birlikdə izah etmişdir”.